# DƏRƏLƏYƏZ MAHALININ KAMERAL TƏSVİRİ
## (1831-ci və 1842-ci illər)

«Elm və təhsil»
Bakı – 2017

**TƏRCÜMƏ EDƏN, ÇAPA HAZIRLAYAN
VƏ ÖN SÖZÜN MÜƏLLİFİ**

**Nazir Əhmədli**

***Elmi redaktoru: t.ü.e.d., professor Z. Şahverdiyev***

***Elmi məsləhətçilər: t.ü.e.d., prof. Z. Həsənəliyev
t.ü.f.d. C.Bəhramov***

**Rəyçi: Güntəkin Nəcəfli,
AMEA A.Bakıxanov adına
Tarix İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d.,
Azərbaycan Respublikası Dövlət mükafatı laureatı**

**Kitaba daxil edilən Qərbi Azərbaycanın Dərələyəz mahalında 1831-ci və 1842-ci illərdə çar məmurları Zolotnitski və Zaporojski tərəfindən tərtib olunmuş kameral təsvirlərdə əhalinin adbaad siyahısı, yaşı, milli tərkibi, sayı ilə yanaşı, mahalın təbii ehtiyatları, heyvanat aləmi, bitki örtüyü, çayları, dağları, iqlimi, yolları, əhalinin məşğuliyyəti və s. ətraflı şəkildə təsvir olunmuşdur.**

ISBN 978-9952-8176

**«Elm və təhsil», 2017**

**ÖN SÖZ**

# Qərbi Azərbaycanın Dərələyəz mahalı

Qərbi Azərbaycanın ən böyük mahallarından biri olan Dərələyəz şərqdə Zəngəzur, qərbdə Vedibasar, şimalda Göyçə, cənubda Naxçıvan xanlığının Məvazixatun mahalları ilə həmsərhəd idi. Mahalın şərqdən qərbə uzunluğu 50 verst, şimaldan cənuba isə eni 40 verst, sahəsi təxminən 2 min kv. verst idi (keçmiş Rusiyada uzunluq vahidi olaraq işlədilən 1 kv. verstin 1,13 kv. km olduğunu nəzərə alsaq, bu rəqəm 2.260 kv.km edir).

Tanınmış alim İ.Bayramov **"Dərələyəz"** toponiminin **"dərə"** sözündən və **"Alagöz"** toponimindən yarandığını irəli sürsə də (**İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri Bakı, 2000, s.131),** bu fikirlə razılaşmaq çətindir. Çünki Dərələyəzdə "Alagöz" adlı toponim yoxdur, Qərbi Azərbaycanın başqa bir ərazisində, Dərələyəzdən uzaqda yerləşən Alagöz adlı dağ var və ermənilər onu "Araqats" eləmişdilər. "Dərələyəz" toponiminin "dərə" və "ələyəz" sözlərinin birləşməsindən yarandığını daha düzgün hesab etməliyik, üstəlik, Dərələyəz mahalında **"Ələyəz"** adlı kənd də var idi. "Dərələyəz" toponiminin bu kəndin adından yarandığını da qəbul etmək mümkün deyil. Dərələyəzdə ***ələyəz*** adlı geniş yayılmış bir bitki vardı ki, buranın sakinləri ondan ərzaq məhsulu kimi istifadə edirdilər. Qadınlar onu yazdan yığıb tədarük edir və qışa hazırlayır, bütün qışı ondan müxtəlif xörəklər hazırlayırdılar. Bu bitki xüsusən keçmiş dövrlərdə yerli sakinlərin məişətində

ciddi yer tutmuşdur. Ona görə də “Dərələyəz” toponiminin ***“ələyəz bitkisinin bol olduğu dərə”*** anlamını verdiyini düşünmək ən məntiqə uyğun fikir sayılmalıdır.

(Dərələyəz və ümumiyyətlə, Qərbi Azərbaycan tarixinin, etnoqrafiyasının öyrənilməsində əvəzsiz tədqiqatların müəllifi olan mənşəcə fransız olan rus alimi İ.Şopen (1798-1870) yer adlarının yaranması ənənəsindən yazarkən, düzgün olaraq qeyd edir ki, ərazini əksər hallarda suyundan istifadə edilən çayın adına “basar” sözü artırmaqla adlandırıblar, məsələn, Vedibasar, Zəngibasar, Qarnibasar, Karpibasar və s. Bu ənənəni Dərələyəz mahalına aid etsəydik, oranı eyni uğurla **“Arpabasar”** da adlandıra bilərdik, çünki bu mahal Şərqı Arpaçayın sağ və sol sahillərində yerləşmişdir. Başqa cür desək, Arpa çayı bütün Dərələyəz mahalından keçərək, Şərur mahalında Araz çayına tökülür və Dərələyəz mahalında suvarma üçün istifadə edilən əsas su mənbəyidir).

Ermənilər bu əraziləri **“Vayotdzor”** adlandırırlar, bu sözü **“vay”** sözünə **“dərə”** mənasını verən “**dzor”** artırmaqla düzəltmişlər, yəni **“Vay dərəsi”.** Bu adın yaranmasını belə izah edirlər.

Tarixi qaynaqlara görə, karvan yollarının üstündə yerləşən və orta əsrlər üçün böyük rəqəm hesab olunan 10 min nəfər əhalisi olan **Moz** şəhəri 735-ci ildə zəlzələ nəticəsində dağılıb, burada o qədər əhali ölüb ki, sağ qalanların ahnaləsi, vay-şivəni ərşə bülənd olub. O vaxtdan da bu dərənin adı **“Vay dərəsi”** kimi yaddaşlara yazılıb. (Moz şəhərinin xarabalıqları **Məlikşah** kəndi ilə **Söylan** qəsəbəsinin arasında, Arpaçayın sağ sahilində yerləşirdi, İrəvana gedən magistral yol buradan keçirdi).

Erməni salnaməçiləri yazır ki, **Sünik** yepiskopu təyin

olunan ***Stepanos*** adlı bir nəfər cəmi bir il bu vəzifədə işlədikdən sonra Moz yaxınlarında bir fahişə qadın tərəfindən öldürülüb, onun cəsədi **Arkaz** (yəqin ki, **Ərgəz)** sarayına gətirilib və **Tanaat monastrında** basdırılıb. Guya bu hadisədən bir qədər keçmiş **Nuh** (Noy) adlı bir keşiş yuxuda görür ki, sinəsi qanlı Stepanos Rəbbin qarşısında durub onun qisasının alınmasını tələb edir. Və bundan sonra oralarda 40 gün zəlzələ olur, daş üstündə daş qalmır və 10 min adam ölür, həmin yerin adı da bu hadisələrlə bağlı olaraq ***Vay dərəsi*** qalır.

Baş vermiş səlzələni yepiskop Stepanosun ölümü ilə əlaqələndirmək cəhdi sonradan uydurulma və dini təbliğat xarakterli olmaqdan başqa(erməni salnaməçilərinin belə cəhdlərini müasir tarixçilər də qeyd edir), burada daha iki şey diqqəti cəlb edir: hələ lap qədimdən ermənilərdə qədim peşənin çiçəklənməsi və yepiskopun onların müştərisi olması, onlarla oturub-durması. Bu cür adamdan ötrü isə Allahın 10 min günahsız insanı məhv etməsi heç ağlabatan görünmür, əgər məhv edibsə, onda onun hansı ədalətindən danışmaq olar? Əlbəttə bu suallar ritorik, yəni cavabı əvvəldən bəlli olan suallardır. Baş vermiş zəlzələnin, vulkanın yepiskop Stepanosla heç bir əlaqəsi yoxdur və təbiət hadisəsindən başqa bir şey deyil.

Dərələyəzin siyasi tarixinə gəlincə, buranın Göyçə və Zəngəzur mahalları ilə birlikdə ilk orta əsrlərdə Azərbaycan Albaniyasının Sünik vilayətini təşkil etdiyi haqqındakı mülahizələri doğru qəbul etmək məcburiyyətindəyik. Bu ərazinin Ərəb xilafəti dövründən başlayan tarixi də az-çox məlumdur. Dərələyəz mahalının da qonşu ərazilər kimi əvvəlcə xilafətin, sonra səlcuqların, monqolların, Qaraqoyunluların, Ağqoyunluların, Səfəvilərin, 1747-1828-ci illərdə

Naxçıvan xanlığının, 1828-ci ildən isə Rusiyaya İmperiyasının tərkibində olduğu da məlumdur. 1588-ci və 1724-cü illərdə bu ərazi qısamüddətli də olsa, osmanlılar tərəfindən işğal edilmiş, amma 1603-cü ildə I Şah Abbas, 1735-ci ildə isə Nadir şah (1735-ci ildə Nadir hələ şah deyildi, II Təhmasibin sərkərdəsi olaraq **Təhmasibqulu xan** adlanırdı, 1736-cı ildə özünü şah elan edəndən sonra əvvəlki Nadir adını özünə qaytarıb Nadir şah olaraq 1747-ci ildə sui-qəsd nəticəsində öldürülənə qədər dövləti idarə etdi) tərəfindən osmanlılardan geri alınmışdır.

Dərələyəzin adına inzibati-ərazi vahidi kimi ilk dəfə Şərəf xan Bidlisinin **"Şərəfnamə"** əsərində rast gəlirik.

Şərəf xan yazır ki, Şah I Təhmasib(1524-1576) Xoy və Sökmənabad şəhərlərinin, eləcə də onların ətraf ərazilərinin idarəçiliyini **dümbülü tayfasına** vermişdi və onların hakimliyi atadan oğula keçirdi. Bu imtiyaz Şah Təhmasibin oğlu Məhəmməd Xudabəndənin (1578-1587) dövründə də davam etmişdir. Dümbülü tayfasının əmiri Hacı bəyin vəfatından sonra Məhəmməd Xudabəndə onun oğlu Əli bəyi bu vəzifəyə təyin edir, Süleyman-Saray mahalını və Abanay mahalının yarısını da onun idarəsinə verir. Müəllif yazır: "O, **(Əli bəy-N.Ə.)** həmin vilayətin əmiri olaraq Şərurda bir neçə il yoxsulluq içində yaşadı. Çünki həmin vilayət qarmaqarışıqlıqlar nəticəsində süquta uğramış və boşalmışdı, heç bir gəlir vermirdi. **Naxçıvana tabe olan Şərur və Dərə-yi Əlkisin** vergilərindən müəyyən məbləğ alırdı və burada, Şərurda da öldü" (**Ş.Bidlisi, "Şərəfnamə", I c., M, 1967, səh 362).** Qeyd edək ki, 1728-ci il tarixli **"İrəvan əyalətinin icmal dəftəri"**ndə Sədərək nahiyəsində dümbülü əşirətinin Xatunkəhriz, Molla Xəlil, İsaxan, Dərəbəy, Yaqutxan, Söyüdlü, Hacı İslam, Bəy, Öküzbatır kənd-

lərində yaşadığı qeydə alınmışdır (**"Naxçıvan sancağının müfəssəl dəftəri"**. Bakı, 2001, s.361-362).

Erməni alimi A.D.Papazyan bu sözü **"Dərə-ye Ələqis"** kimi verir **(А.Д.Папазян. «Аграрные отношения в Восточной Армении в XVI-XVII веках». Ереван, 1972, с.50).**

"Şərəfnamə"nin orijinalında (əsər fars dilində qələmə alınmışdır) bu söz **"Dərə-ye Əlkis"** kimi oxunur **(Scheref-nameh pur Scheref, prince de Bidlis. Sv.Petersburqe. 1860, P.I, p.315 (fars dilində).** Əsəri Sankt-Peterburq İmperator Akademiyasının üzvü **V.Velyaminov-Zernov** çapa hazırlamışdır).

İrəvan əyalətinin 1590-cı ilə aid müfəssəl dəftərini tədqiq etmiş tarixçi alim H.Məmmədov-Qaramanlıya görə, XVI əsrin sonlarında Dərələyəz inzibati-ərazi vahidi kimi mövcud olmamışdır **("Naxçıvan sancağının müfəssəl dəftəri". Bakı, 2001, səh.287).** 1590-cı ilə aid müfəssəl dəftərdə İrəvan əyalətinə daxil olan 27 nahiyə arasında Dərələyəz doğrudan da yoxdur, halbuki onunla qonşu olan nahiyələrin hamısının adı çəkilir. Həmin nahiyələr bunlardır: İrəvan, Kerpi, Gərni, Vedi(sənəddə Vadi kimi verilmişdir), Aralıq, Talin, Armavir, Aylik(?), Abaran, Şərəbxana, Ağcaqala, Naxçıvan, Məvazeyi Xatun, Mülkü Arslanlı, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Zar-zebil, Əlincə, Sisyan, Ordubad, Azadcıran, Şorlut və Dərənürgüt **(H.Karagöz. 1590 tahririne göre Nahçıvan kazası. Isparta,2001. Səh.17).**

Həmin təhrir dəftərinin hazırlanmasından cəmi 6 il sonra, 1596-1599-cu illərdə qələmə alınmış "Şərəfnamə"-də adının çəkilməsinə baxmayaraq, 1590-cı ilə aid **"İrəvan əyalətiniun müfəssəl dəftəri"**ndə Dərələyəzin olma-

ması düşünməyə əsas verir ki, Şərəfxan Bidlisinin yazdığı kimi, qarmaqarışıqlar nəticəsində buralar tamam boşalmış və adam yaşamadığından, qeydə düşməmiş, yaxud da sonradan Dərələyəz nahiyəsinə daxil edilən kəndlər başqa bir nahiyənin, ola bilsin ki, Bazar çayı nahiyəsinin tərkibində olmuşdur. H.Məmmədov (Qaramanlı) Dərələyəzin 1590-cı ildə Bazarçay nahiyəsində siyahıya alınmış 3 kəndinin adını çəkir: Kələdək, Yengicə və Moz. Məlumat üçün deyək ki, sovet hakimiyyəti dövründə Bazarçayı Sisyan rayonunun tərkibində, Dərələyəzin yaxınlığında yerləşən kənd idi.

İstər 1727-ci ilə aid olan "Naxçıvan sancağının müfəssəl dəftəri"i, istərsə də 1728-ci ilə aid olan "İrəvan əyalətinin icmal dəftəri"nə görə Dərələyəz mahalı Naxçıvan sancağının həm ərazi, həm də məskunlaşmış yaşayış məntəqələrinin sayına görə ən böyük mahalı idi. 1727-ci ildə burada 99 kənd və 5 məzrəə qeydə alınmış və bu kəndlərin 68-də yaşayış var idi.

O vaxt belə bir praktika vardı-ərazini ələ keçirən hökmdar oraları özü məskunlaşdırır, oranı düşmən ordusuna tərk etmək məcburiyyətində qalanda isə əhalini də özü ilə köçürüb aparırdı, bu isə həmin adamlar üçün böyük faciə olmaqdan başqa, ərazilərin də boşalmasına səbəb olurdu. Belə kütləvi köçürülmələr Şah I Abbasın hakimiyyəti illərində öz kulminasiyasına çatmışdı.

1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə də bu cür hadisənin izlərinə rast gəlmək mümkündür, məsələn, Dərələyəz mahalının Sallı kəndini təsvir edən Osmanlı məmuru yazmışdır ki, **"kəndin əhalisi qızılbaş (səfəvi tərəfdarı-N.Ə.) olduğu üçün qaçıb getmişdir".** Deməli, adları vergi siyahısına (müfəssəl dəftərə) düşənlər osmanlı tərəfdarı sayılmalıdır ki, Nadir xan İrəvan va

Naxçıvan əyalətlərini osmanlılardan geri aldıqdan sonra (1735) bu ərazilər uzun müddət boş qalmışdır.

**Dərələyəz Şərqi və Qərbi Dərələyəz olmaqla iki hissədən ibarət idi**, Qərbi Dərələyəzə Şərqi Arpaçayın aşağı axarı ətrafında yerləşən və hazırda Naxçıvan Muxtar Respublikasının Şərur rayonuna daxil olan Yaycı, Axura, Yuxarı və Aşağı Danzik, Havuş, Həmzə Əli Dizə, Dostəlibəy Dizə, Cağazur və başqa kəndlər, eləcə də hazırda Ermənistan Respublikasında qalan Xaçik, Aynazur və bəzi kəndlər daxil idi və buranın əhalisi Xaçik və Aynazur kəndləri istisna olmaqla müsəlmanların şiə məzhəbinə mənsub olan türklər idi.(Qərbi Dərələyəz Dərələyəz dağ silsiləsinin cənub ətəklərində yerləşir). **Şərqi Dərələyəzin sakinləri isə əsasən Qaraçor türkmənləri idi.**

Milli mənsubiyyəti bəzən mübahisə obyekti olan qaraçorlular haqqında elmi fikirlərə müraciət etmək məcburiyyətindəyik. Bu səbəbdən də **"qaraçorlu"** sözünün mənşəyini, qaraçorluların yaşayış arealını və etnik mənşəyini də araşdırmağa ehtiyac yaranır.

Araşdırılan mənbələrə görə **(Vikipediya):**

1.**"Çorlu", "qaraçorlu"** türk sözü olmaqla, onlar türk-monqol mənşəli **Kerait** tayfalarının törəmələridir.

2. "Çor" sözü yer adı kimi, habelə türk hökmdarlarında **titul** kimi işlənirmiş (Заур Гасанов. Чарские скифи. Нью-Йорк. 2002 г. Стр. 199,220,225,250).

3."Çor" **Dərbənd** şəhərinin Alban tarixindəki keçmiş adıdır (Lev Qumilyov. "Qədim türklər". Bakı. 1993. S.230).

4. **"Çor", "çur" qədim türk sözüdür, mənası "igid", "qəhrəman" deməkdir. "Çor" kəngər-peçeneqlərin bir tayfasının adıdır,** Ağstafa çay vadisinin yuxarı hissəsində (indiki Ermənistan ərazisi) yaşamışlar **(Q.Qeybullayev.**

**"Qədim türklər və Ermənistan". Bakı, 1982, səh.105).**

5.XVI əsrdə qızılbaşların zülqədər tayfasının Şəmsəddinli tirəsi **Çor mahalında** məskunlaşmışdı (Yenə orada, səh.114).

6.**"Çor" müəyyən bir elin adıdır və Çorlu toponimlərində indiyədək qalmışdır.** Altayda yaşayan tayfalardan biri indi də Çor adlanır. Azərbaycanda Çoryurd (Yardımlı rayonu) və Qəbələ rayonunda Çorlu yer adları vardır. **(B.Ə. Budaqov, Q.Ə.Qeybullayev. "Gürcüstanda türkmənşəli toponimlərin izahlı lüğəti". Bakı. 2002. S.29, 106, 108, 290).**

7.Türkiyədə Çorum sancağı nahiyəsi...Köçəri həyat tərzi keçirən türklərə yörüklər deyilirdi. **Çorlu yörükləri...** (Faruk Sümər. Oğuzlar. Bakı. 1992. Səh.20, 308-364).

Bütün bunları yekunlaşdıraraq belə nəticəyə gələ bilərik ki, Qaraqoyunlu, Qarapapaq, Qaraçöplü, Qaraçanlı, Qaramanlı, Qarabayramlı, Qaracallı və s. kmi, **Qaraçorlular da türk tayfasıdır.**

**Türkiyədə yaşamış Azərbaycan mənşəli məşhur professor Əhməd Cəfəroğlu da qaraçorluları İran türklərindən olan bir el hesab edib.** Türkiyənin başqa bir məşhur tarix professoru **Yusif Halacoğlu da qaraçorluları XVI əsrdə Ərzurumda məskunlaşan türkmən ellərindən biri kimi təqdim edir (Ankara Universiteti ədəbiyat fakültəsinin araşdırma dərgisi. Özəl sayı, 1979, səh.207).**

Qədim yazılı qaynaqlara görə, **Göytürk dövlətini** yaradan iki tayfa xüsusi qılınc hazırlayırdı. Hər tayfa da istehsal etdiyi qılınca öz adını vermişdi. Tayfalardan birinin adı **"Bilgətəkin",** digəri isə **"Qaraçori"** idi. Hər iki tayfa tərəfindən düzəltdikləri qılıncın üstündə onların öz nişanı xüsusi şəkildə həkk olunurdu. O zaman Göytürk imperiyasının

sərhədləri Azərbaycanı da əhatə edirdi. 1926-cı ildə Marağa şəhərində doğulan **Qaraçorlu Bulud Səhəndin** nəsli də Göytürkləri yaradan həmin Qaraçori tayfasına gedib çıxır.

Türkiyə ərazisində, Şərqi Anadoluda olduğu kimi, qaraçorlular İranda da geniş yayılmışlar. Onlar Şərqi Azərbaycan, Ərdəbil və Qərbi Azərbaycan vilayətlərində yaşayırlar. Qaraçorlular hazırda Xorasan əyalətinin Bojnurd, Şirvan və Quçau ilçələrində də kompakt şəkildə yaşayırlar. Tarixi mənbələrə görə, onları buraya I Şah Abbas köçürmüşdür.

**Müəmmər Aksoy** adlı bir türk alimi **"Diyari-Karaçor (Çaybağı)"** adlı məqaləsində yazır: "Qaraçor. Keçmiş zamanlardan Elazığın Palu ilçəsinə tabe olan təxminən 16 kənddən birinin adıdır. İndi isə Elazığın Kovancılar ilçəsinə tabe olan kəndlərdən birinin adıdır. **Qaraçor** kəlməsinin çox mənası vardır. Ancaq mən **"dik halay",** ya da **"dərin yara"** mənalarından başqa bir şey bilmirəm".

Başqa bir yerdə **(sozlukbu.com saytı)** "qaraçor" kəlməsini **"daha çox türkmən oymaqları arasında rast gəlinən bir kukla oyunu növü"** adlandırmışlar.

Tunceli (Dərsim) vilayətinin Pərtək ilçəsində 51 kənd var. Onun Pınarlar nahiyəsində **Paşavənk/Qaraçor kəndi** vardır. Əhalisi türk və zaza göstərilib. Zazaların türk olmadıqlarını nəzərə alsaq, kənddəki qaraçorluları türk saymaq olar.

Bəkir Əli Dəmirəl və Süleyman Yapıcının təqdim etdikləri **"1841-yılında yapılan ilk Osmanlı nüfus sayımı. Palu nüfus dəftəri"** adlı sənəddə başqa bir adı da Çakçur olan **Qaraçor** nahiyəsində 79 kəndin olduğu bildirilir.

Bir qədər əvvəl qeyd etdiyimiz kimi, qaraçorluların ən çox yaşadıqları ərazi İrandır. İranın şimal-şərqində, Xorasan əyaləti, eləcə də Nişapur bölgəsi qaraçorluların

kompakt yaşadıqları yerdir. Onları buraya 1600-cü ildə I Şah Abbasın köçürdüyü söylənilir, görünür, həmin bölgəni möhkəmlətmək üçün döyüş qabiliyyətini yüksək qiymətləndirdiyi qaraçorluları buraya yerləşdirib.

1727-ci ilə aid olan və tarix elmləri namizədi H.Məmmədov (Qararamanlı) tərəfindən 2000-ci ildə çapa hazırlanaraq nəşr edilən **"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə** (bu sənəd də osmanlı arxivlərində saxlanılır) qaraçorlular haqqında qiymətli məlumat vardır:

**"Qaraçorlu camaatı.** Bu camaatın təxminən 400 evi (xanə) olmuşdur. Əcəm (Səfəvi) dövründə itaətsizliyindən dolayı xəzinəyə vergi ödəmirdi. Vergilər öz kəndxudaları tərəfindən mənimsənilmişdir. Rəayanın malını qarət etmələrindən dolayı yaşadıqları Kestasf və Zarıs adlı iki nahiyəni xaraba qoymuş və boşluğa çevirmiş, ***bir qisim ermənini həm xoşluqla, həm də məcburi şəkildə özlərinin rəayası etmişdir.*** Zarıs, Keştasf, Məğavuz və Həkəri tərəflərdə əkinçiliklə məşğul olur, lakin üşr və bəhrəni vermirlər. Üzərlərinə əsgər göndərilsə də, sığıncaq yaxınlığında yaşadıqlarına görə sığıncaqlara çəkilib gizlənir və indiyə qədər onlar üzərində qələbə çalmaq əsgərlərə müyəssər olmamışdır. Bu vəziyyət indi də belədir". (səh. 471).

Yuxarıdakı səbəbdən-dövlətə vergi ödəmədiklərinə görə, təəssüf ki, 1727-ci ildə Qarabağda yaşayan qaraçorluların hansı tayfalarının mövcud olduğunun və həmin adamların adlarını bəzi istisnalarla bilmirik. Müfəssəl dəftərlərə vergi verən adamların adları yazılırdı.

Həmin sənəddə Həkəri nahiyəsindən bəhs edilərkən, yenə də qaraçorluların haqqında məlumatlara rast gəlinir:

"Həkəri nahiyəsində çəltik, ipək, buğda, arpa, darı, üzüm, başqa dənli bitkilər əkilib becərilir. Axar çayları çox

olduğu üçün bura abadlıq işlərinə uyğun yerdir. **Lakin Qaraçorlu və Sığınaqlıların istilası nəticəsində bu nahiyənin əhalisi ətraf yerlərə dağılmışdır.** Allahın köməyi ilə adları çəkilən əşkiyaların araqarışdırması ləğv olunandan sonra nahiyənin əhalisi bir yerə yığılar və buralar getdikcə abadlaşar" (səh.488).

Həmin sənəddən əldə etdiyimiz ən diqqət çəkən fakt isə qaraçorluların erməniləri özlərinin rəiyyətinə çevirməsi faktı sayılmalıdır.

Tarixçi A.Çələbizadənin yazdığına görə, 1727-ci ilin avqustunda osmanlıların işğalı altında olan Təbrizin sərəsgəri Qarabağın Dizaq və Vərəndə nahiyələrinə Qaraçorlu tayfalarına və Muğan düzündəki şahsevənlərə qarşı 15 min nəfərlik süvari qoşun göndərmişdi .

İş o yerə çatmışdı ki, Osmanlı komandanlığı qaraçorlu tayfası ilə ayrıca saziş bağlamağa məcbur olmuşdu və bu sazişə görə qaraçorlular o şərtlə osmanlılara tabe olmağa razı olmuşdular ki, toplanan verginin yarısı Gəncə xəzinəsinə daxil olacaq, qalan yarısı isə qaraçorluların sərəncamında qalacaqdı.

Qaraçorlu eli Nadir şah Əfşarın hakimiyyətinə qədər yarımmüstəqil həyat tərzi sürmüş, Nadir şah Qarabağı osmanlılardan geri almaq üçün gələndə yerli tayfaları öz qoşununa dəvət edərkən, qaraçorlular həvəslə onun təklifini qəbul etmişlər. **Nadir şahın qoşununda vəzifə alan Qaraçorlu elinin başçısı Rüstəm bəy Osmanlı Sədrəzəmi Abdulla paşanı döyüşdə öldürmüşdür. "Qarabağnamə"** müəllifi olan tarixçi Mir Mehdi Xəzani bu barədə belə yazır:

"Şul vaxtda ki, Nadir şah Gəncə və Tiflis və İrəvan və Naxçıvan və Şirvanat vilayətlərini osmanlı sul-

tanının qoşunlarının təsəllütlərindən çıxardıb Abdulla paşa Köprülü oğlu vəziri-əzəmi-Rum yüz min qoşun və çox top və tədarükat ilə sultani-Rum tərəfindən məmur olub gəlmişdi ki, Nadir şah ilə cəng edə. Nadir şah Gəncə mühasirəsinə məşğul ikən Abdulla paşanın şul əzim əsagirləri ilə İrəvana gəlməyini eşidib, Gəncə üstə qoşun qoyub, özü əlli min qoşun ilə Abdulla paşaya müqabil gedib Naxçıvan və İrəvanın Arpa çayında davaları vaqe olub, Rum qoşununu basıb və **Abdulla paşa vəziri-əzəmi Rüstəm bəy Qaraçorlu öldürüb başını Nadir şah hüzuruna gətirmişdi". ("Qarabağnamələr", 2-ci kitab, Bakı, "Şərq-Qərb", 2006, səh. 123-124).**

Nadir şahın ordusunda Məhəmməd xan, Məhəmmədrza xan və Nəcəf Sultan adlı Qaraçorlu əmirləri vardı. Nəcəf Sultan Dərbəndin hakimi olmuşdu.

Qaraçorlular Nadir Şahın sui-qəsd nəticəsində öldürülməsindən sonra Qarabağ xanlığını ayrıca dövlət kimi elan edən Pənahəli xana əvvəlcə tabe olmaqdan imtina edib əvvəlki kimi itaətsizlik vəziyyətində yaşamağa cəhd etsələr də, Pənahəli xan onların üzərinə qoşun göndərib itaətə məcbur etmiş, lakin qaraçorluların Qarabağdan köçü başlamış, onların bir qismi Qaradağ mahalına, bir qismi isə Dərələyəz mahalına köçmüşdür. Pənahəli xan Qarabağda qalıb şaşayan Qaraçorlu elinə Həmzə Sultan Hacısamlını başçı təyin etmişdir. Həmzə Sultan həm elin minbaşısı, həm də mahalın naibi olmuşdur.

Qaradağa köçən Qaraçorlu eli ***kiçikli, gorussəng, bəstamlı, qorçulu, şənbələr, kiçilanlı, bayramqanlı, şıxəlili, əmələ və kolanlı*** oymaqlarına bölünürdü. Qaradağda yaşayan qaraçorluların başçısı Məhəmmədrza bəy idi. Onun

ölümündən sonra yerinə oğlu Şir xan keçdi. Şir xanı da oğlu Bədr xan əvəz etdi. Bədr xan Rusiya-İran müharibəsi zamanı Gəncə yaxınlığında aldığı yaradan öldü. Qəbri Əhər şəhərində Şeyx Şihabəddinin məqbərəsinin yanındadır.

Bədr xandan sonra Qaradağ qaraçorlularına onun oğlu Bəşir xan başçılıq edir, lakin o da çox yaşamır. 1834-cü ildə Herat döyüşlərində əfqanlar tərəfindən öldürülərək başı nizəyə taxıldı. Bu döyüşdə Bədr xanın başqa bir oğlu Şeyxəli xan da öldürülmüşdür.

Qaradağ qaraçorlularının başçılarından biri də Hacı Rza xan Şir xan oğlu idi. Onun oğlu Cəfərqulu xan Herat döyüşlərində böyük şücaət göstərdiyinə görə Məhəmməd şah Qacar tərəfindən mükafatlandırılmışdır. Cəfərqulu xan Qacar ordusunda yüksək bir ünvan-əmir tümən rütbəsi almışdı. Bu məşhur qaraçorlu sonralar qacarların siyasi həyatında mühüm rol oynamışdır **(Ə.Çingizoğlu, F.Baxşəliyev. Qarabağın el və obaları. Bakı, 2007, səh.170).**

1848-ci ildə Məhəmməd şah Qacar Məhəmmədiyyə qəsrində vəfat edərkən, vəliəhd Nəsrəddin Mirzənin Təbrizdə olduğundan istifadə edən şahzadələr, əvvəlcə buradakı şah xəzinəsini, onun köməyi ilə hakimiyyəti ələ keçirməyə cəhd etsələr də, Nəsrəddin Mirzənin anası Məhdi Ulyanın köməyinə gələn Cəfərqulu xan yüz əlli suvari döyüşçü ilə onların bu cəhdinin qarşısını almış və şah xanədanına sədaqətinin sübut etmişdir.

İbrahim xanın hakimiyyətinin son dövrlərindəki döyüşlərdə qaraçorlulara onun oğlu polkovnik Xanlar ağa komandanlıq edirdi.

Azərbaycan Dövlət Tarix Arxivində saxlanan (F.24, siyahı 1, saxlama vahidi 142) **1823-cü ilə aid "Qarabağ əyalətinin kameral təsviri"** adlı sənəddə Qarabağda hə-

min dövrdə mövcud olan **Qaraçorlu mahalı** haqqında da məlumat vardır. Bu sənədə görə 7 kənddən ibarət olan Qaraçor mahalında qaraçorluların ***şeylanlı, gəloxçu, təhməzli, şadmanlı, yurdaxlı*** tayfalarının yaşadığı qeyd olunur **(cəmi 538 ailə).**

Bu qaraçorlular Qarabağda qalıb yaşamağa davam edənlər idi. Haqqında söhbət gedən Qaraçor mahalı təxminən indiki Laçın rayonunun ərazisində yerləşirdi. Dərələyəzli qaraçorlular kimi, onlar da 1988-ci ilin məlum hadisələrindən sonra yer-yurdlarından didərgin düşüb başqa yerlərdə məskunlaşmışlar.

Bu kitaba Dərələyəz mahalı ilə bağlı iki kameral siyahı daxil edilmişdir. Onlardan birincisi 1831-ci ilə aid olan və Ermənistan Milli Arxivində saxlanan (**F.90, siy.1, sax. vah. 102**) sənəddir. **Onun müəllifi rus alimi İ.Şopen sayılır, onun köməkçisi olan məmur V.Zolotnitski tərəfindən rusca tərtib edilmişdir.**

Özünün yazdığına görə, Türkmənçay müqaviləsindən (1828) sonra onu yanına dəvət edən işğalçı rus qoşunlarının komandanı general **Paskeviç** İ.Şopendən xahiş edir ki, Rusiya imperiyasına yenicə birləşdirilən keçmiş Naxçıvan və İrəvan xanlıqlarının, sonradan onların yerində yaradılmış Erməni vilayətinin ərazisində tədqiqat aparsın, əhalinin etnoqrafiyasını, sosial-iqtisadi vəziyyətini müfəssəl şəkildə araşdırsın və ətraflı raport təqdim etsin. Şopen onun təklifini qəbul etmiş və Erməni vilayətini qarış-qarış gəzmiş, əhalinin kameral, yəni adbaad siyahısını tərtib etmiş və topladığı materiallar üzərində uzun müddət araşdırma aparmışdır. Bu araşdırmaların nəticəsi olaraq **«И.Шопен. Исторический памятник состояние Армянской области в эпоху ее присоединение к Российской империи. Спб. 1852»**

**("Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə aid tarixi abidə")** əsəri meydana çıxmışdır.

Göründüyü kimi, çar Rusiyasında işğal etdiyi əraziləri uğurla idarə etmək və bir daha itirməmək üçün bu cür fundamental işlər görülürdü. Əsərin girişində müəllifin verdiyi izahatdan belə məlum olur ki, **İ.Şopen bu işi 1829-cu ilin aprel ayında başlamış, 1832-ci ilin may ayında başa çatdırmış,** onun irihəcmli və qiymətli əsəri 1852-ci ildə Sankt-Peterburqda işıq üzü görmüşdür. Bu əsər bizə də çox qiymətli məlumatlar verir, belə ki, burada başqa ərazilərlə yanaşı, Dərələyəz mahalı da kəndbəkənd araşdırılmış, hər kənddə yaşayanlar adbaad göstərilmişdir. Həmin kitabına yazdığı ön sözdə İ.Şopen sanki peyğəmbərcəsinə deyir: **"Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrün vəziyyətini təsvir edən bu kitab bir sıra inventarları özündə cəmləşdirib. Bu kitabın köməyi ilə gələcəkdə daim müqayisə edib deyəcəklər-nəyimiz var imiş, indi nəyimiz var. Qoy bu vilayətin sakinləri bu kitabı əllərində tutduqları vaxt daim öz keçmişlərini yaşadıqları dövrlə müqayisə etsinlər." (İ.Şopen. Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə aid tarixi abidə. S.Pb. 1852. səh.VI).**

Erməni vilayətinin istər keçmiş İrəvan xanlığında, istərsə də Dərələyəz mahalında 1831-ci ildən sonra baş verənləri isə oranın köklü müsəlman əhalisi üçün faciədən başqa cür qiymətləndirmək mümkün deyil. Kameral siyahıya görə, 1831-ci ildə Dərələyəz mahalında 1001 müsəlman, yalnız 58 yerli erməni ailəsi yaşayırdı, İranın Salmas, Maku və Xoy vilayətlərindən 507, Türkiyədən isə 8 erməni ailəsi buraya köçürülmüşdü və hətta bu köçürmədən sonra

da mahalın əhalisinin 66 %-ini müsəlmanlar, 34 %-ni ermənilər təşkil edirdi, indi isə orada bir nəfər də müsəlman, azərbaycanlı yoxdur.

Bu faciələrin yalnız və yalnız bir səbəbi var: 1747-ci ildə Nadir şahın öldürülməsindən sonra meydana çıxan cırtdan "dövlətlər"-Azərbaycan xanlıqları mərkəzi İran dövlətinə tabe olmaqdan boyun qaçırdıqları halda, Rusiya imperiyasına satılmaq üçün sanki növbəyə durmuşdular, bu qüsurlu praktika isə Qarabağ xanı, sonradan rus mayoru Lisaneviç tərəfindən 17 nəfər ailə üzvləri ilə öz çadırında gülləbaran edilən İbrahim xandan başlamışdı. Naxçıvan xanları da, Quba, Şəki xanları da, başqa xanlar da satqınlıqda ondan geri qalmadılar və nəticədə indiki durum yarandı-çar Rusiyası İrandan və Türkiyədən köçürüb gətirdiyi erməniləri bu yerlərin sahibinə çevirib azərbaycanlıları tamamilə sıxışdırıb çıxartdı. Qeyd etmək lazımdır ki, işğalı asanlaşdırmaq üçün Rusiya dövləti bu xanlara yağlı vədlər verir, onların mərkəzi İran Qacarlar dövlətinə qarşı separatçılıq meyllərini şirnikləndirirdi.

Naxçıvan xanı Kəlbəli xan və onun oğlu Ehsan xan bu hadisələrdə rusların xeyrinə xüsusi canfəşanlıq göstərmişlər. Halbuki, nə qədər böyük tarixi səhv etdiklərini kaş görə bilsələrdi...

Hələ XVI əsrdə zəngin Naxçıvan diyarı qızılbaş tayfalarından ustaclıların bir qolu olan kəngərlilərə irsi olaraq ülka kimi verilmişdi. Yəni ərazinin bütün hərbi və mülkü hakimiyyəti onlarda idi, buradan əldə olunan bütün gəlir onlara çatır və bunun əvəzində müharibə vaxtı 799 döyüşçü çıxarmalı idilər (**Təzkirət-ül mulük,** London, 1943, səh.103). Dərələyəz mahalının da daxil olduğu Naxçıvan tüməni XVII əsrə qədər Təbriz bəylərbəyliyinə, XVII əsrin

əvvəllərindən isə Çuxur Səd bəylərbəyliyinə daxil idi(Səfəvi dövləti 13 vilayətdən ibarət idi). **“Naxçıvan tüməni”** ifadəsi çox gümün ki, Hülakülərin zamanından qalmışdı və Səfəvilər dövründə də davam edirdi. Monqol-tatarlarda “tümən” 10 min əsgərə deyilirdi, tümən statusu verilən vilayət orduya 10 min döyüşçü çıxarmalı idi, görünür, Hülakülərin zamanında Naxçıvanın fiziki imkanları güclü olub. “Təzkirətül müluk”a görə, Naxçıvan tüməninin illik gəliri 3.461 tümən 4.346 dinar idi və müharibəyə 799 döyüşçü çıxartmalı idi(1 tümən 10.000 dinara bərabər idi). (**Tadhirat al-Mulük. A manuel at Safarid administration by V. Minorsky, London 1943, p.161).**

I Şah Abbasın zamanında kəngərli tayfasının başçısı və Naxçıvanın hakimi **Maqsud bəy Kəngərli-ustaclı** idi. İsgəndər bəy Münşinin 1628-ci ildə verdiyi Səfəvi əmirlərinin siyahısına görə Maqsud bəy kəngərli təkcə Naxçıvan kəngərlilərinin deyil, bütün kəngərlilərin başçısı idi. Məsələ burasındadır ki, türkmənlərdən gələn təhlükənin qarşısını almaq üçün I Şah İsmayıl xeyli sayda kəngərlini köçürüb Xorasanda yerləşdirmişdi ki, Maqsud Sultan Kəngərli onların da başçısı sayılırdı (yeri gəlmişkən, I Şah Abbasın zamanında həmin əraziyə xeyli sayda qaraçorlular da köçürülmüşdür).

XVIII əsrin II yarısından başlayaraq, Naxçıvan kəngərlilərinin başçıları xan titulu daşımağa başladılar, onlar Azərbaycanın ən güclü xanlarından sayılırdılar **(И.П.Петрушевский. Очерки по истории фаодальных отношений в Азербайджане и Армении в XVI-в начале XIX вв. Л., 1949,стр.69).**

Məlum olduğu kimi, Rusiya imperiyası XVIII əsrin sonlarında çoxdan göz dikdiyi Qafqazı burada yaşayan er-

mənilərin təhriki və dəstəyi ilə işğal etmək üçün ciddi addımlar atmağa başladı. Qarabağ xanı İbrahim xan da, Naxçıvan xanı Kəlbəli xan da rusların təbliğatına uyub onlara meyl edənlərin ilk sıralarında idilər. Ona görə də ruslar çəkilib gedəndən sonra Ağa Məhəmməd şah Qacar Kəlbəli xanın gözlərinə mil çəkdirmişdi. Bir müddət Tehranda, sonra İrəvanda nəzarət altında saxlanan Kəlbəli xanı Fətəli şah Qacar yenidən Naxçıvana qaytarıb idarəetməni ona verdi, o isə Naxçıvanı ruslara təslim etmək üçün əvvəlki fəaliyyətini davam etdirməyə başladı. Çar hökuməti Gülüstan müqaviləsindən(1813) sonra yaranmış gərginliyi azaltmaq, həm də gələcək işğalçı müharibələrində casusluq və ərazinin topoqrafiq coğrafiyasını öyrənmək məqsədilə general Yermolovun başçılığı ilə 1816-ci ildə İrana böyük bir diplomatik missiya göndərmişdi.  Kəlbəli xan onun pişvazına çıxmış(12 may 1816-cı il), onu sarayına dəvət edərək qəbul düzəltmiş və konfidensial söhbətdə rusların bu əraziləri işğal etmək fikri olarsa, onların tərəfində olacağı haqqında vəd vermişdi **(F.Əliyev,M.Əliyev. Naxçıvan xanlığı. Bakı, 2007, səh.98-100).** Amma 1823-cü ildə öldüyündən, çirkin niyyətinin həyata keçdiyini görmək ona müyəssər olmadı. Əvəzində oğlu Ehsan xan onun bu satqınlığını gerçəkləşdirmək üçün ciddi fəaliyyətlər, “xidmətlər” göstərdi.

Gəncliyində Şah ordusunda xidmət edən Ehsan bəy 1821-1823-cü illər İran-Türkiyə müharibəsində fərqləndiyinə görə ona xan titulu verilmişdi.

1826-1828-ci illər ikinci Rusiya-İran müharibəsində rus komandanlığı ilə gizli əlaqəyə girərək onlara casusluq etmiş, möhkəm Abbasabad qalasını (fransız mühəndislərin layihəsi ilə tikilən və İran şahzadəsi, Rusiyaya qarşı vuruşan İran döyüşçülərinin komandanı Abbas Mirzənin şərə-

finə adlandırılan bu qala çox möhkəm idi) komandanı olduğu kəngərli batalyonu ilə qaladakı qarnizona qarşı çıxaraq ruslara döyüşsüz təslim etdi(yenə orada, səh.108).

Naxçıvan alındıqdan sonra ruslar ona polkovnik rütbəsi verdilər(daha doğrusu, İran ordusundakı rütbəsini saxladılar), xandan daha aşağı olan naib titulu ilə Naxçıvan əyalətinin idarəsini ona həvalə etdilər (məlum olduğu kimi, I Nikolayın fərmanı ilə Türkmənçay müqaviləsindən (10 fevral 1828-ci il) dərhal sonra Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək, həmin 2 xanlığın ərazisinində **"Erməni vilayəti"** yaradılmışdı).

Dərələyəz mahalının 1831-ci ildə tərtib edilən "Kameral siyahı"sına yazdığı izahat yazısında rus məmuru **V.Zolotnitski** Naxçıvan naibi Ehsan xanın ciddi saxtakarlıqlarından, başqalarının torpaqlarını qanunsuz ələ keçirməsindən, başqa sözlə, cinayətlərindən bəhs edirdi **(Dərələyəz mahalının kameral təsviri. Erm.Milli Arxivi, F.90, siy.1, sax.vah.102, səh.511).**

Dərələyəz mahalında vaxtilə boş olmuş və sonradan məskunlaşdırılmış kəndləri rus idarəçiləri xəzinəyə aid etmişlər, çünki bu torpaqları Qacar İran dövlətindən ilhaq etdiklərinə görə, mülkiyyət hüququnu da Rusiya xəzinəsinə aid edirdilər. Amma rus işğalından qabaq mülkədarlara məxsus olan torpaqlarda mülkiyyət hüququna əməl etməli olduqlarına görə, bu vəziyyətlə barışmır, demaqoqcasına iddia irəli sürürdülər ki, guya İran dövlətində mülkədar torpaqları olmayıb və haqqında söhbət gedən torpaq sahibləri buraları saxta sənədlərlə öz adlarına keçiriblər. Hətta iş o yerə gəlib çıxmışdı ki, Rusiya qarşısında əvəzsiz xidmətləri olan Ehsan xanı da günahlandırırdılar ki, o nəinki bu cür halların qarşısını almamış, özü də Naxçıvanın ən məhsuldar

və yaxşı torpaqlarını zəbt etdiyinə görə, başqa mülkədarlar səsini çıxartmasın deyə, onların qanunsuz əməllərinə göz yummuşdur.

Beləliklə, Qarabağ xanı Mehdiqulu xan kimi, Ehsan xanı da alçaldıb iddiasız hala gətirmiş olurdular. Buradan aydın olur ki, hansı satqınlığı edir-etsinlər, **ruslar yerli Azərbaycan feodallarına ikrah hissi bəsləmiş, onları xırda muzdla özlərinə nökərçilik etməyə vadar etmişlər.** Əgər etiraz etməyə cəsarət etsəydilər, tamam müflisləşdiriləcəkdilər.

Bu isə tarixdə yeni icad edilmiş bir şey deyildi. Satqınlara biçilən rol bundan artıq ola bilməzdi.

**1839-cu ildə Qafqazdakı rus qoşunlarının komandanı Y.Qolovinin təzyiqi ilə Ehsan xan Naxçıvanın Naibi vəzifəsindən imtina etməli olur, amma bu da onu gözləyən sonuncu zərbə deyildi, cəmi 1 il sonra, 1840-cı ildə ona təklif olunan müəyyən miqdarda pulun müqabilində özünün və gələcək varislərinin adından bütün mülklərindən, torpaqlarından imtina etməli olur** və 1846-cı ildə, başqa bir satqın xandan-Mehdiqulu xandan 1 il sonra ölür.

Dərələyəz mahalının 1842-ci ilə aid Kameral təsvirində maraqlı bir fakt var: **35 ailənin yaşadığı Ağkəndin idarəsinin 17 fevral 1845-ci ildən general-mayor Ehsan xana verildiyi yazılır.** Bir zamanlar Naxçıvan şəhərini və 5 mahalı əhatə edən Naxçıvan xanlığının idarəçisi və xanı olan bir şəxsə çar hökumətinin bu cür "lütfkarlığını" yəqin ki, tarixin istehzası adlandırmlıyıq...

Tarixin ona verdiyi ən böyük cəza isə hazırda onun soyunun 1957-ci ildə doğulmuş Corc və onun 1993-cü ildə doğulan oğlu Vladimir Pyerlə davam etməsidir. Corcun ata-

sı 1924-cü ildə doğulan və 1997-ci ildə ölən Nikita Georgiyeviç Ehsan xanın nəvəsi Hüseyn xanın oğludur.

Bir zamanlar kəngərlilərin xanına irsən verilən Naxçıvan diyarının onların satqınlığı nəticəsində rus işğalına məruz qalması, yəni onların ciddi-cəhdi nəticəsində özlərini öz mülklərindən necə məhrum etmələri, başqa sözlə, üstündə oturduqları budağı kəsmələri tarixin ən qəribə və ibrətamiz hadisələrindən sayılmalıdır...

I Nikolayın Erməni Vilayətinin yaradılması haqqındakı fərmanının mürəkkəbi qurumamış, yəni 1828-ci ilin mart ayında erməni zabiti Lazarevin rəhbərliyi ilə İranın Salmas, Xoy və Maku vilayətlərindən ermənilərin keçmiş Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə, o cümlədən Dərələyəz mahalına köçürülməsi başlayır.

Bu kataba daxıl edilən, hazırda **Ermənistan Milli Arxivində** saxlanan birinci sənəd **(F.90, siy.1, sax. vah. 102)** belə adlanır: **"Камеральное описание Даралагезского магала Нахичеванской провинции (часть VI) Армянской области 1831 г.» ("Erməni vilayətinin Naxçıvan əyalətinə daxil olan Dərələyəz mahalının kameral təsviri (VI hissə). 1831-ci il".)**

1833-cü ildə Sankt-Peterburqda nəşr olunan **«Статистические данные Нахичеванской провинции» ("Naxçıvan əyalətinin statistik təsviri. Sankt-Peterburq, 1833")** kitabından qaraçorluların Dərələyəzə köçməsinin tarixini öyrənə bilərik.

Məlum olur ki, qaraçorluları Dərələyəzə haqqında danışılan kitabın yazıldığı tarixdən təxminən 20 il qabaq **Nəbi bəy** adlı bir adam gətirib. Müəllif **(Vasili Qriqoryev)** qeyd edir ki, qaraçorlu icmasının başçısı Nəbi bəylə Qarabağ xanı Mehdiqulu xan arasında ədavət yarandığına

görə, İran şahzadəsi Abbas Mirzə Nəbi bəyin və Qaraçorluların uzun müddət boş olan Dərələyəzdə yerləşdirilməsini münasib görmüş, buradakı 6 kəndin-Keşişkənd, Ortakənd, Başkənd, Qurdqulaq, Qoytul və Hors kəndlərinin gəlirini icma başçısı Nəbi bəyə təxsis etmişdir (səh. 80).

Qeyd etmək lazımdır ki, Dərələyəzdə yerləşdirilən qaraçorlulara İran dövləti böyük güzəştlər vermiş, onları başpulu, evpulu, ev heyvanlarına görə alınan və digər vergilərdən azad etmişdi. Qaraçorluların yerləşdiyi Şərqi Dərələyəzin əhalisi hər il Dərələyəz xanına bəxşiş kimi müəyyən miqdar qoyun və yağ verirdi. Keçmiş Gürcüstan şahzadəsi Aleksandra 100 qoyun və 50 batman yağ, Kərim xana 300 qoyun və 100 batman yağ, Dərələyəzin iltizamçısı İrəvan Sərdarına 500 qoyun və 100 batman yağ ödəyirdilər.

Qərbi Dərələyəz əhalisi isə İran hakimiyyətinin vaxtında olduğu kimi ildə 2.000 tümən (8.000 rubl) pul və 42,5 Naxçıvan xalvarı taxıl ödəyirdilər. Məlumat üçün deyək ki, İrəvan xanlığında işlədilən xalvar 30 puda (1 pud 16.38 kq-a bərabərdir), Naxçıvan xanlığında isə 25 puda bərabər idi **(F.A.Brokhauzen və İ.A.Yefron. "Ensiklopedik Lüğət").**

Göründüyü kimi, Abbas Mirzənin Dərələyəzə köçən qaraçorlulara verdiyi imtiyazı Rusiya dövləti də saxlamışdı.

Dərələyəzlilərdən başqa, Erməni vilayətinin (keçmiş İrəvan və Naxçıvan xanlıqları) qalan əhalisi vergiləri belə ödəyirdi:

**Baş pulu.** 15 yaşına çatmış bütün kişi cinsindən olanlardan ildə 1 rubl 20 qəpik (gümüş pulla) "başpulu" deyilən vergi alınırdı. Qadınlardan və 15 yaşdan aşağı uşaqlara görə alınmırdı.

**Ev pulu.** Hər ailədən 2 rubl.

**Mal pulu:**
-camış 1 rubl
-madyan at 1 rubl
-ulaq -1 rubl 20 qəpik
-yük atı – 2 rubl. Minik atı vergidən azad idi.

**Qoyun pulu.**
-hər qoyundan və keçidən 20 qəpik və s.

**Taxıl vergisi.** Dövlət kəndliləri biçdikləri taxılın 35 faizini xəzinəyə ödəməli idi, 65 faizi özlərinə qalırdı. Mülkədar torpaqlarında da taxılın 65 faizi onu əkib-biçənə çatırdı, 15 faizi mülkədara, 20 faizi xəzinəyə ödənməli idi. Natural şəkildə ödənilən taxılın üçdə ikisi buğda, üçdə biri arpa ilə ödənməli idi. Pul şəklində alınan vergilər il ərzində 3 dəfəyə, taxıl isə biçindən sonra bütöv şəkildə ödənirdi. Vergi toplayanlar əldə edilən taxılı ölçməyincə, kəndlinin ondan istifadə etmək hüququ yox idi.

1 işlək dəyirmana görə 8 rubl vergi alınırdı**(Naxçıvan əyalətinin statistik təsviri.S.Pb, 1833, səh.109 ).**

O vaxt bir qoyunun 2-3 rubla satıldığını nəzərə alsaq, Şərqi Dərələyəz əhalisinin-qaraçorluların nə qədər imtiyaza sahib olduğunu təsəvvür etmək çətin deyil.

Əhalidən alınan vergilərin dəyəri haqqında oxucuda təsəvvür yaratmaq üçün həmin dövrdə mövcud olmuş qiymətlərin bəzilərini yazmaq maraqlı ola bilər:

Keyfiyyətindən asılı olaraq 1 xalvar (təxminən 0,5 ton) buğda 6-12 rubla, arpa 3,5-7 rubla, darı 3-6 rubla satılırdı.

Kəlin qiyməti 20-40 rubl, sağmal camışınkı 15-25 rubl, cins öküz 10-20 rubl, sağmal inək 6-12 rubl, at 15-40 rubl, ulaq 4-6 rubl idi.

Qoyunun qiyməti 2-3 rubl, keçininki onun yarısı qədər, quzunun qiyməti 75 qəpikdən 1 rubl 50 qəpiyə qədər idi.

1 batman yunun qiyməti 0,6-1,2 rubl, 1 batman pendirin qiyməti isə 30-40 qəpik idi.

Mənbənin 660 qaraçorlu ailəsinin başçısı olduğu bildirilən Nəbi bəy Fətəli xan oğlu 1831-ci ilin kameral siyahısında Dərələyəz mahalının Ərgəz kəndində syahıya alınıb:

**“№62.ƏRGƏZ KƏNDİ**

**Qaraçorluların təhməzli tayfası**

1.Nəbi bəy Fətəli xan oğlu 60 yaşında **(qaraçorlu tayfasının başçısı);** arvadı Nənəxanım 50 y; iki oğlu var: Həsənqulu 20 y; (onun arvadı Xırda 15 y); Heydərqulu 15 y **(Dərələyəzin Terp kəndinə köçüb);** (onun arvadı Gülnisə 15 y; oğlu Usub 1 y); iki qızı var: Ummunisə 10 y; Ayna 5 y;

**(Dərələyəzin Arınc kəndinə köçüblər).**

2. Abbasqulu bəy Nəbi bəy oğlu 25 y; arvadı Mələk 18 y; 2 oğlu var: Şirxan 3 y; Bəşir 1 y; 2 qızı var: Xeyrənisə 5 y; Tuti 2 y.

**(4 il əvvəl İrana qaşıblar).** ***Qeydin tarixi yoxdur*.**

Həmin vaxt Nəbi bəyin başqa bir oğlu Dərələyəzin Arınc kəndində yaşayırdı:

**“№66.ARINC KƏNDİ**

**Qaraçorluların təhməzli tayfası**

1.Nəcəfqulu Sultan Nəbi bəy oğlu **(poruçik, 3-cü dərəcəli Müqəddəs Anna ordeni kavaleri)** 30 y; arvadı Pərixanım 25 y; iki oğlu var: Fətəli 6 y; Qiyas 5 y; qızı Balaxanım 3 y; qardaşı Məmmədhənifə 17 y;

**(İrana qaçıblar)”. (Dərələyəz mahalının Kameral təsviri. 1831-ci il).**

İran şahzadəsi tərəfindən Dərələyəzə yerləşdirilən, 1826-1828-ci illər ikinci rus-İran müharibəsində çox güman ki, rusların tərəfində İrana qarşı vuruşaraq Müqəddəs

Anna ordeni kavaleri, poruçik hərbi rütbəsi alan Nəcəfqulu Sultan Nəbi bəy oğlu da, onun qardaşı Abbasqulu bəy də başları daşdan daşa dəyəndən sonra yenidən İrana pənah aparmalı olublar.

Nəbi bəyin mənsub olduğu **təhməzli** tayfası Dərələyəzdəki qaraçorluların ən böyük və çoxsaylı tayfası idi. Ərgəz, Aşağı Canı, Arınc, Martiros və Sallı kəndlərində 79 təhməzli ailəsi yaşayırdı**(yenə orada).**

**Kulakanlılar** (Qabaqlı, Haxılı, Cağatay, Tezxarab, Söylan, Terp, Gabud, Gomur və Cul kəndlərində) 70 ailə, **həsənanlılar** (Qozluca, Axta, Göyərçin, Mərədüz qışlağı, Herher, Köçbək və Çaykənd kəndlərində) 62 ailə**, əliyanlılar** (Ağkənd, Ağdərə, Şahgəldi Qışlağı, Qaravənk və Herher kəndlərində) 62 ailə, **bozlu tayfası** (Por, Terp, Qaralar, Gümüşxana və Tarp kəndlərində) 48 ailə, **hacısamlılar** (Obana, Xorvadıx, Ələyəz, Qovuşuq, Güneyvənk və Herher kəndlərində) 46 ailə idi(yenə orada).

Qaraçorluların Dərələyəzə köçməsinin səbəbkarı olduğuna görə, Mehdiqulu xan haqqında qısa da olsa məlumat vermək yerinə düşərdi.

1806-cı il iyunun 14-də rus mayoru Lisaneviç 300 nəfərlik əsgərlə İbrahimxəlil xanı ailəliklə, böyük oğlanları və nökər-naibi ilə güllələbaran etdikdən sonra onun oğlu Mehdiqulu xanı Qarabağın xanı etdilər. **"Qarabağnamə"** müəllifi Mirzə Adıgözəl bəyin yazdığına görə, Mehdiqulu xan atasının qatili Lisaneviçlə çiyin-çiyinə İrana qarşı döyüşürdü... Yazırlar ki, İbrahim xanın qisasının alınmamasından incik düşən adlı-sanlı Qarabağ bəyləri İrana getdilər. Cavanşir elinin Sarıcalı oymağının Behbudalılar tayfası iki tirəyə bölündü, bir tirə İrana mühacirət etdi.

Mehdiqulu xanın qardaşı oğlu Cəfərqulu ağa da hər

yerdə əmisinin şərəfsizliyini tənqid edirdi.

İran hökmdarı Fətəli şah da Qarabağın rusların əlinə keçməsi ilə barışmayıb oğlu Abbas Mirzənin başçılığı ilə hərbi əməliyyatları 1806-cı ildə yenidən bərpa etdi. Mehdiqulu xan rus generalı P.F.Nebolsinlə birlikdə iranlılara qarşı müharibəyə girdi. Və üzərindəki töhməti yumşaltmaq üçün generaldan xahiş etdi ki, atasının qatili Lisaneviçi Qarabağdan başqa yerə göndərsin, general onun xahişini yerinə yetirdi.

1811-ci ildə Abbas Mirzə yenidən hərbi əməliyyatları bərpa edib müəyyən uğurlar qazandı və fürsətdən istifadə edib Qarabağ ellərinin bir çoxunu İrana, Qaradağ vilayətinə köçürdü **(Ə.Çingizoğlu, F.Baxşəliyev. Qarabağın el və obaları. Bakı, "Şuşa", 2007, səh. 55).**

Hesab edə bilərik ki, Nəbi bəy Fətəli xan oğlu da qaraçorluları məhz bu tarixdə Abbas Mirzənin razılığı ilə Qarabağdan Dərələyəzə gətirmişdir.

Satqın Mehdiqulu xanın sonrakı aqibəti də ibrətamizdir.

"1813-cü ildə ruslarla iranlılar arasında barış imzalandı. Mehdiqulu xan asudə nəfəs alıb arxayınlıqla idarə işlərinə başlamaq istədikdə ruslar yenidən ona imkan vermədilər. Hər cür siyasətlə onun idarəsini məhdudlaşdırmağa çalışdılar. Mehdiqulu xan dözdü, dözdü, sonda bu işi qaçmaqla çözdü.

Mehdiqulu xan 1822-ci il noyabrın 21-də İrana qaçdı. Qarabağda xanlıq ləğv edildi. Yerinə rus hərbi-inzibati komendantlıq idarəsi yaradıldı" (yenə orada).

Mehdiqulu xan bu dəfə Abbas Mirzəni Qarabağı almağa təhrik edib 1826-cı ildə yenidən müharibəni başlatsa da, heç bir nəticə alınmadıqdan sonra növbəti dəfə mövqeyi-

ni dəyişib 1827-ci ildə yenidən Qarabağa qayıdır, bu dəfə miskin bir şəkildə ruslara yalvarıb, bir neçə il əlləşib-vuruşduqdan sonra bir para kəndlərini, obalarını, torpaqlarını geri qaytara bilir və ömrünü qalan hissəsini sakit yaşamaq istəyir.

Satqınlığına görə general-mayor rütbəsi ilə mükafatlandırılan Qarabağın sonuncu xanı Mehdiqulu xan Sarıcalı-Cavanşir 1845-ci ildə Ağcabədidə ov edərkən atdan yıxılıb öldü.

Məlumat üçün deyim ki, Xurşid banu Natəvan onun qızıdır...

Onu da qeyd etmək lazımdır ki, qaraçorluların 1811-ci ildə Dərələyəz mahalına gəlməsindən xeyli qabaq da burada türklər yaşayırdılar. Həmin əhali 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə təsvir edilmişdir.

Bu kitaba daxil edilən ikinci sənəd Azərbaycanın Mərkəzi Tarix Arxivində saxlanılır və 1842-ci ilə aiddir. O, **«Камеральное описание Даралагезского участка» - "Dərələyəz nahiyəsinin kameral təsviri" (F.25, siyahı 2, saxlama vahidi 6)** adlanır. Burada Dərələyəzin bütün kəndlərində yaşayan azərbaycanlılar da, ermənilər də adbaad göstərilmiş, kimin həmin kəndə neçə il qabaq və haradan gəldiyi də qeyd edilmişdir. Bu tip sənədlər rus məmurları tərəfindən vaxtaşırı olaraq tərtib olunur, dəqiqləşdirmələr aparılırdı. Məlumat üçün deyim ki, sonrakı kameral siyahılar 1852-ci, 1859-cu, 1873-cü və 1886-cı illərdə tərtib edilmişdir. Həmin tarixlərdə Dərələyəzə aid olan sənədlərin hamısı Ermənistsn Milli Arxivində saxlanılır.

**"Naxçıvan əyalətinin ststistik təsviri"(S.Pb.,1833)** kitabının müəllifi V.Qriqoryevə görə, Abbas Mirzə də hər 6 ildən bir **numeys** adlandırılan məmurunu göndərərək bu tip

sənədlər tərtib etdirir, onun əsasında vergi toplayıb mərkəzi hökumətə göndərmək üçün bir surətini də Naxçıvan xanına göndərirdi**(adı çəkilən əsəri, səh.61).**

İ.Şopen qeyd edir ki İran Türkmənçay müqaviləsi ilə Naxçıvan və İrəvan xanlıqlarını Rusiyaya güzəştə getməklə, təzminat olaraq 20 milyon gümüş rubl ödəməyi və həmin ərazilərə aid olan bütün vergi və maliyyə sənədlərini də 6 ay müddətində rus idarəçilərinə verməyi öhdəsinə götürdü.

**1842-ci ilə aid olan sənədi Dərələyəz 10-cu dərəcəli nahiyyə iclasçısı Zaporojski rusca tərtib etmişdir.**

1842-ci ildə keçmiş Dərələyəz mahalı Naxçıvan qəzasının tərkibində nahiyə idi. **Keşişkənd kəndi nahiyə mərkəzi idi,** keçmiş mahalların, 1842-ci ildəki nahiyələrin ali vəzifəli şəxsi **mirbölük idi**. Qəza mərkəzi isə xanlıq dövründə olduğu kimi Naxçıvan şəhəri idi. Maraqlıdır ki, bu kameral siyahıda bir çox məlumatlarla yanaşı, haqqında söhbət gedən yaşayış məntəqəsindən qəza mərkəzinə və nahiyə mərkəzinə qədər olan məsafə, yoların vəziyyəti, əhalinin məşğuluyyəti, əkin sahələrinin miqdarı, hansı bitkilərin əkildiyi, kənddə olan sənətkarlar, mal-qara və s. haqqında da lazımi məlumatlar vardır.

1849-cu ildə mərkəzi Şərurda yerləşən **Baş Noraşen** kəndi olmaqla **Şərur-Dərələyəz qəzası** yaradılmış və Dərələyəz nahiyəsi Naxçıvan qəzasından çıxarılmışdır. 1920-ci ildə emənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar nəticəsində qəzanın bir hissəsi Baş Noraşen də daxil olmaqla Naxçıvan MSSR-in tərkibində qalmış, qalan hissənin adı dəyişdirilərək **Dərələyəz nahiyəsi** edilmiş və Ermənistanın tərkibinə qatılmış, Keşişkənd kəndi qəzanın mərkəzi olmuşdur. 1930-cu ildə qəza ləğv edilmiş və onun ərazisi Keşişkənd rayonunun tərkibinə daxil edilmişdir.

**Sonda kitabda rast gəlinən bəzi terminlərin izahını verməyi zəruri sayırıq.**

**Xalvar**-həm çəki, həm də ərazi vahidi kimi işlədilirdi. İ.Şopenə görə, Naxçıvanda çəki vahidi kimi istifadə olunan xalvar 25 puda, Erməni vilayətinin başqa ərazilərində isə 30 puda bərabər idi (1 pud isə 16,38 kq-a bərabər idi).

"Naxçıvan əyalətinin statistik təsviri" kitabının müəllifi V.Qriqoryevə görə, Naxçıvan xalvarı 20 puda, İrəvanda işlədilər xalvar 30 puda bərabər idi.

Ərazi vahidi kimi işlədilən xalvar 1 xalvar toxumun səpildiyi ərazi nəzərdə tutulurdu və yayğın rəqəm idi.

**Ərazi vahidi kimi işlədilən xalvarın** miqdarı da İ.Şopenə görə 5 desyatin, V.Qriqoryevə görə 1,5 desyatindir.

1 desyatin ərazi 1,09 ha-ya bərabərdir.

**Verst-**1,0668 km-ə bərabərdir.

**Batman.** Naxçıvanda işlədilən batman da Erməni Vilayətinin başqa yerlərində işlədilən batmandan fərqli və daha ağır idi. Burada 1 batman 32 fut(1 fut 409,5 q-dır), yəni 13,1 kq, başqa yerlərdə isə müxtəlif idi, məsələn, 1 Təbriz batmanı 3 kq, Kazanda işlədilən batman 4,1 kq(10 funt), Rusiyanın bəzi yerlərində 0,5 pud, yəni 8 kq idi.

İrəvan xanlığında işlədilən 1 xalvar 100 batmana bərabər olduğunu, 1 xalvarın həm də 30 puda, 1 pudun isə 16,38 kq-a bərabər olduğunu nəzərə alsaq, 1 batman (30x16,38:100) 4,91 kq-a bərabər idi.

İrəvan mahalında **taçkir və ya səmər** deyilən çəki vahidindən də istifadə edilirdi. 1 xalvar 10 səmərə və ya 10 taçkirə, yəni 50 kq-a yaxın idi. "Səmər" sözünün tərcüməsinin "palan" olduğunu nəzərə alsaq, 1 səmər və ya taçkirin 1 ulaq yükü ağırlıq olduğunu qəbul etmək olar(bəzən bu sözü "somar" kimi də yazırlar).

**Tiyul** –türk və tatar dillərində **“bağışlanmış”** deməkdir.

İran hakimiyyətinin vaxtında kəndlilər məhsulun 1/5-ni, yəni 20 faizini xəzinəyə ödəyirdilər, bunun yarısı maaş kimi məmurlara verilirdi.

İrəvan və Naxçıvan xanlıqlarında məhsulun qalan 10 faizi bir çox hallarda mükafat kimi başqa şəxslərə verilirdi və bu da tiyul adlanırdı **(F.Brokhauz və İ.Yefronun Ensiklopedik lüğəti).**

“Tiyul” sözü ilk dəfə XV əsr yazılı mənbələrində rast gəlinir (Əbdər-Rəzzaq Səmərqəndi).

***Müəllif kitabın elmi redaktoruna, elmi məsləhtçilərinə, rəyçiyə və t.ü.e.d.T.Nəcəfliyə təşəkkürünü bildirir.***

# Naxçıvan əyaləti Dərələyəz mahalının Kameral təsviri. 1831-ci il

## DƏRƏLƏYƏZ MAHALI

### №1. AXURA KƏNDİ
### Tatarlar

1.Kəndxuda Məhərrəm Hüseyn oğlu 25 y; arvadı Fatmanisə 15 y; oğlu Əhmədxan 1 y; 5 qardaşı var: Allahverdi (kordur) 30 y; (onun arvadı Gülnisə 15 y); Korçi (qozbel) 27 y; (onun arvadı Mələk 16 y); Abdal 20 y; Məmmədtağı 2 y; Mirzəli 1 y; analığı Məhbub 30 y.

2.Allahverdi Dərgah oğlu 50 y; arvadı Xanımağa 35 y; 3 oğlu var: Xalıqverdi 15 y; Tahirverdi 7 y; Dərgah 4 y.

3. Piri Allahverdi oğlu 25 y; arvadı Nənəxanım 15 y.

4.Saleh Yəhya oğlu 50 y(ölüb); arvadı Zülfü 45; 2 oğlu var: İbrahim 25 y; (onun arvadı Hürünisə 17 y; qızı Şərəbanu 3 y); İsmayıl 4 y; qızı Qızxanım 16 y.

5.Məmmədrəhim Allahverdi oğlu 35 y; arvadı Səkinə 23 y; 2 oğlu var: Allahverdi 8 y; Əlverdi 1 y; qızı Yetər 3 y; əmisi oğlu Xudaverən Sübhanverdi oğlu 10 y.

6.Cəfər Molla Məsim oğlu 50 y; arvadı Zeynəb 20 y;

2 oğlu var: Məsim 20 y; onun arvadı Qızxanım 15 y); oğlu Xanməmməd 7 y; qızı Pəri 9 y.

7.Əhməd Babaxan oğlu 60 y (ölüb); arvadı Xeyrənisə 20 y; 5 oğlu var: Babaxan 20 y; (onun arvadı Fatma 15 y; oğlu Əli 1 y); Məhəmməd 15 y; Xudakərim 8 y; İsmayıl 5 y; Orucəli 4 y; qızı Şahnisə 3 y.

## №21.AĞXAÇ KƏNDİ
### Tatarlar

1.Kəndxuda Diləkhasil Məhəmməd oğlu 60 y; arvadı Sona 60 y; 2 oğlu var: Səfəralı 30 y(onun arvadı Fatma 15 y); İmamverdi 20 y(onun arvadı Səkinə 30 y; oğlu Məhəmməd 1 y).

2.Məmmədəli Kərbəlayi Maqsud oğlu 65 y; 4 oğlu var: Əli 30 y.(onun arvadı Pəri 25 y; oğlu Allahverən 4 y; qızı Gülpəri 3 y.) Hüseyn 15 y; Sadıq 13 y; Abuş 10 y.

3.Hüseyn Tarverdi oğlu 30 y; arvadı Qızyetər 25 y; 3 oğlu var: Novruzəli 8 y; Orucəli 4 y; Mirzəli 2 y; 2 qızı var: Şərəf 5 y; Əsmər 1 y;

**Bu ailə Dərələyəzin Qurdqulaq kəndinə köçüb.**

4. İsmayıl Əlihəsən oğlu 30 y; arvadı Mahpəri 25 y; 2 oğlu var: İbrahim 10 y; Həsən 5 y; qızı Fəxrinisə 3 y;

**Bu ailə Naxçıvan nahiyəsinin Sələsüz kəndinə köçüb.**

5. Allahverdi Allahverdi oğlu 35 y; arvadı Xədicə 20 y; oğlu Hüseynqulu 1 y.

6. Orucməmməd Kərbəlayi Kərim oğlu 30 y; arvadı Pəri 20 y; oğlu Kərim 3 y; qızı Qızyetər 1 y; 2 qardaşı var: Saleh 20 y; Novruz 15 y; bacısı İdirnisə 10 y.

Əhalisi tatar olan Ağxaç kəndində 6 ailə, 23 kişi, 14 qadın, cəmi 37 adam yaşayır.

Kənd Məvazixatun çayının sahilində yerləşir. Torpaqları 11 verstdir, onun yarısı əkinə yararlıdır, hamısı dəmyədir. Məvazixatun çayının suyu və 1 bulaqdan istifadə edirlər. Biçənəklər kifayət qədərdir, amma cəmi 500 bağ ot biçilir. Buğda, arpa və noxud əkirlər.

Kənddə 21 öküz, 15 inək, 12 buzov, 184 qoyun, 103 keçi, 6 at var.

Sakinlərin dediyinə görə, kənd Şeyxəli Sultana məxsusdur.

## №22. QABAQLI KƏNDİ
### Qaraçorluların kulakanlı tayfası

1.Kəndxuda Alı Hüseyn oğlu 50 y; arvadı Gözəl 40 y; oğlu Tahirverdi 12 y; qızı Gülü 10 y.

2.İmamqulu Həsən oğlu 15 y; qardaşı İsmayıl 7 y; 2 bacısı var: Mərcan 10 y; Mehriban 8 y.

3.Mirzalı Hüseyn oğlu 30 y; arvadı Səkinə 20 y; oğlu Bünyadəli 3 y; qızı Mələk 5 y.

4.Baba Bayraməli oğlu 30 y; arvadı Qızbəsti 20 y; 2 qızı var: Şərəbanu 7 y; Qızyetər 5 y.

5.Şahverdi Alı oğlu 25 y; arvadı Gülpəri 18 y; oğlu Allahverdi 2 y; qızı Gözəl 1 y.

6.Hüseyn Məhəmməd oğlu 25 y; arvadı Hürünisə 22 y; oğlu Hüseynalı 1 y.

7.Məmmədalı Hüseyn oğlu 40 y; arvadı Cahan 25 y; oğlu Hüseyn 10 y; 2 qızı var: Nənəxanım 6 y; Qızxanım 3 y.

8.Oruc Hüseyn oğlu 50 y; arvadı Qızxanım 40 y; 2 oğlu var: İbrahim 20 y(ölüb); Kərim 9 y; qızı Səlbi 6 y.

Əhalisi kulakanlı olan Qabaqlı kəndində 8 ailə, 16 kişi, 17 qadın, cəmi 33 adam yaşayır.

Kənd dağlıq yerdə yerləşir, ərazisi 14 verstdir. Yarısı əkinə yararlı olan ərazinin 4 xalvarı suvarılan, qalanı dəmyədir. Bulaq suyundan istifadə edirlər, dağlar sıx çəmənliklərlə örtülmüşdür. Buğda və arpa əkirlər.

Xəzinəyə məxsus olan kənddə 43 öküz, 66 inək, 33 buzov, 305 qoyun, 143 keçi, 16 at var.

## №23. ZEYTƏ KƏNDİ

### Qaraçorluların şadmanlı tayfası

1.Kəndxuda Səfər Əli oğlu 35 y; arvadı Pərinisə 25 y; 2 oğlu var: Gülmalı 10 y; Həsənalı 7 y; qızı Səkinə 6 y.

2.Əziz Köçəri oğlu 30 y; arvadı Bahar 20 y; oğlu Bəylər 5 y; anası Bahar 50 y.

3. İbrahim Qəhrəman oğlu 60 y; arvadı Zeynəb 60 y; oğlu Hüseyn 2 y;

4.Cəfər Alı oğlu 20 y; arvadı Gülənbər 15 y;

**Ailə Qurdqulaq kəndinə köçüb.**

5. İman Əziz oğlu 45 y; arvadı Şərəbanu 40 y; 2 oğlu var: Şahgəldi 10 y; Məmməd 6 y; qızı Pəri 5 y.

**Bu ailə Qarabağın Tağlı kəndinə köçüb.**

6. Səfəralı Molla Məmmədyar oğlu 40 y; arvadı Pərizad 15 y.

7. Məmməd Allahverdi oğlu 50 y; arvadı Xumar 40 y; 3 oğlu var: Ağayar 20 y; Allahverdi 10 y; Ağakişi 8 y.

**Bu ailə Dərələyəzin Qurdqulaq kəndinə köçüb.**

8. Xudaqulu Kazım oğlu 30 y; arvadı Xanı 30 y; 2 oğlu var: Məmmədalı 13 y; Xanməmməd 7 y.

**Bu ailə Dərələyəzin Qurdqulaq kəndinə köçüb.**

9. Xıdır Molla Məmmədyar oğlu 20 y; arvadı Xəzəl 15 y; oğlu Məhərrəm 2 y; anası Salvar(Səlvər?) 60 y.

10. Novruz İmamverdi oğlu 40 y; arvadı Fatmanisə 30 y; 2 oğlu var: Bayram 10 y; Cəfərqulu 8 y.

11. Molla Mirzə Kəlbəli oğlu 50 y; arvadı Ummu 25 y; 2 oğlu var: Kəlbəli 12; Şıxəli 3 y.

**Ailə Naxçıvan qəzasının Cəhri kəndinə köçüb.**

12. Məşədi Əliqulu İmamverdi oğlu 50 y; arvadı Nazlıxan 50 y; 2 oğlu var: Allahverdi 10 y; Həzrətqulu 8 y; qızı Zöhrə 9 y.

13. Usub Mirzalı oğlu 60 y; arvadı Gülüstan 40 y; oğlu Mirzalı 7 y.

**Ailə Dərələyəzin Qurbankəsən kəndinə köçüb.**

14.Ocaqqulu İmamverdi oğlu 30 y; arvadı Şahxanım 30 y; qızı Səkinə 5 y.

15. Nəcəfalı Allahverdi oğlu 30 y; arvadı Cahanbanu 30 y; qızı Xeyrənisə 1 y.

16.Məmməd Şahhüseyn oğlu 25 y; arvadı Zeynəb 15 y.

**Ailə Dərələyəzin Qurdqulaq kəndinə köçüb.**

17. Fətəli Bayram oğlu 50 y(kor;ölüb); arvadı Fəxricahan 40 y; oğlu Cəfər 20 y; qızı Zeynəb 15 y.

**Ailə Dərələyəzin Herher kəndinə köçüb.**

18. Əmirxan Səfi oğlu 20 y; arvadı Nisə 15 y; qardaşı İmamqulu 7 y; bacısı Zeynəb 5 y; anası Fatma 50 y.

**Ailə Dərələyəzin Cağatay kəndinə köçüb.**

Əhalisi qaraçorluların şadmanlı tayfasına mənsub olan Zeytə kəndində 18 ailə, 40 kişi, 27 qadın, cəmi 67 adam yaşayır.

Bu kənd Qabaqlı kəndindən 6 verst şimalda yerləşir. 21 verst torpağı var, hamısı yararlı dəmyə torpaqdır, cəmi

0,5 xalvarı suvarılandır. 4 bulağın suyundan istifadə edirlər: İsti bulaq, Kor bulaq, Dalay bulaq və Kəhriz bulağı.

Örüş və biçənəkləri kifayət qədərdir.

Xəzinəyə məxsus olan bu kənddə 72 öküz, 77 inək, 35 buzov, 330 qoyun, 190 keçi, 14 at var.

Kənddə bir baxımsız xristian kilsəsi var.

## №24. ZİQRİK KƏNDİ(BAŞQA ADI QURDQULAQDIR)

### Qaraçorluların şadmanlı tayfası

1.Kəndxuda Pənahəli Hümbətalı oğlu 30 y; arvadı Zeynəb 25 y; 2 oğlu var: Həzrətqulu 6 y; Məmmədqulu 3 y; qardaşı Mehdiqulu 25 y.( onun arvadı Mələk 20 y); anası Pəri 60 y; atası Hümbətalı Əlihümbət oğlu 70 y.

**Bu ailə Qarabağa köçüb.**

2.Alməmməd Gülməmməd oğlu 20 y; arvadı Zeynəb 20 y; oğlu Gülməmməd 6 y; qızı Gülsənəm 3 y.

3.Allahverdi Haxverdi oğlu 25 y; arvadı Fatma 20 y; oğlu Baxşəli 3 y; qardaşı İbrahim 16 y; anası Sənəm 50 y.

4. Bünyadəli Əlihümbət oğlu 40 y (ölüb); arvadı Nənəxanım 30 y; 3 oğlu var: Rəcəb 15 y; Əşrəf 10 y; Məmmədşəfi 6 y; qızı Mina 5 y.

5.Məhərrəm bəy Məmməd oğlu 15 y(ölüb); qardaşı Mehralı 13 y; anası Tükəzban 40 y.

6.Alı Məmmədalı oğlu 25 y; arvadı Səkinə 20 y; 2 qardaşı v r: Ələsgər 18 y; Hüseynalı 8 y; anası Pəricahan 40 y.

7. Məmmədrza İsmayıl oğlu 30 y; arvadı Şahpəri 20 y; oğlu Adıgözəl 3 y;

**Ailə Qarabağa köçüb.**

8.Məmmədyar Kazım oğlu 30 y; arvadı Xanım 25 y; 2 oğlu var: Hümbətalı 9 y; İsmayıl 7 y.

9. Hüseynqulu Hümbətalı oğlu 25 y; arvadı Amanyetər 20 y; oğlu Mikayıl 1 y.(Sallı kəndinə köçüblər).

10. Hüseyn Qasım oğlu 9 y; anası Nazpəri 30 y.

Şadmanlı tayfasının yaşadığı Qurdqulaq kəndində 10 ailə, 27 kişi, 16 qadın, cəmi 43 adam yaşayır.

Kənd Qurdqulaq çayının sahilində, 5 bulağa yaxın, əvvəlki kənddən 4 verst qərbdə yerləşir. 20 verst torpaqları var, 3 xalvarı suvarılan, qalanı dəmyədir. Otlu biçənəkləri və örüşləri var. Buğda və arpa əkilir.

Kənddə 51 öküz, 66 inək, 30 buzov, 350 qoyun, 90 keçi, 13 at və 2 ulaq, 2 baxımsız qalmış dəyirman, 1 baxımsız qalmış bəzirxana var, daşları salamatdır.

Kənd xəzinəyə məxsusdur.

## №25. QİNİŞİK KƏNDİ.

### Zilan kürdlərinin cəlali tayfası

1.Maqsud Abdo oğlu 40 y; arvadı Fatma 40 y; qızı Xədicə 15 y.

**İrəvan qəzasının Şərur nahiyəsinə köçüblər.**

6 yerli erməni ailəsinin siyahısı.

## №26. YENGİCƏ KƏNDİ.

İrandan köçürülmüş 6 erməni ailəsinin siyahısı.

## №27. ƏYƏR KƏNDİ

### Qaraçorluların şadmanlı tayfası

1.Kəndxuda Mirzə Kazım oğlu 40 y; arvadı Xeyranisə 35 y; 3 oğlu var: Məmmədxan 18 y4 Məmmədrza 9 y; Kazım 5 y; qızı mehri 3 y;

**Ailə Qurdqulaq kəndinə köçüb.**

2.Əlimədət Hüseyn oğlu 30 y; arvadı Gülnisə 25 y;oğlu Atakişi 8 y; qızı Bənövşə 1 y; anası Xanxanım 60 y.

**Ailə Qarabağa köçüb.**

3.Ələsgər Hüseyn oğlu 40 y; arvadı Mahpəri 30 y; 3 oğlu var: Əliməmməd 10 y; Ələsgər 8 y; İsmayıl 1 y; qızı Xeyranisə 4 y;

**Qarabağa köçüblər.**

4.İmamverdi Kazım oğlu 20 y; arvadı Səkinə 15 y.

**Qurdqulaq kəndinə köçüblər.**

5.Həsən Tahirverdi oğlu 40 y; arvadı Zeynəb 30 y; 2 oğlu var: Tahirverdi 9 y; Həsənalı 2 y.

**Naxçıvan nahiyəsinin Tirkeş kəndinə köçüblər.**

6.Həsən Raşo oğlu 40 y; arvadı Şərəbanu 30 y; 3 oğlu var: Kərim 7 y; Mustafa 3 y; Məhəmməd 1 y; 2 qızı var: Fatma 12 y; Həcər 4 y;

**Ailə Naxçıvan nahiyəsinə köçüb.**

İrandan köşürülən 36 erməni ailəsinin siyahısı.

Kənd Qozlu Dərəçayın Arpaçaya töküldüyü yerdə yerləşir.Ərazisi 30 verstdir, 8 versti əkinə yararlıdır. Onun 20 xalvarı suvarılan, qalanı dəmyədir. Arpa çayın və Qozlu Dərəçayın suyundan istifadə edirlər. 4 xalvar biçənəyi var, ildə 3 min bağ ot biçilir. Geniş otlaqları var.

Buğda, arpa, kətan, paxla, noxud, mərcimək, darı, soğan, kələm, çətənə, gənəgərçək və tərəvəz bitkiləri əkilir.

Müsəlmanların 16 öküzü, 20 inəyi, 15 buzovu, 200 qoyunu, 37 keçisi, 7 atı var.

7 dəyirmandan 2-si işləyir, gündə hərəsi 1 xalvar taxıl üyüdür.

Kənd xəzinəyə məxsusdur.

## №28. MƏLİKŞAH KƏNDİ

### Qaraçorluların Şeylanlı tayfası

1.Allahverdi Novruz oğlu 60 y;arvadı Pərizad 60 y;

iki oğlu var: Novruz 30 y(onun arvadı Nənəxanım 20 y; Novruzun iki qızı: Qızyetər 5 y; Şahsənəm 1 y); Süleyman 20 y; qızı Pəri -10 y.

**Ailə Dərələyəzin Mozq kəndinə köçüb.**

2.Şahhüseyn Novruz oğlu 30 y; arvadı Xanpəri 25 y; oğlu Oruc 12 y. üç qızı var: Xanım 13 y; Ağapəri 11 y; Qızbəsti 3 y.

**Dərələyəzin Mozq kəndinə köçüblər.**

3. İmamverdi Novruz oğlu 35 y; Arvadı Səlbi 30 y; Oğlu Hüseynəli 15 y; onun arvadı Xanpəri 15 y.

**Dərələyəzin Bülbülölən kəndinə köçüblər.**

Kənddə cəmi 3 müsəlman ailəsi, 7 kişi, 11 qadın olmaqla 18 nəfər yaşayır.

İrandan köçürülən 42 erməni ailəsinin siyahısı.

50 xalvar suvarılan, 2 xalvar dəmyə yer var. 3 min bağ ot biçilir. Buğda, arpa, kətan, çətənə, mərci, bostan bitkiləri, soğan və kələm əkilir.

## №29. KEŞİŞKƏND
## (Dərələyəz nahiyəsinin mərkəzi).

İrandan köçürülən 56, Türkiyədən köçürülən 1 erməni ailəsi yaşayır.

## №30. ORTA KƏND

İrandan köçürülən 25 erməni ailəsi yaşayır.

## №31.BAŞ KƏND

İrandan köçürülən 16 erməni ailəsi.

## №32. HORS KƏNDİ

**Qaraçorlular (hansı tayfaya mənsub olduqları göstərilməyib. –N.Ə.)**

1.Həsən Allahverdi oğlu 25 y; arvadı Şahpəri 20 y; 2 oğlu var: Xudamədət 8 y; Hüseynalı 7 y; 4 qızı var: Şərəfnisə 13 y; Mazı 9 y; Yetər 6 y; Çiçək 3 y.

**İndiki sakinlərin dediyinə görə, 1, 2 və 3 nömrəli ailələrin haraya köçdükləri məlum deyil.**

2.Hümbət Zeynal oğlu 30 y; arvadı Fatma 20 y; 2 oğlu var: Kərim 9 y; Qəhrəman 5 y; 2 qızı var: Zeynəb 7 y; Nazlı 3 y.

3.Hüseyn Məmmədalı oğlu 50 y; arvadı Bayramxatun 45 y; 5 oğlu var: İsmayıl 21 y; Seyfəli 18 y; Şeyxəli 15 y; Allahverdi 12 y; Xudaverdi 9 y; 3 qızı var: Reyhan 7 y; Səlbinaz 1 y; Gülü 1 y (əkizlər); bacısı oğlu İmamqulu Ağamirzə oğlu 7 y; anası Yetər 80 y.

**İrandan köçürülən 31 erməni ailəsinin siyahısı.**

Hors kəndi əvvəlki kənddən şimalda, Səlim bulağının Qoytul çayına töküldüyü yerdə yerləşir. Ərazisi 28 verstdir, yarısı əkinə yararlıdır. 30 xalvarı suvarılandır. Kəndi əhatə edən dağlar sıx meşə ilə örtülüb. Onun çoxu inşaat üçün yararlı olan düz oduncaqlı ağaclardır. Biçənək və örüşləri bol otludur.

Buğda, arpa, darı, kətan, çətənə, paxla, mərcimək, tütün və tərəvəz əkilir.

Müsəlmanların 9 öküzü, 5 inəyi, 3 buzovu, 40 qoyunu, 21 keçisi, 1 atı var.

Hərəsi 20 batman taxıl üyüdən 4 işlək, 1 yararsız dəyirman, 1 yararsız bəzirxana var.

## №33. TƏRƏTÜN KƏNDİ

İrandan köçürülmüş 10 erməni ailəsi yaşayır.

## №34.KƏLƏKÜLÜ (KƏLƏKLİ?) KƏNDİ

İrandan köçürülmüş 21 erməni ailəsi yaşayır.

## № 35. AĞKƏND KƏNDİ

### Qaraçorluların əliyanlı tayfası

1.Hüseyxan Əli Yüzbaşı oğlu 35 y; arvadı Bəyim 25 y; 3 oğlu var: Alı 7 y; Abbasqulu 4 y; Təhmasqulu 2 y; qardaşı Novruz 15 y.

**(Bu ailə İrəvan qəzasının Şahablı kəndinə köçüb).**

2. Abdulla Həsən oğlu 80 y(ölüb); arvadı Gözəl 55 y; 2 oğlu var: Kəndxuda İbrahim 40 y(ölüb; onun arvadı Şahsənəm 30 y; 3 oğlu var: İsmayıl 10 y; Məhəmməd 8 y(ölüb); Əhməd 4 y; 2 qızı var: Gülsənəm 3 y; Mələk 1y); Məmmədalı 20 y; (onun arvadı Nənəxanım 20 y; 2 oğlu var: Əli 3 y; Alı 1 y).

3.Kəndxuda Məmmədalı Mirzə oğlu 50 y(ölüb); arvadı Əslixan 30 y; 2 oğlu var: Abbasəli 8 y; Hüseynalı 2 y(ölüb); 2 qızı var: Səlbixan 10 y; Şərəbanu 4 y.

4. Allahaman Sadıq oğlu 20 y; arvadı Gülbahar 18 y; qızı Gülsənəm 3 y; 3 qardaşı var: Məşədi 15 y; Hüseynalı 8 y; Həsən 3 y; bacısı Səlbixan 4 y; anası Əskixan 60 y.

**Bu ailə İrəvan qəzasının Şahablı kəndinə köçüb.**

5. Fətəli Haxverdi oğlu 100 y(ölüb); arvadı Pəri 40 y; 2 oğlu var: Məmmədbağır 25 y; (onun arvadı Şərəbanu 20 y; qızı Səlbixan 3 y); Ələkbər 10 y.

6. Hüseynalı Pənah oğlu 30 y(keçəçi); arvadı Çeşmixan 20 y; oğlu Ələsgər 5 y; 2 qızı var: Şərəbanu 7 y; Hürü 4 y.

**Bu ailə İrəvan qəzasının Şahablı kəndinə köçüb.**

7.Novruz Süleyman oğlu 100 y(ölüb); arvadı Şahsənəm 30 y; 4 oğlu var: Adıgözəl 30 y(ölüb); (onun arvadı Qızyetər 20 y; oğlu Baba 2 y(ölüb); qızı Qızxanım 1 y); Məmməd 25 y(ölüb); (onun arvadı Telli 14 y); Cahangül 15 y**(hara qaçdığı məlum deyil);** Qaragöz Teymuraz 10 y(ölüb).

8. Qələndər Həsən oğlu 60 y(ölüb); arvadı Müşkünaz 45 y; 4 oğlu var: Əsədulla 30 y; (onun arvadı Xanım 15 y); Məmmədhəsən 29 y; Cəfər 20 y; Eylas 18 y; (arvadı Yetər 20 y; oğlu Abbasəli 1 y);

9. Ədna Hacı oğlu 60 y; arvadı Fatma 30 y; 4 oğlu var: Qasım 15 y; Hüseyn 12 y; İbrahim 6 y; Hüseynalı 4 y(ölüb); 2 qızı var: Zeynəb 5 y; Şərəbanu 3 y; anası Məryəm 80 y.

10.Məmmədalı Hətəm oğlu 30 y(ölüb); arvadı Şərəbanu 20 y; qızı Fatmanisə 3 ; qardaşı Məmmədhüseyn 15 y(ölüb); anası Fatma 50 y.

11. Hüseyn Həsən oğlu 50 y; arvadı Şahxanım 40 y; 5 oğlu var: Abbasəli 20 y; Həsənalı 7 y; Hüseynalı 3 y; Zeynalabdin 2 y; Kazım 1 y; qızı Fatma 4 y.

**Bu ailə İrəvan qəzasının Şahablı kəndinə köçüb.**

12. Baba Hüseyn oğlu 60 y; arvadı Xanım 30 y; 3 oğlu var: Hüseyn 7 y; Eylas 4 y; Sadıq 2 y; qızı Şərəbanu 3 y; 2 qardaşı var: Rəhim 25 y; Cəfər 10 y; anası Yetər 75 y.

**Bu ailə İrəvan qəzasının Şahablı kəndinə köçüb.**

13. Hüseyn Veyis oğlu 30 y(ölüb); arvadı Səidnisə 20 y; oğlu İsmayıl 4 y(ölüb).

14. Xəlil Abdulla oğlu 25 y; arvadı Gülü 25 y; 2 oğlu var: Hüseyn 7 y; Həsən 3 y; qızı Gülüstan 2 y.

15. Təhmuraz Həsən oğlu 35 y; arvadı Zeynəb 35 y; 2 oğlu var: Alı 20 y(onun arvadı Hürü 15 y); Hüseyn 10 y.

16. İman Veyis oğlu 50 y; 2 oğlu var: Həsən 25 y; (onun

arvadı Fatma 18 y; qızı Sadat 3 y); Ələsgər 5 y(ölüb); 2 qızı var: Nazlı 7 y; Zeynəb 3 y.

17. Abul İsmayıl oğlu 50 y(ölüb); arvadı Sənəm 40 y; qızı Qızbəsti 8 y.

18. Ağa Abdulla oğlu 30 y; arvadı Səlbixan 22 y; oğlu Xudayar 7 y; 2 qızı var: Nazlı 8 y; Nanı 6 y.

19. Qasım İsmayıl oğlu 20 y; arvadı Nənə 20 y; oğlu Nəbi 5 y.

**Haraya köçdükləri məlum deyil.**

20. Əli Hacı oğlu 25 y(ölüb); arvadı Nisə 18 y; qızı Xeyrənisə 2 y.

21. Yaqub Ədna oğlu 20 y; arvadı Şərəbanu 15 y; oğlu Ədna 1 y(ölüb); 2 qardaşı var: Vəli 15 (ölüb); Bayram 10 y; anası Sona 40 y.

**Haraya köçdükləri məlum deyil.**

22. Novruz İsmayıl oğlu 18 y; 2 qardaşı var: Eyvaz 7 y (ölüb); Nəbi 3 y; 2 bacısı var; Zeynəb 2 y; Pəri 1 y; anası Xanpəri 35 .

23. Rüstəm Mustafa oğlu 20 y; qardaşı Həsənalı 5 y; anası Xatun 50 y.

24. Məmmədalı Məmmədxan oğlu 20 y; bacısı Pərizad 15 y; anası Şahxanım 30 y(?).

**İrəvan qəzasının Şahablı kəndinə köçüblər.**

25. Salman Hacı oğlu 40 y; arvadı Zeynəb 20 y; 2 oğlu var: Məmməd 6 y; Süleyman 4 y(ölüb); qızı Səkinə 5 y.

26. Abaz Canbaz oğlu 50 y; arvadı Səkinə 30 y; 3 oğlu var: Alı 16 y; Almurad 15 y; Nəbi 7 y(ölüb); qızı Zeynəb 8 y.

27. Şahgəldi Yolçu oğlu 40 y(ölüb); arvadı Gülpəri 30 y; 3 qızı var: Səlbi 15 y; Pəri 10 y; Hürü 8 y.

28. Allahverdi Fətəli oğlu 30 y; arvadı Mələk 30 y; 2 oğlu var: Məmməd 9 y; Mahmud 7 y; qızı Səkinə 6 y.

29. Şahhüseyn Xudaverdi oğlu 50 y(ölüb); arvadı Səlbi 40 y; 2 oğlu var: Allahyar 12 y; Abdulla 5 y; 2 qızı var: Sadat 8 y; Şərəbanu 4 y.

30. Allahverdi Pirverdi oğlu 50 y(ölüb); oğlu Həsən 15 y; qızı Nurcahan 14 y;

**Haraya getdikləri məlum deyil.**

31. Əlmərdan Otarif (?) oğlu 60 y(ölüb); arvadı Pəri 40 y; 3 oğlu var: Məmməd 20 y; (onun arvadı Sona 18 y; oğlu Allahverdi 3 y(ölüb); qızı Balqız 1 y); Qəmbəralı 15 y; Abbasəli 8 y.

**Haraya köçdükləri məlum deyil.**

32.İsmayıl Alı oğlu 30 y(ölüb); arvadı Səkinə 30 y; 2 qızı var: Xeyrənisə 3 y; Fatma 1 y.

33.Həsən Məmməd oğlu 30 y; arvadı Mələk 20 y; oğlu Hüseynalı 3 y; 2 qızı var: Qızyetər 5 y; Hürü 2 y.

**Haraya köçdükləri məlum deyil.**

34.Məmmədxan Məmməd oğlu 70 y(ölüb); arvadı Xəzəl 30 y; oğlu Məmməd 5 y; 3 qızı var: Gülü 9; Telli 7 y; Qızbəsti 2 y; qardaşı Usub 30 y.

35.Abaz Hüseeyn oğlu 15 y; 2 qardaşı var: Eylas 9 y; Bayraməli 5 y; anası Hürüxan 30 y.

**Qarabağa köçüblər.**

36.Əli İsmayıl oğlu 15 y; qardaşı Davud 10 y(ölüb); bacısı Gülüstan 7 y; anası Pəri 35 y.

**Haraya köçdükləri məlum deyil.**

37. Şahbudaq Hətəm oğlu 30 y(ölüb); arvadı Xəyal 30 y; oğlu Hüseyn 3 y(ölüb); 2 qızı var: Xanım 4 y; Sona 2 y.

38. Seyid Kamal Seyid Hacı oğlu 60 y(ölüb); arvadı Fatma 40 y; 3 oğlu var: Seyid İsmayıl 15 y; Seyid Əli 5 y(ölüb); Seyid Məmməd 4 y.

**(Haraya köçdükləri məlum deyil).**

39. Molla Kəlbihüseyn İmamverdi oğlu 60 y; arvadı Yetər 60 y; 2 oğlu var: Baba 10 y; Haxqulu 8 y.

Əhalisi əliyanlı tayfasına mənsub olan Ağkənddə 39 ailə, 124 kişi, 98 qadın, cəmi 222 adam yaşayır.

Səlim çayın yaxınlığında yerləşən bu kəndin ərazisi 11 verstdir. 30 xalvar suvarılan, 5 xalvar dəmyə əkinəyararlı torpağı var. Arxlarla Səlim çayının suyundan istifadə edirlər. İldə 12 min bağ ot biçilir, örüş yerləri də var.

Buğda və az miqdarda darı əkilir.

Kənddə 137 öküz, 134 inək, 61 buzov, 490 qoyun, 276 keçi, 28 at var.

Bu kəndin torpaqları İran dövlətinin vaxtında dövlətə məxsus olub. İndi isə aydın deyil ki, hansı səbəbə görə Hüseyn Sultan bu mülkə yiyələnib.

Kənddə 1 keçəçi, 2 yararsız dəyirman, 1 yararsız bəzirxana var.

## №36. AĞDƏRƏ KƏNDİ
### Qaraçorluların əliyanlı tayfası

1.Kəndxuda Talıb Alı oğlu 30 y; arvadı Şahzeynəb 25 y; 4 oğlu var: Alı 8 y; Məhərrəm 4 y; Şıxəli 3 y; Əliqulu 1 y; 2 qızı var: Şahpəri 7 y; Ağasultan 6 y.

2. İbrahim Bayram oğlu 20 y; arvadı Xatun 15 y; oğlu Abbasəli 1 y; 3 qardaşı oğlu var: Bayram Zülfüqar oğlu 7 y; Zeynalabdin 5 y; Nəbi 4 y; qardaşı qızı Mələk 3.

**36 №-li Ağdərə kəndinin əhalisi 5 il bundan əvvəl müxtəlif yerlərə dağılışıblar.**

3. İsmayıl Bayram oğlu 25 y; arvadı Şahpəri 18 y; oğlu Abdulla 3 y; bacısı Pəri (kor) 20 y; anası Ləbixan 50 y.

4. Həsən Yolçu oğlu 50 y; arvadı Yetər 40 y; 3 oğlu var:

Eylas 15 y; Yarməmməd 10 y; Hüseyn 4 y; 2 qızı var: Xanı 8 y; Gövhər 5 y.

5. Eylas Qələndər oğlu 90 y; arvadı Gülü 30 y. Oğlu Murad 20 y(onun arvadı Şərəbanu 15 y; qızı Nərgiz 1 y);

6. Hüseyn Məhəmməd oğlu 35 y; arvadı Gözəl 20 y; oğlu Təhmuraz 3 y.

7. Allahverdi Məhəmməd oğlu 40 y; arvadı Xanpəri 40 y; 3 oğlu var: Əliverdi 7 y; Sübhanverdi 5 y; İmamverdi 3 y; 2 qızı var: Şahpəri 4 y; Xeyrənisə 1 y.

8.Salman Məhəmməd oğlu 40 y; arvadı Əslixan 30 y; 3 oğlu var: Məmmədvəli 10 y; Mehdi 8 y; Həsənalı 5 y; 3 qızı var: Yetər 7 y; Səlbixan 6 y; Qızxanın 4 y.

9. Məhərrəm Babaxan oğlu 30 y; arvadı Zeynəb 20 y; 2 oğlu var: Səfər 7 y; Həsənalı 4 y.

10. Babaxan Həsən oğlu 80 y; arvadı Banu 30 y; 2 oğlu var: Sadıq 5 y; Məmmədqasım 3 y.

11. Məhəmməd Babaxan oğlu 32 y; arvadı Pəri 20 y; qızı Şahpəri 3 y.

12. Seyid Həsən Seyid Xudaverdi oğlu 40 y; arvadı Mahpəri 30 y; 3 oğlu var: Seyid Abbas 18 y. (onun arvadı Səkinə 15 y; oğlu İbrahimxəlil 1 y); Seyid Nəcəfalı 12 y; Seyid Xudaverdi 7 y; qızı Xanpəri 5 y.

13. Seyid Hətəm Seyid Şah nəzər oğlu 30 y; arvadı Hürü 20 y; 2 oğlu var: Seyid Zaman 6 y; Seyid Şahnəzər 3 y; 2 qızı var: Mələk 7 y; Xeyrənisə 2 y; 2 qardaşı var: Seyid Məmməd (kordur) 15 y; Seyid Həşim 14 y; anası Xanım 50 y.

Qaraçorluların əliyanlı tayfasının yaşadığı Ağdərə kəndində 13 ailə, 45 kişi, 33 qadın, cəmi 78 adam var.

Sallı çayının yaxınlığında yerləşən bu kəndin 4 verstə yaxın ərazisi var. Onun 8 xalvarı əkinə yararlı suvarılan torpaqdır. Çay və bulaq suyundan istifadə edirlər.

Sakinlər 4 min bağ ot biçir, buğda əkirlər.

Kənddə 1 kəl, 24 öküz, 14 inək, 12 buzov, 121 qoyun, 99 keçi, 9 at var.

Torpaqların mənsubiyyəti Ağkənddə olduğu kimidir. (İran dövlətinin vaxtında xəzinəyə məxsus olub, indisə nə üçünsə Hüseyn Sultanın mülkiyyətinə keçib).

## № 37. RƏSUL QIŞLAĞI KƏNDİ
### Kəngərlilərin əliyanlı tayfası

1.Zeynalabdin Sultan Həsən oğlu 40 y(ölüb); Praporşik, 3-cü dərəcəli Müqəddəs Anna ordeni kavaleri; arvadı Yasəmən 28 y; qızı Nabat 14 y; qardaşı oğlu Mustafa ağa Qocabəy oğlu 25 y; **(ailəsi ilə birlikdə İrana qaçıb);** Nökəri Oruc Rəhim oğlu 80 y;(onun arvadı Tomağa 60 y; 2 oğlu var: Əli 25 y; Əsgər 17 y; qardaşı oğlu Ələkbər Hüseyn oğlu 12 y; nəvəsi Məmi Rüstəm oğlu 12 y); xidmətçi Asiya 12 y.

2. Məmmədtağı Murad oğlu 60 y; oğlu Məmmədalı 25 y (onun arvadı Səkinə 15 y).

**Ailə Qarabağa köçüb, hansı kəndə getdikləri bilinmir.**

3. Kərim Rəhim oğlu 30 y; arvadı Qızxanım 26 y; qızı Səkinə 12 y.

**Gürcüstan-İmeretiya quberniyasının Yelizavetpol qəzasına köçüblər.**

4.Həsən Kamil oğlu 40 y; arvadı Şahpəri 30 y; 2 oğlu var: Həzrətqulu 10 y; Məmmədqulu 7 y.

**İrəvan qəzasına köçüblər, hansı kəndə getdikləri məlum deyil.**

5. Bayram Davud oğlunun dul qalmış arvadı Sevgili 25 y; qızı Sənəm 7 y.

Kəngərlilərin əliyanlı tayfasının yaşadığı Rəsul qışlağı kəndində 5 ailə, 13 kişi, 10 qadın, cəmi 23 adam var.

Bu kənd Ağdərə kəndinin yaxınlığında yerləşir. 7 verstə yaxın torpağı var, onun 5 xalvarı suvarılan, 1 xalvarı dəmyədir. Səlim çayından çəkilmiş 21 verst uzunluğunda olan kanalın suyundan istifadə edirlər. Əkin sahələrinin kənarlarından ot biçirlər, dərələrdə otlaqlar var.

Buğda, arpa, darı əkilir.

Kənddə 10 kəl, 14 öküz, 11 inək, 6 buzov, 24 qoyun, 29 keçi, 3 at, 1 qatır var.

Kənd xəzinəyə məxsusdur.

## № 38.ŞAHGƏLDİ QIŞLAĞI KƏNDİ

### Qaraçorluların əliyanlı tayfası

1.Pənah Hüseyn oğlu 90 y; arvadı Şahpəri 45 y; 3 oğlu var: Nəbi 30 y(arvadı Mələk 20 y; qızı Nazpəri 3 y); Hətəm 20 y; Xudaverdi 12 y.

2.Bayram Pənah oğlu 40 y; arvadı Zöhrəbanu 30 y; 2 qızı var: Hürü 6 y; Pəri 3 y.

3. Bayram Şahhüseyn oğlu 50 y; arvadı Xanpəri 50 y; oğlu İbrahim 30 y(arvadı Pəri 20 y; 2 qızı var: Şərəfnisə 4 y; Gülnisə 1 y).

4.Haxverdi Məcnun oğlu 40 y; arvadı Şahxanım 50 y; 2 oğlu var: Rüstəm 3 y; İmamqulu 1 y; 2 qızı var: Zöhrə 10 y; Zeynəb 7 y.

5. Şəfi Şahgəldi oğlu 40 y; arvadı Xanxanım 30 y; oğlu Bayram 5 y; 2 qızı var: Gülpəri 3 y; Qızbəsti 2 y.

**Milli kürd tayfası**

6. Mərdan Şahverdi oğlu 30 y; arvadı Fatma 20 y; oğlu Allahverən 1 y; qızı Pəri 2 y.

7.Hüseynalı Şahverdi oğlu 20 y; arvadı Nazpəri 15 y;

qardaşı Cəfər 15 y; anası Fatma 45 y.

**Kəndin bütün əhalisi naməlum yerlərə köçüb.**

Rəsul qışlağı kəndində 7 ailə, 16 kişi, 20 qadın, cəmi 36 adam var.

Bu kənd Sallı kəndinin yaxınlığında, Səlim çayın sahillərində yerləşir. 5 verstə yaxın ərazisi var, onun 3 xalvarı suvarılan, 2 xalvarı dəmyə olan əkinə yararlı torpaqlardır. Səlim çayının suyundan istifadə edirlər.

Dərələrdə yararlı otlaqlar var. Darı əkilir.

Kənddə 22 öküz, 26 inək, 6 buzov, 75 qoyun, 106 keçi, 5 at var.

Gündə 1 xalvar dən üyüdən 1 işlək və 1 yararsız dəyirman var.

Kənd xəzinəyə məxsusdur.

## №39. SALLI KƏNDİ
### Bərgüşad tayfası

1.Kəndxuda Xudayar Mahmud oğlu 25 y; arvadı Sənəm 26 y; 2 qızı var: Səkinə 6 y; Qızbəsti 3 y; qardaşı oğlu Mahmud Məhəmməd oğlu 12 y(ölüb); anası Ağasultan 50 y.

2. Bəyməmməd Gülməmməd oğlu 15 y; qardaşı Vəliməmməd 7 y(ölüb); bacısı Hürüzad 12 y; anası Nənəqız 35 y.

3. Haxverdi Abdulla oğlu 50 y; arvadı Hürü 40 y; oğlu Talıb 20 y; (onun arvadı Səlbi 15 y).

4. Məhəmməd Məhərrəm oğlu 18 y(ölüb); 2 bacısı var: Nənəxanım 14 y; Pəri 4 y; anası Bacıqız 40 y.

5. Şükür Haxverdi oğlu 25 y; arvadı Hürü 20 y; qızı Fatma 4 y; qardaşı Allahverdi 7 y; anası Hənifə 40 y.

6.Məmmədalı Məmmədalı oğlu 40 y; arvadı Nənəxanım 40 y; oğlu Şaban 18 y; 3 qızı var: Bacıqız 10 y; Yetər 9 y; Amanyetər 5 y.

**Qarabağa köçüblər.**

7. Mahmud Alı oğlu 30 y; arvadı Reyhan 30 y; 2 oğlu var: Qurbanəli 8 y; Mehralı 1 y(ölüb); 2 qızı var: Mələk 9 y; Hürü 5 y.

8.Köçəli Hüseynalı oğlu 30 y; arvadı Gülşah 20 y; oğlu Hüseynalı 1 y; qardaşı Həzrətqulu 7 y; anası Fəxrinisə 60 y.

9.Təhmiraz Məhəmməd oğlu 30 y; arvadı Hürüzad 15 y.

10. Həsən Zeynalabdin oğlu 30 y; arvadı Sona 30 y; qızı Fatma 4 y; anası Yetər 70 y.

11.Bayraməli Səhləli oğlu 30 y; arvadı Qızyetər 25 y; oğlu Nəcəf 5 y; 2 qızı var: Şahxanım 7 y; Allahyetər 4 y; anası Arzuxan 70 y.

12. Həsən Nəzəralı oğlu 30 y; arvadı Səlbinaz 25 y; 2 qızı var: Hürü 7 y; Pəri 1 y.

13. Oruc Nəzəralı oğlu 40 y; arvadı Mələk 35 y; oğlu Məmmədhüseyn 20 y.

14. Molla İsmayıl Əli oğlu 40 y; arvadı Zöhrəbanu 20 y; oğlu Mirzalı 5 y; 2 qızı var: Səfiyəbanu 3 y; Cahanbanu 1 y.

**Püsyanlı kürdlərin babalı tayfası:**

15.Məmmədalı Sarıxan oğlu 50 y(ölüb); arvadı Fatma 40 y; oğlu Cəfərqulu 20 y(ölüb); (onun arvadı Səkinə 15 y; oğlu Bayramqulu 1 y; ölüb).

16.Mustafa Məmmədalı oğlu 30 y; arvadı Gözəl 22 y; oğlu Həsənqulu 10 y; qızı Əminə 9 y.

**Qarabağın Püsyan kəndinə köçüblər.**

**Qaraçorluların təhməzli tayfası**

17.Pənah Məmmədhüseyn oğlu 40 y; arvadı Xanxanım 60 y; oğlu Qulu 15 y; qızı Ağaxanım 9 y.

**Qarabağın Püsyan kəndinə köçüblər.**

Sallı kəndində 17 ailə, 33 kişi, 44 qadın, cəmi 77 adam yaşayır.

Bu kənd Səlimçayın yaxınlığında yerləşir. Ərazisi 14 verstdir, onun 20 xalvarı əkinə yararlı suvarılan torpaqdır. Çay və bulaqların suyundan istifadə edirlər. Az miqdar ot biçirlər, lakin ətraf dağlar əlverişli otlaqlardır.

Buğda, arpa və darı əkirlər.

Kənddə 75 öküz, 73 inək, 45 buzov, 522 qoyun, 253 keçi, 26 at, 11 ulaq var.

Kənd xəzinəyə məxsusdur.

## № 40. OBANA KƏNDİ
### Qaraçorluların hacısamlı tayfası

1.Kəndxuda Qılıc Allahverdi oğlu 50 y; arvadı Sənəm 40 y; 2 oğlu var: Məmmədalı 20 y; Bayram 7 y; 2 qızı var: Leyli 15 y; Sədəf 3 y.

2. Mirzə Hüseyn oğlu 50 y; arvadı Yetər 35 y; 2 oğlu var: Rəhim 20 y; Hüseyn 7 y; 2 qızı var: Gülümağa 10 y; Xanımağa 6 y.

3. Eylas Şahgörən oğlu 30 y; arvadı Şahsənəm 25 y; oğlu Məmməd 7 y; 2 qızı var: Bəyi 9 y; Xanpəri 3 y.

4. Abbas Edilxan oğlu 25 y; arvadı Pəri 20 y; oğlu Edilxan 5 y.

5. Məcnun Allahverdi oğlu 40 y; arvadı Şahpəri 30 y; 2 oğlu var: Allahverdi 15 y; Məhərrəm 7 y; qızı Xanxanım 6 y.

Əhalisi qaraçorluların hacısamlı tayfasından olan Obana kəndində 5 ailə, 13 kişi, 12 qadın, cəmi 25 adam yaşayır.

**Bu kəndin əhalisinin haraya köçdüyü məlum deyil. Qonşu Qızılqışlaq və Qoytul kəndlərinin əhalisi 5 il bundan qabaq məskunlaşıb.**

Kənd Aynazur kəndinin yaxınlığındadır, qışlaq olmaqla örüş yeri kimi istifadə olunan 20 verst torpağı var, əkinləri yoxdur.

Xəzinəyə məxsus olan bu kənddə 22 öküz, 27 inək, 26 buzov, 3 at var.

## №41. ARDARAS KƏNDİ.
### Püsyanlı tayfası

1.Kəndxuda Məhəmməd Beydulla oğlu 60 y; arvadı Şahxanım 30 y; 2 oğlu var: Canməmməd 7 y; Şahməmməd 5 y; qardaşı Xanməmməd 50 y(ölüb; onun arvadı Səkinə 20 y).

2. Novruz Beydulla oğlu 70 y(ölüb); arvadı Sevgili 40 y; 3 oğlu var: beydulla 20 y(ölüb). (onun arvadı Tükəzban 15 y; oğlu Əsədulla 1 y); Nəbi 19 y; (onun arvadı Qəvri 20 y; qızı Zeynəb 2 y); Hüseynalı 7 y.

3.Ocaqqulu Beydulla oğlu 55 y; arvadı Xeyrənisə 30 y; 2 oğlu var: Bayraməli 15 y; Gülmalı 9y.

4. Cəfər Məhəmməd oğlu 20 y; arvadı Pərizad 15 y; anası Şahsənəm 40 y.

5.Məmmədqulu Beydulla oğlu 45 y; arvadı Şərəbanu 40 y; 2 oğlu var: Həsən 15 (ölüb). Qurbanəli 7 y.

6.Məhəmməd Mirzə oğlu 20 y; arvadı Xeyrənisə 15 y; qardaşı Məhərrəm 7 y; anası Hürüxan 40 y.

**Dərələyəz mahalının Qaravənk kəndinə köçüblər.**

Əvvəlki kəndin yaxınlığındadır. Ərazisi 7 verstə yaxındır, 14 xalvar əkinə yararlı dəmyə torpağı var. Bulaq suyundan istifadə olunur, 2 min bağ ot biçilir.

Az miqdarda buğda və arpa əkilir.

Xəzinəyə məxsus olan bu kənddə 14 öküz, 14 inək, 11 buzov, 97 qoyun, 51 keçi, 6 at var.

## №42. ƏLİ QIŞLAĞI KƏNDİ

**Qaraçorluların təhməzli tayfası**

1.Kəndxuda Namaz Qasım oğlu 50 y; arvadı Zülheyda 40 y; 4 oğlu var: Səfəralı 25 y (arvadı Mehricahan 25 y; 2 oğlu var: Qasım 2 y; Danıbəy 1 y); Allahverdi 20 y; Kazım 16 y; Cəfər 12 y; qızı Xırda 7 y.

**Dərələyəz mahalının Aşağı Canı kəndinə köçüblər.**

2. Abbas İmamverdi oğlu 30 y; arvadı Cahan 18 y; 2 oğlu var: Nəcəfqulu 5 y; Dəryaqulu 4 y; qızı Şahxanım 2 y.

**Dərələyəz mahalının Zeytə kəndinə köçüblər.**

3. Bala Albəy oğlu 30 y; 2 oğlu var: Təhmuraz 15 y; Əmirxan 12 y; qızı Səkinə 8 y.

**Qarabağa köçüblər.**

Qaraçorluların təhməzli tayfasının yaşadığı Əli qışlağı kəndində 3 ailə, 13 kişi, 6 qadın, cəmi 19 adam var.

Qoytul çayının sahilində yerləşən bu kəndin ərazisi 1 verstdir, onun 3 xalvarı əkinə yararlıdır. Əkinlərin ətrafında az miqdar biçənəklər var.

Buğda, arpa,darı, soğan və tərəvəz əkirlər.

9 öküz, 11 inək, 7 buzov, 131 qoyun, 19 keçi, 4 at var. Kənd xəzinəyə məxsusdur.

## №43.HƏSƏN KƏNDİ.

İrandan köçürülmüş 17 erməni ailəsi yaşayır.

## №44.ƏRDƏPİN KƏNDİ.

İrandan köçürülmüş 38 erməni ailəsi yaşayır.

## №45.ƏLİXAN PƏYƏSİ KƏNDİ

**Qaraçorluların əlixanlı tayfası**

1.Kəndxuda Aydın Xudo oğlu 50 y; arvadı Sənəm 26 y; oğlu Həsənalı 12 y; qızı Bədirnisə 9 y.

2.Məhərrəm Xudo oğlu 25; arvadı Qızxanım 22 y; oğlu Əmrah 7 y; qızı Səkinə 8 y.

3.Kərim Xudo oğlu 26 y; arvadı Leyli 20 y; oğlu Gülməmməd 4 y.

4. Əli Əziz oğlu 25 y; arvadı Səlbi 22 y; oğlu Zülfüqar 5 y; qızı Hürü 8 y.

5. Allahverdi Əziz oğlu 24 y; arvadı Sona 18 y; qızı Mehriban 3 y.

Əlixanlı tayfasının yaşadığı Əlixan pəyəsi kəndində 5 ailə, 9 kişi, 9 qadın, cəmi 18 adam yaşayır.

Gömüşbulaq çayının yaxınlığında yerləşir. 7 verstə yaxın ərazisi var və otlaq kimi istifadə olunur. Əhali əkinçiliklə məşğul olmur.

Kənddə 13 öküz, 11 inək, 10 buzov, 5 at var.

## № 46. HORVADIX KƏNDİ
### Qaraçorluların hacısamlı tayfası

1.Kəndxuda Xıdır Hüseyn oğlu 40 y; 3 arvadı var: Şərəbanu 30 y; Pəri 20 y; Yaxşı 15 y; oğlu Allahverən 10 y; qızı Nazlı 4 y.

2. Cəfər Hüseyn oğlu 30 y; arvadı Xeyrənisə 20 y; qızı Şərəbanu 4 y.

3. Hüseyn Əsgər oğlu 50 y; arvadı Saliyə 20 y; 2 qardaşı qızı var: Zöhrə 4 y; Qızbəsti 2 y.

**Qarabağ qəzasının Yeni Uğurlubəyli kəndinə köçüblər.**

4.Osman Hacı oğlu 30 y; arvadı Bəyaz 40 y; oğlu Husso 10 y; qızı Mədinə 5 y; qardaşı Nəbi 20 y; (onun arvadı Ayişə 15 y);

**Dərələyəzin Qozluca kəndinə köçüblər.**

5. Mirzə Eliyas oğlu 20 y; oğlu Oruc 3 y; anası Fatma 40 y;

**Qarabağın hansı kəndinə getdikləri məlum deyil.**

6. Məhəmməd Eliyas oğlu 15 y; arvadı Sona 15 y.

**Qarabağa köçüblər.**

7.Alməmməd Məmmədxan oğlu 30 y; arvadı Xanxanım 20 y; oğlu İsgəndər 10 y; qızı Şahsənəm 15 y.

8.Məhərrəm Nağı oğlu 40 y(ölüb); arvadı Xanzadə 40 y; oğlu Həsən 10 y; qızı Pəri 13 y.

**Qarabağ qəzasının Uğurlubəyli kəndinə köçüblər.**

9. Kələş Mahmud oğlu 15 y; bacısı Sofi 10 y; anası Həcər 30 y.

**Dərələyəzin Qozluca kəndinə köçüblər.**

Əhalisi hacısamlı olan Xorvadıx kəndində 9 ailə, 15 kişi. 20 qadın, cəmi 35 adam yaşayır.

Bu kənd Gümüşbulağın yaxınlığında yerləşir. 11 verst ərazisi var, onun 3 xalvarı suvarılan, qalanı dəmyədir. İldə 2 min bağ ot biçilir.

Buğda və arpa əkirlər.

Xəzinəyə məxsus olan bu kənddə 3 yararsız dəyirman, bir yararsız bəzirxana, 35 öküz, 41 inək, 16 buzov, 142 qoyun, 93 keçi, 8 at, 3 ulaq var.

## № 47. ƏLƏYƏZ KƏNDİ
### Qaraçorluların tərtərli tayfası

1.Kəndxuda Məhərrəm Allahverdi oğlu 50 y; arvadı Qızxanım 40 y; 3 oğlu var: İsmayıl 15 y; Qasım 8 y; Əmrah 5 y; 2 qızı var: Gülxanım 4 y; Bəxşi 1 y; qardaşı qızı Səkinə 7 y.

**Ailə Qarabağ qəzasına köçüb.**

2.Kərim Xudaverdi oğlu 30 y; arvadı Leyli 25 y; 2 oğlu var: Şahməmməd 8 y; Gülməmməd 2 y; qızı Günəş 5 y.

**Qarabağa köçüblər.**

3.Əli Əziz oğlu 30 y; arvadı Səlbi 28 y; 2 oğlu var: Şadman 12 y; Əmirqulu 4 y; 2 qızı var: Hürü 6 y; Xanpəri 1 y.

**Hacısamlı tayfası**

1.Şahverdi Məmmədcəfər oğlu 45 y; 2 arvadı var: Ağapəri 35 y; Yetər 30 y; 7 oğlu var: Şübhanverdi 20 y; İmamverdi 18 y; Abbasqulu 15 y; Nəbi 6 y; İmamqulu 5 y; Bayraməli 2 y; Hümbətalı 1 y; 3 qızı var: Pəri 5 y; Nazpəri 3 y; Xanpəri 2 y.

1 yerli, İrandan gəlmiş 11 erməni ailəsinin siyahısı.

Ələyəz kəndi Dərələyəz mahalının ən şimal qurtaracağında, Ələyəz çayının üstündə yerləşir. Ona məxsus olan torpaqlar 35 verstə yaxındır. Onun 30 xalvarı əkinə yararlı suvarılan torpaqdır. Kənddən şimala uzanan dərələr baxımsız qalmış boş kəndlərin meyvə bağları ilə doludur. 600-dən çox qoz ağacı var. Kəndin cənub-şərqində 15 verst uzanıb gedən düz gövdəli meşə örtüyü var.

Sakinlər az ot biçir, amma otlu biçənəklər və örüşlər boldur.

Buğda, arpa, darı, kətan, çətənə, paxla, mərcimək, pambıq, tütün, çuğundur, və kələm əkirlər.

Müsəlmanların 19 öküzü, 32 inəyi, 21 buzovu, 60 qoyunu, 20 keçisi, 5 atı var.

Gündə 2 xalvar dən üyüdən 1 işlək dəyirman, 15 yararsız dəyirman var.

## № 48. GÜNEYVƏNK KƏNDİ

### Qaraçorluların hacısamlı tayfası

1.Kəndxuda Ələsgər Məhəmməd oğlu 18 y; arvadı Fatma 14 y; qardaşı Abdulla 20 y;(onun arvadı Nənəxanım 19 y; 2 oğlu var:İsmayıl 5 y; Mustafa 3 y); qızı Səkinə 1 y; anası Nazlı 50 y.

2. Əsədulla Məhəmməd oğlu 30 y (dülgər); arvadı Pəri 30 y; oğlu Almədət 7 y; 3 qızı var: Zeynəb 15 y; Gövhər 6 y; Mələk 5 y.

3. Qasım Əbülhəsən oğlu 50 y; arvadı Yetər 40 y; 3 oğlu var: Tağı 18 y(arvadı Nərgiz 25 y; 2 oğlu var: Ələsgər 4 y; Əli 2 y; qızı Şərəfnisə 3 y); Hüseyn 8 y; Həsən 5 y; 2 qızı var: Zeynəb 12 y; Nisə 6 y.

**İrəvan qəzasının Qarabağlar kəndinə köçüblər.**

4. Məmmədəmin Xəlil oğlu 40 y; arvadı Sona 26 y; 2 oğlu var:Xəlil 12 y; Muradəli 8 y; 2 qızı var: Yetər 16 y; Pəri 13 y.

5. Məmmədhəsən Rüstəm oğlu 30 y; 2 arvadı var: Fatma 20 y; Şahxanım 19 y; qardaşı Mikayıl 28 y; anası Şahbəyi 60 y.

**Qarabağa köçüblər.**

6.Oruc Məmməd oğlu 30 y; arvadı Mahpəri 20 y; qızı Xeyrənisə 6 y.

7.Şanov Rüstəm oğlu 40 y; arvadı Hürü 30 y; 3 oğlu var: Məmmədhüseyn 15 y; Rüstəm 12 y; Qurbanəli 6 y; 3 qızı var: Çiçək 12 y; Şahbəyi 5 y; Yaxşı 3 y.

**Qarabağa köçüblər.**

8.Əlihüseyn Məmmədhüseyn oğlu 30 y; arvadı Nənəxanım 20 y; oğlu Allahverdi 3 eynəb 5 y.

**Qarabağa köçüblər.**

9.Tarverdi Xəlil oğlu 30 y; arvadı Mələk 16 y; anası Gülpəri 50 y.

**İrəvan qəzasının harasına köçdükləri məlum deyil.**

10. Rəsul Şahverdi oğlu 25 y(kor); arvadı Zeynəb 20 y; 2 oğlu var: Ələkbər 5 y; Məmmədtağı 3 y.

**İrəvan qəzasının harasına köçdükləri məlum deyil.**

Əhalisi hacısamlı olan Güneyvənk kəndində 10 ailə, 28 kişi, 30 qadın, cəmi 58 nəfər yaşayır.

Bu kənd əvvəlki kənddən şərqdə, Ələyəz çayının kənarında yerləşir. Burada 5 xalvar suvarılan torpaq var. Bu

kənddən yuxarıda **"Gülüdüz"** adlanan böyük çöl yerləşir. Burada 500 xalvardan artıq əkinə yararlı suvarılan torpaq var, lakin taxıl zəmiləri çox azdır.

Gülüdüzdə geniş biçənəklər və otlaqlar var.

Buğda və arpa əkilir.

Xəzinəyə məxsus olan bu kənddə 63 öküz, 78 inək, 33 buzov, 176 qoyun, 141 keçi, 9 at, 2 baxımsız dəyirman, 1 baxımsız bəzirxana, 1 dülgər, çöl daşından tikilmiş bir monastr  var.

## №49.QOVUŞUQ KƏNDİ

### Qaraçorluların hacısamlı tayfası

1.Kəndxuda Həsən İsmayıl oğlu 55 y; 3 arvadı var: Bahar 40 y; Yaxşı 30 y; Qızxanım 20 y;

**Dərələyəz mahalının Həsən kəndinə köçüblər.**

2.Nəcəfalı Həsən oğlu 25 y; arvadı Hürüzad 18 y.

**Dərələyəz mahalının Həsən kəndinə köçüblər.**

3.Qurbanəli Həsən oğlu 22 y.

**Dərələyəz mahalının Həsən kəndinə köçüblər.**

4.Novruz İsmayıl oğlu 50 y; arvadı Hürü 40 y; 6 oğlu var: Məhərrəm 25 y;(onun arvadı Sayalı 20 y; oğlu Məhərrəm 2 y); Məmmədalı 18 y; Abbasəli 15 y; Səfəralı 10 y; Gülmalı 10 y(əkizdirlər); Namazalı 7 y; 2 qızı var: Yetər 8 y; Ağapəri 4 y.

**Dərələyəz mahalının Həsən kəndinə köçüblər.**

5.Seyid Allahverdi Seyid Nəbi oğlu 50 y; arvadı Hürüzad 45 y; 5 oğlu var:Seyid Nəbi 25 y; Seyid Məmməd 15 y; Seyid Abdulla 12 y; Seyid Bayram 6 y; Seyid Həsənalı 4 y.

**Dərələyəzin Ayısəsi kəndinə köçüblər.**

6. İbrahim Alı oğlu 15 y; qardaşı Həsənalı 3 y; 3 bacısı var: Gülpəri 12 y; Şahpəri 8 y; Mahpəri 6 y; anası Şərəbanu 35 y.

**Haraya getdikləri məlum deyil.**

7.Qurbanəli Səlim oğlu 15 y; bacısı Zeynişərəf 9 y;

**Dərələyəzin Qozluca kəndinə köçüblər.**

8.Alı Məmmədxan oğlu 40 y(ölüb); arvadı Hürü 50 y; 4 oğlu var: Bayram 25 y; (arvadı Gülyetər 15 y **(Qarabağın Tərtər kəndinə köçüblər));** Hüseyn 14 y; Allahverdi 8 y; Tahirverdi 7 y; 2 qızı var: Xəzəl 6 y; Pərixan 5 y.

**Dərələyəzin Ostı kəndinə köçüblər.**

9.Tahirverdi Allahverdi oğlu 50 y; arvadı Ağasultan 50 y; oğlu Allahverdi 24 y(arvadı Mahpəri 15 y).

**Qarabağ qəzasının Ağdərə kəndinə köçüblər.**

10. Bayram Tahirverdi oğlu 25 y; arvadı Pərizad 25 y; oğlu Abbas 2 y; 4 qızı var: Hürüzad 10 y; Səkinə 8 y; Şərəf 6 y; Gövhər 3 y.

11. Novruz Alı oğlu 50 y; arvadı Sona 40 y; 3 oğlu var: Məhərrəm 20 y(onun arvadı Mahpəri 15 y); Vəli 10 y; Alı 5 y.

**Qarabağ qəzasının Zanus kəndinə köçüblər.**

12.Talıbxan Məcnun oğlu 30 y; arvadı Amanyetər 35 y; 3 oğlu var: Hüseyn 12 y; Albəy 8 y; Məcnun 5 y; 3 qızı var: Xanım 18 y; Gülyetər 7 y; Çiçək 6 y.

**Dərələyəzin Ostı kəndinə köçüblər.**

13. Əmirqulu Şahbəndə oğlu 30 y; arvadı Ağapəri 20 y; qızı Yetər 1 y.

**Qarabağa köçüblər.**

14.Vəli Məmmədxan oğlu 50 y; arvadı Allahyetər 40 y; 2 oğlu var: Məhəmməd 15 y; Məhərrəm 8 y; 3 qızı var: Reyhan 15 y; Gülnisə 7 y; Pəri 3 y.

**Qarabağa köçüblər.**

15.Alı Həsənalı oğlu 20 y; 4 qardaşı var: Vəli 15; Məmmədalı 10 y; Abbasəli 5 y; Tahirverdi 3 y; anası Mələk 50 y.

**Qarabağa köçüblər.**

16.Hümbət Məhəmməd oğlu 20 y; arvadı Səkinə 15 y; qızı Balaxanım 1 y.

17.Nəbi Hüseyn oğlu 20 y; arvadı Cahan 15 y; oğlu Hüseynalı 1 y.

18.Nəbi Ağaxan oğlu 50 y; 3 oğlu var: Səfəralı 20 y; Allahverən 10 y; Həsənalı 5 y; qızı Gözəl 15 y.

**Qarabağa köçüblər.**

Qaraçorluların hacısamlı tayfasının yaşadığı Qovuşuq kəndində 18 ailə, 53 kişi, 43 qadın, cəmi 96 adam var.

Qovuşuq kəndi geniş Gülüdüz düzənliyində, Ələyəz çayının yaxınlığında yerləşir. Torpaqları əvvəlki kəndlə ümumidir.

Buğda və arpa əkilir.

Xəzinəyə məxsus olan bu kənddə 71 öküz, 111 inək, 52 buzov, 306 qoyun, 322 keçi, 25 at, 2 ulaq var.

## №50. QARAVƏNK KƏNDİ

### Tatarlar. Şıxanlı tayfası

1.Kəndxuda Seyid Şahhüseyn Seyid Qurban oğlu 60 y; arvadı Pəri 50 y; 3 oğlu var: Seyid Məmmədbağır 15 y; Seyid Şirin 8 y; Seyid Cəfər 6 y; 3 qızı var: Əslihan 14 y; Nərgiz 5 y; Fatma 4 y.

**Dərələyəzin Ayısəsi kəndinə köçüblər.**

2.Seyid İsmayıl Seyid Məmmədalı oğlu 50 y; arvadı Səkinə 50 y; oğlu Seyid Məmmədalı 10 y; qızı Nisə 2 y.

**Dərələyəzin Herher kəndinə köçüblər.**

3.Seyid Həsən Seyid Ağahüseyn oğlu 60 (ölüb); arvadı Zeynəb 40 y; 2 oğlu var: Seyid Hüseyn 12 y; Seyid Məhəmməd 5 y; 3 qızı var: Şahsənəm 15 y; Nənəqız 10 y; Fatma 4 y.

**Qarabağın Kol kəndinə köçüblər.**

4. Seyid Eylas Seyid Abbas oğlu 30 y; arvadı Xanxanım 25 y; 4 oğlu var: Seyid Ələsgər 10 y; Seyid Abbas 8 y; Seyid Mirhəsən 6 y; Seyid Səfi 4 y; 2 qızı var: Yetər 3 y; Fatma 2 y.

**Dərələyəzin Cağatay kəndinə köçüblər.**

5.Seyid Ələkbər Seyid Abbas oğlu 32 y; arvadı Pərinisə 25 y; 2 oğlu var: Seyid Rza 8 y; Seyid Cəfər 4 y; qardaşı Seyid İbrahim 15 y; bacısı Pəri 20 y.

**Qarabağın Kol kəndinə köçüblər.**

6.Seyid Hüseynxan Seyid Məmmədxan oğlu 30 y (ölüb); arvadı Şərəfnisə 50 y; 2 oğlu var: Seyid Həsənxan 15 y; Seyid Şahverdi 12 y; qızı Səlbi 8 y.

**Qarabağın Kol kəndinə köçüblər.**

7.Seyid İbrahim Seyid Məmmədxan oğlu 30 y(ölüb); arvadı Mahpəri 28 y; 2 oğlu var: Seyid Həsən 15 y; Seyid Əli 3 y.

8. Seyid Hüseynəli Seyid Həsən oğlu 40 y; arvadı Hürü 30 y; 2 oğlu var: Seyid Həsən 4 y; Seyid İbrahim 2 y; qızı Xanxanım 7 y; qardaşı Seyid İsmayıl 15 y.

**Dərələyəzin Ayısəsi kəndinə köçüblər.**

9. Seyid Bayram Seyid Həsən oğlu 20 y; arvadı Sultan 18 y; oğlu Seyid Abbas 5 y; qızı Mələk 4 y.

**Dərələyəzin Ayısəsi kəndinə köçüblər.**

10.Seyid Məhəmməd Seyid Ağasi oğlu 50 y; arvadı Bənövşə 30 y; 2 oğlu var: Seyid Əliməmməd 6 y; Seyid Həsənəli 3 y; qızı Nənəpəri 10 y.

**Dərələyəzin Ayısəsi kəndinə köçüblər.**

11.Seyid Ağa Seyid Məhəmməd oğlu 15 y(ölüb); 2 qardaşı var: Seyid Əhməd 8 y; Seyid Hümbət 5 y; 2 bacısı var: Şahxanım 10 y; Qızxanım 6 y; anası Yetər 40 y.

**Dərələyəzin Ayısəsi kəndinə köçüblər.**

**Qaraçorluların əliyanlı tayfası**

1.Ağahüseyn Eylas oğlu 40 y; arvadı Zeynəb 30 y; 2 oğlu var: Eylas 15 y; (onun arvadı Amanyetər 20 y); Şahbaz 10 y; qızı Pəri 9 y.

**Dərələyəzin Ayısəsi kəndinə köçüblər.**

2. Şahverdi Balı oğlu 50 y; arvadı Hürüxan 30 y; 3 oğlu var: Musa 10 y; İsa 6 y; Allahverdi 3 y.

**Haraya köçdükləri məlum deyil.**

3. Çıraq Hüseyn oğlu 60 y; 2 oğlu var: Hüseyn 20 y; (onun arvadı Şərəbanu 20 y; qızlığı Xeyrənisə 3 y); Şahhüseyn 15 y; qızı Yetər 18y

Qaravənk kəndində 14 ailə, 46 kişi, 34 qadın, cəmi 80 nəfər yaşayır.

Bu kənd Ələyəz kəndindən cənubda, dağlıq yerdə yerləşir. Ərazisi 14 verstdir, onun 2 xalvarı suvarılan, 4 xalvarı dəmyə əkinə yararlı torpaqlardır. Bulaq suyundan istifadə olunur, amma kifayət etmir.

Dərələrdən ot biçirlər.

Buğda, arpa və tərəvəz əkirlər.

Dövlətə məxsus olan bu kənddə 65 öküz, 43 inək, 29 buzov, 92 qoyun, 65 keçi, 7 at var.

## № 51. CAĞATAY KƏNDİ

**Qaraçorluların kulakanlı tayfası**

1.Kəndxuda Məşədi İsaxan Əlmərdan oğlu 60 y; arvadı Fatma 60 y; 2 oğlu var: Edilxan 20 y; Babaxan 10 y; qızı Şahpəri 15 y.

2. Şərif Əlmərdan oğlu 40 y; arvadı Şahpəri 40 y; 2 oğlu var : Məmməd 20 y; Abbasəli 7 y; 3 qızı var: Mələk 15 y; Ammani 10 y; Tutu 8 y;

3. Nəbi Cəfər oğlu 50 y; arvadı Sənəm 30 y; 2 oğlu var: Rüstəm 12 y; Edilxan 4 y;

**Ailə Qarabağa köçüb.**

4.Şahməmməd Pənah oğlu 50 y; arvadı Nazlı 45 y; 2 oğlu var: Xanməmməd 20 y; Həsən 7 y; qızı Hürüxan 15 y.

**Qarabağ nahiyəsinə köçüblər.**

5. Nəbi Nadir oğlu 40 y; arvadı Hürü 30 y; oğlu Nadir 12 y; qızı Gülpəri 15 y.

**Əvvəlki ailə ilə birgə gediblər.**

6.Nəbi Təhnəzər oğlu 30 y; arvadı Zeynəb 25 y; 2 oğlu var: Şahgəldi 5 y; Şahverdi 3 y.

**Qarabağa köçüblər.**

Cağatay kəndində 6 ailə, 17 kişi və 13 qadın olmaqla cəmi 30 nəfər yaşayır.

Kənd Arpaçay sahilində,dağlıq yerdədir. Ərazisi 7 verstdir. 4 xalvarı dəmyədir, 2 xalvar suvarılan yeri var. İldə min bağ ot biçilir. Buğda, darı və bostan bitkiləri becərilir.

Kənddə 33 öküz, 22 inək, 17 buzov, 550 qoyun, 70 keçi, 17 at var.

Kənd dövlətə məxsusdur.

## №52. ERTIŞ KƏNDİ

### Milli tayfası

1.Kəndxuda Hüseyn bəy Osman ağa oğlu 80 y; arvadı Banu 50 y; 3 oğlu var: Nəcəfqulu 15 y; Rzaqulu 8 y; Abdulla 6 y.

2.Qədim Novruz oğlu 30 y; 2 arvadı var: Şahpəri 25 y; Nabat 15 y; anası Nənəxanım 50 y; əmisi oğlu İsmayıl Hüseynqulu oğlu 10 y.

**İrəvan qəzasının Qıraxlı kəndinə köçüblər.**

3. Cəfər bəy Osman ağa oğlu 60 y; 2 oğlu var: Əmirhəsən 30 y; (onun arvadı Səlbixan 20 y; oğlu Məmmədkərim 3 y; qızı Fatma 5 y). Məmmədhəsən 27 y; (onun arvadı Sona 30 y; oğlu Məmmədtağı 1 y(ölüb); qızı Tükəzban 8 y; oğulluğu Abdulla Abbas oğlu 4 y).

**İrəvan qəzasına köçüblər.**

4. Məhəmməd Osman ağa oğlu 50 y(ölüb); 2 oğlu var: Alı 30 y(ölüb). (onun arvadı Tükəzban 20 y; qızı Səkinə 2 y); Hüseynalı 29 y; (onun arvadı Ləbixan 20 y; 2 oğlu var: İsfəndiyar 4 y; Bəxtiyar 2 y(ölüb)).

5. Alı Ocaqqulu oğlu 50 y; qavadı Qızey 30 y; 4 oğlu var: Məmmədrza 16 y; Vəli 8 y; Musa 6 y; Niftalı 2 y(ölüb); qızı Bəyi 9 y.

6.Qəmbər Allahqulu oğlu 60 y; arvadı Pəri 30 y; 3 oğlu var: Bayraməli 15 y; Abbasəli 8 y; Bünyadəli 6 y(ölüb); 3 qızı var: Gülpəri 10 y; Xanpəri 4 y; Gülnisə 2 y; qardaşı oğlu Məmmədhəsən Hüseyn oğlu 30 y.

**İrəvan qəzasına köçüblər.**

7.Ələsgər Ələsgər oğlu 15 y; 3 ögey qardaşı var: İsgəndər Qələndər oğlu 8 y; Hüseynalı 7 y; Abdulla 5 y (ölüb); anası Yetər 30 y.

8. Nəcəf Nəbi oğlu 20 y; qardaşı Qasım 8 y; 2 bacısı var: Hürü 6 y; Şərəbanu 5 y; anası Tükəzban 35 y.

9. Bayraməli Həsən oğlu 25 y; 2 qardaşı var: Qurbanəli 15 y; Məmmədəli 12 y.

10. Ağa Hüseyn bəy oğlu 30 y; oğlu Mehdi 2 y.

**Tatarlar**

1.Məmmədsaleh Vəli oğlu 60 y; oğlu Abbasəli 20 y; (onun arvadı Ağanisə 20 y; qızı Günəş 1 y); 2 qardaşı oğlu var: Ələkbər Kazım oğlu 15 y; Cəfərqulu 8 y.

**İrana köçüblər.**

2. Məhəmməd Yusif oğlu 30 y; arvadı Pəri 25 y; oğlu Əli 10 y.

3. Rəsul Vəli oğlu 60 y(ölüb); qızı Şərəbanu 7 y.

Ertış kəndində 13 ailə, 45 kişi, 25 qadın, cəmi 70 nəfər yaşayır.

Arpaçayın sahilində, dağların arasında yerləşən bu kəndin ərazisi 20 verstdir, onun 8 xalvarı suvarılan, 100 xalvarı dəmyə əkinə yararlı torpaqlardır. Arpa çayın suyundan və bulaqlardan istifadə edirlər. Dərələrdən ot biçirlər, xüsusi biçənək yoxdur.

Buğda, arpa, çəltik, tütün, tərəvəz əkirlər.

Kənddə 41 öküz, 50 inək, 30 buzov, 158 qoyun, 288 keçi, 9 at, 1 ulaq, gündə 10 batman taxıl üyüdən 1 işlək və 1 yararsız dəyirman var.

Əvvəllər bu kənd dövlətə məxsus olub, indi Hüseyn Əli Sultan bu mülkə yiyələnib.

Kənddən yuxarıda, dağların üstündə baxımsız qalmış Şeyx Əli xan qalası yerləşir.

## № 53. AXTA KƏNDİ

### Qaraçorluların həsənanlı tayfası.

1.Yüzbaşı Allahverdi Hətəm oğlu 35 yaş; arvadı Qızyetər 30 y; 2 oğlu var: Hətəm 10 y;Əsəd 4 y; qızı Nənəpəri 6 y; 3 qardaşı var: İmamverdi 20 y(ölüb); Alı 15 y; Bayram 10 y; anası Pəri 50 y.

2.Hüseyn Həsən oğlu 50 y; arvadı Şahpəri 40 y; 2 oğlu var: Murtuza 15 y; Behbudalı 4 y; 2 qızı var: Gülpəri 8 y; Mahnigar 6 y.

**6 il əvvəl Qarabağ qəzasına köçüblər.**

3.Vəli Həsən oğlu 55 y.Arvadı Sultan 30 y.3 oğlu var:

Albəy 15; Mustafa 6 y; Abbas 1 y.(ölüb).2 qızı var: Nənəqız 8 y; Şahpəri 5 y.

4.Məmmədhəsən Qasım oğlu 35 y.Arvadı Xanxanım 30 y.

5.Əlirza Çıraq oğlu 50 y.Arvadı Qızyetər 60 y.4 oğlu var: Çıraq 20 y.(ölüb); Əlpəna 15 y; Məmməd 8 y.(ölüb); Alı 5 y;

6.Hətəm İmamverdi oğlu 50 y. Arvadı Yetər 40 y.2 oğlu var: İmamverdi 15 y; Şahverdi 12 y(ölüb); qızı Zeynəb 7 y.

7.Hüseyn Nəbi oğlu 50 y.; arvadı Ağapəri 35 y; 3 oğlu var: Xudaverdi 20 y.(ölüb); Şahhüseyn 17 y(ölüb); İmamverdi 12 y(ölüb);Qızı Salvar 10 y.;

8.Nəbi Hüseyn oğlu 22 y.; arvadı Nənəxanım 18y; oğlu Alı 2 y.;

9.Rüstəm İmamverdi oğlu 30 y.; arvadı Tükəzban 22 y.;3 oğlu var: Hüseynalı 7 y.; Həsənalı 6 y.; Məmmədalı 4 y.

**Bu ailə 6 il əvvəl Qarabağ qəzasının Zar kəndinə köçüb.**

10. Fətəli İmamverdi oğlu 30 y.; arvadı Pərizad 25 y.

Oğlu Sübhanverdi 8 y.; qızı Mahpəri 1 y.

11.Allahverdi İmamverdi oğlu 60 y; arvadı Gülsənəm 35 y. 4 oğlu var: Şahqulu 18 y; Allahqulu 14 y; Xudaverdi 10 y; Məhərrəm 3 y;2 qızı var: Nənəpəri 6 y; Xatun 4 y.

12. Həsən Şıxəli oğlu 50 y; arvadı Hürünisə 40 y; oğlu Şıxəli 10 y; 2 qızı var: Allahyetər 9 y; Şahpəri 7 y.

13.Hüseyn Həsən oğlu 25 y; arvadı Xədicə 20 y. 2 oğlu var: Nəcəfalı 6 y; Qəmbər 4 y;2 qızı var: Fatma 5 y.; Gülpəri 1 y.

14. Həsən Nəbi oğlu 30 y; arvadı Hürü 25 y; qızı Yetər 3 y.Qardaşı Şahhüseyn 15 y; bacısı Şahpəri 8 y; anası Gülü 60 y.

15. Usub Hüseyn oğlu 25 y; arvadı Mahpəri 20 y; oğlu Əhməd 4 y; qızı Bahar 1 y; anası Gülümağa 50 y.

16. Mənsiməli Qasım oğlu 30 y;arvadı Gərəknaz 25 y; oğlu Hüseynalı 10 y; 2 qızı var: Allahyetər 12 y; Mələk 5 y.

17.Şahbaz Novruz oğlu 20 y; arvadı Pərixan 20 y; oğlu Ağakişi 4 y; qardaşı Şano 15 y; onun arvadı Şahsənəm 14 y; anası Zeynəb 50 y.

18.Əhməd Qaraxan oğlu 20 y;arvadı Ağapəri 20 y; oğlu Süleyman 1 y.

19.Səfi Səfi oğlu 30 y;arvadı Xanımağa 20 y; oğlu Əlipəna 5 y.

**Dərələyəzin Çaykənd kəndinə köçüblər.**

20. Təhmuraz Rəsul oğlu 35 y; arvadı Hənifə 25 y; 2 oğlu var: Rəsul 7 y; Hüseyn 3 y.

**10;11;12;13;14;15;16;17;18; və 20 nömrəli ailələr 7 il qabaq Qarabağ qəzasına köçüblər. Hansı kəndə getdikləri məlum deyil.**

21.Tarverdi Vəli oğlu 50 y. (ölüb); arvadı Fatma 40 y; iki oğlu var: Məlikəjdər 20 y; Həsən 3 y; iki qızı var: Hürü 10 y; Qızxanım 2 y.

22. Hüseyn Şahverdi oğlu 30 y; arvadı Mahpəri 20 y; oğlu Abbas 1 y.

23. Hüseyn İman oğlu 40 y; arvadı Xatun 35 y; üç oğlu var: Allahverdi 20 y; İsmayıl 14 y; Süleyman 4 y. dörd qızı var: Məsumağa 12 y; Fatma 6 y; Şərəbanu 5 y; Şahpəri 3 y.

**Milli tayfası**

1.Şahgəldi Bayram oğlu 40 y; arvadı Şərəbanu 40 y;

3 oğlu var:Behbudalı 15 y; Abbasəli 12 y; İsmayıl 6 y (ölüb);

Qızı Mələk 4 y; anası Qızyetər 60 y.

2.Hüseyn Alı oğlu 30 y; arvadı Zeynəb 20 y.

3.Toma Abdulla oğlu 30 y; arvadı Pəri 25 y; oğlu Şahhüseyn 4 y.

4. Alırza İman oğlu 30 y; arvadı Sona 20 y; qızı Şahsənəm 2 y; anası Şahsənəm 50 y.

**2, 3 və 4 nömrəli ailələr 1836-cı ildə Qarabağ qəzasına köçüblər.**

5.Rəsul Xudaverdi oğlu 60 y; arvadı Zuzik 35 y; dörd oğlu var: Şahverdi 18 y; Meqey 16 y; Nəbi 5 y; Maxso 3 y; qızı Gözəl 2 y.

**Bu ailə İrəvan qəzasına köçüb. Hansı kəndə getdiyi bilinmir.**

**Tatarlar (Yeni müsəlmanlar):**

1.Hacı Məmməd Əli oğlu 55 y; arvadı Mələknisə 42 y; qızı Dostuxanım 2 y; iki qardaşı var: İsmayıl 42 y; onun arvadı Zeynəb 35 y; İsmayılın 2 oğlu var: Novruzəli 16 y; Nəcəfalı 6 y; qızı Fatma 3 y; Məmmədbağır 38 y; arvadı Xeyranisa 20 y; qızı Şahsənəm 2 y;əmisi oğlu Məmmədcəfər Hüseynxan oğlu 35 y; arvadı Səkinə 25 y; oğlu Əsəd 7 y; qızı Zeynəb 4 y;

**Bu ailə 8 il qabaq Naxçıvan qəzasının Qaraboya kəndinə köçüb.**

2.Ağaməmməd Heydər oğlu 32 y; arvadı Şahzeynəb 25 y; oğlu Abbas 2 y;

3 qızı var: Mələk 7 y; Zöhrə 4 y; Şərəbanu 1 y;

3. Əhməd Kərbəlayi Abbas oğlu 50 y; arvadı Gözəlağa 50 y; oğlu Zeynalabdin 6 y; qızı Pərinisə 5 y;

4. Molla Həsən Əbdülqasım oğlu 40 y; arvadı Pərizad 30 y; oğlu Məmməd 8 y; qızı Xanpəri 2 y;

5. Allahverdi Mehralı oğlu 50 y; arvadı Xanımağa 40 y; oğlu Xudaverdi 3 y;2 qızı var: Şahzadə 10 y; Ummugülsüm 5 y.

6.Həsən Allahverdi oğlu 30 y; arvadı Səkinə 20 y; oğlu Mehralı 6 y; qızı Şahpəri 1 y;

**2; 3; 4; 5 və 6 nömrəli ailələr 8 il qabaq Naxçıvan qəzasının Qaraboya kəndinə köçüblər.**

Axta kəndində 34 ailə, 100 kişi və 87 qadın olmaqla 187 nəfər yaşayır.

Bu kənd Köçbək çayının sahilində yerləşir, ərazisi 21 verstdir, 2 verst suvarılan və 25 xalvar dəmyə yeri var. Çay suyundan istifadə edirlər.

Palıd və cır meyvə ağaclarından ibarət olan 20 xalvar meşəsi var.

İldə 10 min bağ ot biçilir. Buğda və arpa əkilir.

Kənddə 14 kəl, 223 öküz, 225 inək, 86 buzov, 1122 qoyun, 311 keçi, 35 at var.

Kəndin bir uçuq və gündə 1,5 xalvar dən üyüdən 1 işlək dəyirmanı, bir uçuq bəzirxanası var.

Kənd dövlətə məxsusdur.

## № 54. TEZXARAB KƏNDİ
### Qaraçorluların kulakanlı tayfası

1.Kəndxuda Rüstəm İmamverdi oğlu 50 y; arvadı Mehribanu 30 y; 2 oğlu var: Bəxtiyar 14; İmamverdi 10 y; qızı Xatun 8 y.

2.Babaxan Allahverdi oğlu 40 y; arvadı Gülpəri 30 y; oğlu Rzaqulu 2 y; 2 qızı var: Xanpəri 10 y; Gülüstan 8 y.

3. İsaxan Allahvedi oğlu 20 y; arvadı Xassə 15 y.

4. Məhərrəm Allahverdi oğlu 15 y; 2 bacısı var: Mehricahan 9 y; Pəricahan 6 y; anası Sənəm 60 y.

5. Məmmədalı Köçəri oğlu 50 y; arvadı Şahsənəm 40 y; 2 oğlu var: Hüseynalı 20 y; Fətəli 17 y; 2 qızı var: Yaxşı 12 y; Nənəxanım 9 y.

Kulakanlıların yaşadığı Tezxarab kəndində 5 ailə, 10 kişi, 12 qadın, cəmi 22 adam var.

6. Abdalxan Kərbəlayi İsmixan oğlu 20 y; bacısı Zöhrə 10 y; anası Sona 60 y.

7. Məmmədxan Məhəmməd oğlu 50 y; arvadı Pəricahan 30 y; iki oğlu var: Allahverdi 20 y; Hümbətalı 10 yiki qızı var: Telli 8 y; Bacıxanım 5 y.

8.Mehdi Kərbəlayi İsmixan 35 y; arvadı Abihəyat 30 y; oğlu Abbas 12 y; iki qızı var: Nabat 5 y; Xədicə 3 y.

9.Məmməd Molla Xudaverdi oğlu 25 y; arvadı Qızxanım 19 y; oğlu Baxşəli 1 y; qızı Bacıxanım 5 y.

**Qarabağın köçüblər.**

Küləkçə tayfasının yaşadığı Qayalı kəndində 9 ailə, 20 kişi, 20 qadın, cəmi 40 adam var.

Arpaçayın yaxınlığında yerləşən bu kəndin ərazisi 7 verstdir, onun 1 xalvarı əkinə yararlı suvarılan torpaqlardır. Arpaçayın suyundan istifadə edirlər. Buğda və arpa əkilir.

Əkinə yararlı torpaqlar kifayət etmədiyindən, bu kəndin əhalisi Qaralar kəndində taxıl əkir.

69 öküz, 55 inək, 20 buzov, 323 qoyun, 106 keçi, 12 at, 7 ulaq olan kənddə 2 yararsız və gündə 2 xalvar taxıl üyüdən 1 işlək dəyirman var.

Kənd dövlətə məxsusdur.

## №78. MARTİROS KƏNDİ

### Qaraçorluların təhməzli tayfası

1.Kəndxuda Məşədi İsmayıl Məhəmməd oğlu 40 y; arvadı Mələk 30 y; oğlu Adıgözəl 13 y.

**Dərələyəzin Terp kəndinə köçüblər.**

2. Ağayar Məhəmməd oğlu 60 y;arvadı Sona 40 y; oğlu

Usub 4 y; 4 qızı var: Zeynəb 14 y; Nabat 9 y; Gülsənəm 6 y; Yasəmən 2 .

**Dərələyəzin Terp kəndinə köçüblər.**

3. Məşədi Cahangir Nəcəf oğlu 40 y; arvadı Fatma 25 y; oğlu Məmməd 10 y; anası Güley 60 y.

**Qarabağa köçüblər.**

4.Əmirgünə Nəcəf oğlu 60 y; arvadı Şahnisə 35 y; 2 oğlu var: Cəfərqulu 10 y(4 il qabaq Sibirə sürgün edilib); Hüseyn 6 y.

**Dərələyəzin Terp kəndinə köçüblər.**

5.Cahan Pənah oğlu 40 y; arvadı Gülpəri 30 y; oğlu Şahgəldi 10 y; 2 qızı var: Nənəqız 9 y; Sona 7 y.

**Qarabağa köçüblər.**

6. Xələf Əmirgünə oğlu 30 y; arvadı Şahpəri 16 y; oğlu Nağı 1 y; qardaşı Səfər 20 y.

**Dərələyəzin Terp kəndinə köçüblər.**

7. Rəhim Məhəmməd oğlu 30 y; arvadı Şahxanım 25 y; 2 qızı var: Ağaxanım 10 y; Nənəxanım 6.

**Dərələyəzin Terp kəndinə köçüblər.**

8. İbrahim Yolçu oğlu 60 y; arvadı Şahbəyi 40 y; oğlu Dəmirxan 15 y; qızı Nənəxanım 10 y.

**Qarabağın Maqauz kəndinə köçüblər.**

9. Hüseyn Cəfər oğlu 60 y; arvadı Xassə 45 y; 3 oğlu var: Məmmədrza 30 y; (onun arvadı Səkinə 20 y; oğlu Bəyalı 3 y; qızı Ana 6 y); Eyvazəli 20 y; Cavad 10 y.

**Qarabağın Maqauz kəndinə köçüblər.**

10.Bayram Alı oğlu 50 y; arvadı Qızxanım 30 y; 2 oğlu var: Gülümalı 7 y; Ağa 3 y; qızı Ağasultan 10 y.

**Qarabağın Maqauz kəndinə köçüblər.**

11.Allahqulu Fətəli oğlu 30 y; arvadı Sənəm 30 y; oğlu Tahirqulu 5 y; 3 qızı var: Səlbi 15 y; Bədir 10 y; Gözəl 3 y.

**Qarabağa köçüblər.**

12.Şahnəzər Şahbaz oğlu 40 y; arvadı Hüsnücahan 30 y; oğlu Hüseyn 15 y; 2 qızı var: Mehri 12 y; Gülsənəm 8 y; qardaşı Cəfərqulu 30 y; (onun arvadı Şərəbanu 20 y).

**Dərələyəzin Terp kəndinə köçüblər.**

13. Məhərrəm Mirzə oğlu 20 y; qardaşı Fəzləli 15 y; anası Nazpəri 50 y.

**Haraya getdikləri bilinmir.**

**Püsyanlı tayfası**

1.Gülməmməd Allahverdi oğlu 60 y; arvadı Hürüzad 45 y; oğlu Hacalı 30 y; (onun arvadı Gülü 20 y; oğlu Mustafa 4 y).

**Dərələyəzin Terp kəndinə köçüblər.**

2. Şıxəli Gülməmməd oğlu 40 y; arvadı Hürüzad 30 y; qızı Səkinə 10 y.

**Dərələyəzin Terp kəndinə köçüblər.**

3.Şahbəndə Köçəri oğlu 60 y; arvadı Pəri 40 y; oğlu Şahməmməd 15 y.

**Naxçıvan nahiyəsinin Cəhri kəndinə köçüblər.**

4.Məmmədqulu Xudaverdi oğlu 60 y; arvadı Şahzadə 50 y; 3 oğlu var: Həsən 30 y (arvadı Bəyi 20 y; oğlu Sadıq 5 y; qızı Zöhrə 3 y); Zeynal 20 y; Hüseyn 15 y.

**Haraya getdikləri bilinmir.**

**Milli tayfası**

1. Həsən Hüseyn oğlu 60 y; arvadı Həzi 40 y; 2 oğlu var: Hüseyn 15 y; Abbas 10 y; 3 qızı var: Qızyetər 12 y; Əminə 5 y; Şərəbanu 2 y.

**Dərələyəzin Ses kəndinə köçüblər.**

2.Seyid Əli Seyid Həsən oğlu 50 y; arvadı Fatmanisə 30 y; oğlu Seyid Abdulla 10 y; 2 qızı var: Şərəbanu 7 y; Şərəfnisə 4 y.

**İrandan köçürülən 40 erməni ailəsinin siyahısı.**

Bu kənd Martiros çayının kənarında, dağlıq yerdə yerləşir. Ərazisi 28 verstdir, onun 20 xalvarı əkinə yararlı suvarılan torpaq, 50 xalvarı dəmyədir. Çayın və 16 bulağın suyundan istifadə edilir. Kəndin yaxınlığındakı dərələrdə alçaqboylu meşələr var. 8 xalvar biçənəklərdən ildə 12 min bağ ot biçilir.

Buğda, arpa, kətan, çətənə, tərəvəz əkilir.

Dövlətə məxsus olan bu kənddə gündə 2,5 xalvar taxıl üyüdən 2 işlək dəyirman, 2 yararsız bəzirxana, müsəlmanların 106 öküzü, 88 inəyi, 33 buzovu, 405 qoyunu, 201 keçisi, 19 atı, 7 ulağı var.

Kəndin yaxınlığında qayanın içində oyulan, hazırda yaxşı vəziyyətdə olan xristian kilsəsi diqqətə layiqdir. Burada 1 monastr və baxımsız qalmış başqa bir kilsə də var.

## DƏRƏLƏYƏZ MAHALININ BAXIMSIZ QALAN BOŞ KƏNDLƏRİ

**1.KƏLLƏTAĞ KƏNDİ.** 18 verst torpaqları olan bu kənd Yaycı və Xaçik kəndlərinin yaxınlığında yerləşir, bulaqları var. Yerli əhalinin dediyinə görə, buralar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsusdur.

**2.HAVUŞ KƏNDİ.** Qnişik kəndinin yaxınlığında yerləşir. 8 verst torpağı vaə bulaqları var. Yerli sakinlərin dediyinə görə, buranın mülkədarı İbrahim Sultan, Hüseynəli Sultan və Bayramqulu Sultandır.

**3.TAMAŞALIQ KƏNDİ.** Oğbin kəndinin yaxınlığında yerləşir. Bulaqları olan 20 verst ərazisi var. Torpaqlar yuxarıdakı 3 sultana məxsusdur.

**4.BƏYDƏRƏ KƏNDİ.** Xaçik kəndinin yaxınlığında yerləşir. Bulaqları olan 4 verst ərazisi var. Yerli sakinlərin dediyinə görə, torpaqlar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsusdur.

**5.MƏRƏTÜZ QIŞLAĞI KƏNDİ.** Yaycı və Axura kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 7 verst ərazisi var. Əhalinin dediyinə görə, torpaqlar Hüseynəli Sultana məxsusdur.

**6.PƏNAHQALASI KƏNDİ.** Axura kəndinin yaxınlığında yerləşir. Bulaqları olan 8 verst ərazisi var. Əhalinin dediyinə görə, torpaqlar Hüseyn xana məxsusdur.

**7.VARTAPUL KƏNDİ.** Qurdqulaq, Oğbin və Azadək kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 18 verst ərazisi var. Xəzinəyə məxsusdur.

**8. MOZROV KƏNDİ**. **9. GƏNZƏK KƏNDİ.** Qurdqulaq və Qnişik kəndlərinin yaxınlığında yerləşirlər. Bulaqları olan və xəzinəyə məxsus 20 verst əraziləri var.

**10.AŞAĞI CANI, 11.YUXARI CANI, 12.QARAQALA KƏNDLƏRİ** Ələyəz kəndinin yaxınlığında, **13.VƏNK KƏNDİ** Ələyəz kəndindən yuxarıda yerləşir. Canı və Ələyəz çaylarının ətrafında xəzinəyə məxsus 40 verst torpaqları var. Buradakı 3 xristian kilsəsindən 2-si yaxşı vəziyyətdədir.

**14.AYISƏSİ KƏNDİ və 15.QALASER KƏNDİ** Horvadıx kəndinin yaxınlığında yerləşirlər. Xəzinəyə məxsus, bulaqları olan 28 verst torpaqları var.

**16.QOŞAVƏNK KƏNDİ.** Horvadıx kəndinin yaxınlığında yerləşən, xəzinəyə məxsus, bulaqları olan 7 verst ərazisi var. Yarıuçuq vəziyyətdə 2 xristian monastrı var.

**17.ÇOMALI KƏNDİ.** Yuxarıda qeyd olunan kəndin yaxınlığında yerləşir. Xəzinəyə məxsus, bulaqları olan 14 verstə yaxın ərazisi var.

**18.VARTANES KƏNDİ.** Çanaxçı kəndinin yaxınlığında yerləşir. Xəzinəyə məxsus, bulaqları olan 18 verstə yaxın ərazisi var. Yarıuçuq vəziyyətdə xristian kilsəsi var.

**19.CƏFƏRLİ KƏNDİ və 20.KÖMÜRLÜ KƏNDİ** Yelpin kəndinin yaxınlığında yerləşirlər. Xəzinəyə məxsus, bulaqları olan, 20 verstə yaxın torpaqları var.

**21.BAĞÇACIQ KƏNDİ.** Çivə və Qozluca kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 18 verst ərazisi var. Əhalinin dediyinə görə, buranın mülkədarı Hüseynəli Sultandır.

**22.RUQİRT KƏNDİ.** Əvvəlki kəndin yaxınlığında yerləşir. Xəzinəyə məxsusdur, bulaqları olan 7 verstə yaxın torpaqları var.

**23.GÖRGƏBAĞ KƏNDİ və 24.QULUBAĞ KƏNDİ.** Tərətün və Ağkəndin yaxınlığında yerləşirlər. Xəzinəyə məxsus, bulaq suları olan 10 verstə yaxın torpaqları var.

**25.QORTUN KƏNDİ.** Çanaxçı və Yelpin kəndlərinin yaxınlığında yerləşir. Bulaq suları olan 14 verstə yaxın torpağı var. Əhalinin dediyinə görə, torpaqlar İbrahim Sultana, Hüseynəli Sultana və Bayramqulu Sultana məxsusdur.

**26.MUĞANCIQ KƏNDİ.** Ərdəpin və Kələkli kəndlərinin yaxınlığında yerləşir. Bulaqları olan 14 verstə yaxın ərazisi var. Əhalinin dediyinə görə torpaqlar Dostəli bəyə məxsusdur.

**27.REYTƏ KƏNDİ.** Zeytə bə Qabaqlı kəndlərinin yaxınlığında yerləşir. Xəzinəyə məxsusdur. Bulaqları olan 7 verstə yaxın ərazisi var.

**28.ÇIRAQOĞLU KƏNDİ.** Köçbək kəndinin yaxınlığında yerləşir. Xəzinəyə məxsusdur. Ərazisi 20 verstə yaxındır. Suvarma üçün Köçbək çayından və buradakı bulaqlardan istifadə edilə bilər.

**29.QNDEVAZ, 30.QUŞÇU, 31.BİLƏK KƏNDLƏRİ.** Qarabağın sərhəddinə yaxınlıqda yerləşirlər, 50 verstə yaxın torpaqları var. Arpa çayın suyundan və bulaqlardan istifadə edilə bilər. Burada kifayət qədər meşə örtüyü mövcuddur. Yarıuçuq xristian monastrı və uçuq vəziyyətdə olan 3 xristian kilsəsi də var.**(Buradakı turş sulfat tərkibli mineral su mahalın haqqındakı izahat yazısında təsvir edilmişdir).**

**32.PAŞADÜZ KƏNDİ.** Söylan və Məlişkə kəndlərinin yaxınlığında yerləşir. Xəzinəyə məxsus, bulaqları olan 28 verstə yaxın torpaqları var. **(Kəndin başaqa adı DAYLAQLIDIR-N.Ə.)**

**QEYD:** ***Yerli əhali bəzi boş kəndlərin mülkədarlara məxsus olduğunu desələr də, topladığım məlumatlara görə bu kəndlər xəzinəyə məxsusdur. Çünki İran dövlətinin vaxtında Dərələyəz mahalında mülkədar torpaqları olmayıb.***

**Quberniya katibi Vladimir Zolotnitski.**

## DƏRƏLƏYƏZ MAHALININ ƏHALİSİ. 1831-ci il.

**ƏHALİ**

**Müsəlmanlar**

1001 ailə, 2.411 kişi, 2.172 qadın, cəmi 4.583 nəfər

**Yerli ermənilər**

58 ailə, 141 kişi, 147 qadın, cəmi 288 nəfər

**İrandan köçürülən ermənilər**

507 ailə, 1.453 kişi, 1.293 qadın, cəmi 2.746 nəfər.

**Türkiyədən köçürülən ermənilər**

8 ailə, 17 kişi, 10 qadın, cəmi 27 nəfər.

**Bütün Dərələyəzin əhalisi**

1.574 ailə, 4.075 kişi, 3661 qadın, cəmi 7736 nəfər.

# DƏRƏLƏYƏZ MAHALI ÜZRƏ KAMERAL SİYAHIYA ÜMUMİ İZAHAT

***Mahalın yerləşdiyi yer və ərazisi***

Dərələyəz mahalı Naxçıvan qəzasının şimal hissəsində yerləşməklə, şimalda İrəvan və Qarabağ qəzaları, şərqdə Qarabağ qəzası, cənubda Xok, Məvazixatun və Naxçıvan mahalları **(Məvazixatun mahalına Cəhri və ətrafındakı kəndlər aid idi-N.Ə.)**, qərbdə İrəvan qəzası ilə həmsərhəddir. Dərələyəz mahalının şimaldan cənuba ən uzun məsafəsi, Martiros kəndindən Səlimin karvansarayına qədər təxminən 40 verst, şərqdən qərbə uzunluğu, yəni Gümüşxana kəndindən Çanaxçı kəndinə qədər olan məsafə 50 verstdir. Beləliklə, mahalın ümumi ərazisi təxminən 2 min kv. verst təşkil edir.

***Meşələri***

Mahalda çoxlu meşə var, aralarında düz oduncaqlılar da çoxdur. Bütün dərələr və çay sahilləri meşə ilə örtülsə də, təəssüf ki, onu quru yolla Naxçıvana daşımaq üçün yol yoxdur.

***Biçənək və örüş yerləri***

Biçənək və otlaqlar Dərələyəz mahalının ən böyük hissəsini tutur. Qarabağ qəzasının əhalisi də hər il yayda buraya 20 mindən artıq qoyun yaylağa gətirirlər.

***Çayları***

Şimal-şərqdən başlayıb cənub-qərb istiqamətində bütün Dərələyəz mahalından axan Arpa çayı Məmməd Rza Dizəsi kəndindən aşağıda İrəvan qəzasına daxil olur, burada Şərur mahalını qidalandırıb Ərəb Yengicə və Qarahəsənli kəndləri arasında Araza tökülür. Axarı boyu Arpa çayı-

na bir çox çaylar da tökülür ki, başlıcası bunlardır: a) Sağ sahildən Ələyəz və Dorani çaylarının da qarışdığı Kotanlı çayı və Qoytul çayı; b) Sol tərəfdən Köçbək çayı, Martiros çayı, Əyər çayı və Həmzə Əli Dizəsi çayı.

***Göllər***

Martiros kəndinin şimal-şərqində yerli bulaqların toplandığı iki balaca göl var. Martiros çayı mənbəyini bu göllərdən götürür.

***Mineral suları***

Bilək kəndinin yaxınlığında, Arpa çayın suvardığı gözəl vadidə, Sarıyer deyilən yerdə bir neçə bulaq birləşib Qırxbulaq irmağını **(xırda çayını-N.Ə)** əmələ gətirir. Arpa çayına tökülən yerdə isti və turş suyu olan bulaqlar var, temperaturu 25 dərəcədən yüksdir. Burada Şah Abbas zamanına aid edilən daş vanna var. Hazırda vannanın tavanı tökülüb. Baxmayaraq ki, bulaqların suyu indiyə qədər də tədqiq olunmayıb, yerli camaatın dəfələrlə apardığı təcrübələr sübut edir ki, bu su bir çox xəstəlikləri müalicə edir. Cəhridən və Gümüşxanadan keçərək Naxçıvan şəhərindən Qarabağa gedən karvan yolu ilə buraya gəlmək əlverişlidir.

Əyər kəndinin 4 verstliyində dəmir qarışığı olan mineral turş su var.

***Dağları***

Dərələyəz dağları Qarabağ dağlarına qovuşaraq tamlıq təşkil edir.Bu dağların baş silsiləsi şimal-şərqdən cənub-qərbə doğru uzanaraq Yaycı kəndindən aşağıda Arpa çayın sahillərində bitir. Başqa bir dağ silsiləsi Qarabağ sərhəddi ilə cənub-şərqdə başlayıb Naxçıvan mahalına daxil olur. Üçüncü dağ silsiləsi şimaldan cənuba doğru Məvazixatun mahalına qədər uzanır. Beləliklə, dağlar bütün Dərələyəz mahalını əhatə edir, axar sulara istiqamət verir

və dərələr əmələ gətirir. Mahalın kəndlərinin çoxu həmin dərələrdə yerləşir.

***İqlimi***

Mahalı bütün istiqamətlərdə kəsən dağlar onun iqlimini yayda da sərin edir. Yalnız Qoytul çayın Arpa çayına töküldüyü yerin qərbində və Keşişkənd, Əyər və Həmzə Əli Dizə kəndlərinin ətrafında iqlim istidir. Lakin bütün dağlar və sıx çəmənlər buranı sərinləşdirməklə heyvandarlıq üçün çox əlverişli edir. Bəzi zirvələrdə bütün yay qar qalır, bəzən hətta təzə qar da yağır. Bir dəfə iyul ayının sonlarında köçərilərin yanına getdiyim vaxt xeyli qalınlıqda qar yağdı. Buranın qışı vilayətin başqa mahallarından daha mülayim keçir, çünki dağlar mahalı bütün qış boyu şimaldan əsən sərt küləklərdən qoruyur.

***Məşğuliyyət***

a)Taxılçılıq: buğda, arpa, darı, paxla, noxud, mərci, tütün, kətan, çətənə, gənəgərçək, bostan bitkiləri, tərəvəz becərilir. Mahalın qərb hissəsində böyük çəltik və pambıq sahələri var.

b) Bağçılıq: Dərələyəz mahalında 122 günlük əkin sahəsi olan 144 üzüm bağı var, 45 xalvar üzüm verir **(18 ton-N.Ə).** 17 günlük əkin sahəsi olan 22 meyvə bağı 19 xalvar müxtəlif meyvə və 68 min qoz verir. Bundan başqa bir çox yerlərdə cır meyvə bağları var.

***Heyvanat aləmi***

Heyvandarlıq

Cədvəl 1.

| | türklərdə | Yerli ermənilərdə | Gəlmə ermənilərdə | Cəmi |
|---|---|---|---|---|
| Kəl | 50 | 32 | 307 | 389 |

| | | | | |
|---|---|---|---|---|
| Öküz | 3.721 | 146 | 1.343 | 5.210 |
| Inək | 3.437 | 109 | 961 | 4.507 |
| Buzov | 1.699 | 76 | 601 | 2.376 |
| Qoyun | 17.438 | 335 | 2.187 | 19.960 |
| Keçi | 7.496 | 403 | 2.010 | 9.909 |
| At | 997 | 72 | 400 | 1.469 |
| Eşşək | 288 | 10 | 114 | 412 |
| Qatır | 2 | 0 | 0 | 2 |
| Cəmi | 35.128 | 1.183 | 7.923 | 44.234 |

**b).Vəhşi heyvanlar**

Meşəli dərələrdə qarışqayeyən ayılar növündən olan xeyli ayı yaşayır və yerli əhaliyə heç bir ziyan vermir. Mahalın şimal-qərb hissəsində xeyli vəhşi donuz (qaban) yaşayır və bəzi hallarda əkin sahələrinə böyük ziyan verirlər.

**c). Arıçılıq.**

Mahalda 153 arı ailəsi var.

***Faydalı qazıntılar***

Gümüşxana kəndinin yaxınlığında qurğuşun filizi var, əvvəllər emal olunub. Yerli adamların dediyinə görə, burada gümüş filizi də var.

Aynazur kəndinin yaxınlığında tərkibində silisium olan daşlar var və əhali ondan tüfəng üçün çaxmaqdaşı düzəldir.

***Müəssisələri***

Cəmi 182 dəyirman var, 52-i işlək, 130-u yararsız vəziyyətdədir.

bəzirxana var, 2-i işlək, 2-i yararsız vəziyyətdədir.

2 boyaqxana, 2 uçuq karvansara var.

**Cədvəl 2. Xüsusi sənətlər**

| | Türklərdə | Ermənilərdə | Cəmi |
|---|---|---|---|
| Tacir | 0 | 1 | 1 |
| Çərçi | 0 | 3 | 3 |
| Səyyar satıcı | 0 | 1 | 1 |
| Boyaqçı | 0 | 5 | 5 |
| Toxucu | 3 | 303 | 306 |
| Dərzi | 0 | 3 | 3 |
| Keçəçi | 0 | 20 | 20 |
| Bərbər | 3 | 0 | 3 |
| Çilingər | 0 | 3 | 3 |
| Dülgər | 0 | 23 | 23 |
| Dəmirçi | 0 | 10 | 10 |
| Dəyirmançı | 0 | 4 | 4 |
| Serebryak | 0 | 11 | 11 |
| Pinəçi | 0 | 1 | 1 |
| Ayaqqabı tikən | 0 | 4 | 4 |
| xarrat | 1 | 0 | 1 |
| Tənəkəçi | 0 | 1 | 1 |
| Nalbənd | 0 | 1 | 1 |
| musiqiçi | 0 | 4 | 4 |

***Dövlət (xəzinə) əmlakı***

İran hökumətinin son dövrlərində Dərələyəz mahalı bütün kəndləri ilə birlikdə qaçaq gürcü şahzadəsi Aleksandra **(İsgəndərə-N.Ə.)** tiul kimi verilmişdi. O isə mahalın bütün gəlirindən istifadə edərək yanındakı sultanlara göstərdikləri xidmətin əvəzində bəzi kəndlərin gəlirindən cüzi pay vermişdir. Burada rus idarəçiliyinin qurulduğu birinci ildə bir çox kəndlər sultanların əlində qalmış və onlar həmin gəlirlərdən əvvəlki kimi istifadə etmişlər.Nəticədə Dərələyəz mahalının digər sakinləri və polkovnik Ehsan xanın yaxın adamları görəndə ki onlar zəbt etdikləri dövlət torpaqlarından arxayınlıqla istifadə edirlər, hərəkətə keçib həmin yolla onlar da ərazilər zəbt etmişlər. Bundan 100 və daha çox il əvvəl Dərələyəzdə yaşamış adamların adına olan möhürləri basaraq saxta sənədlər düzəltmişlər. Asan yolla mülk əldə etmək fürsətini heç vaxt əldən qaçırmayan ermənilər bu yolla həmin kəndləri ələ keçirənlərdən həmin kəndləri cüzi qiymətlə satın almışlar. Beləliklə, Dərələyəz mahalında mülkədarlar əmələ gəlmişdir. Naxçıvan naibi polkovnik Ehsan xan bunu görə-görə nəinki mane olmamış, hətta belə halların bir qismindən öz xeyri üçün yararlanmış, bəzi hallarda isə Naxçıvan qəzasının başqa yerlərində ən məhsuldar suvarılan torpaqları ələ keçirtməsini açıb-ağartmasınlar deyə onlara göz yummuşdur.

***Vergilər***

İran hökumətinin vaxtında pul şəklində Dərələyəz mahalından 2 min tümən vergi alınırdı. Axura, Yaycı, Həmzə Əli Dizə, Aşağı və Yuxarı Danzik, Xaçik, Arpa və Aynazur kəndləri 42,25 xalvar(**17 ton-N.Ə.)** taxıl verirdi. Həmin vergi indiki əkinlərlə müqayisədə cüzi olub. Lakin çox güman ki, Dərələyəz mahalı şahzadə Aleksandra əlavə pul da verib.

Arpa çayın sahilindəki indiki çəltik və pambıq tarlaları (Qoytul kəndindən başlayaraq ondan aşağıdakı Həmzə Əli Dizəsinə qədər ərazi) əvvəlkindən 3 dəfə artıq vergi verə bilər.

***Yollar***

Dərələyəz mahalındakı əsas karvan yolu olan Naxçıvandan Qarabağa gedən yol Məvazixatun mahalından keçərək üzüyuxarı istiqamətdə dağılmış Quşibilək kəndinə qədər gedir. Digər yol Məvazixatun mahalından sola dönərək Keşişkəndə, sonra Səlim karvansarayından keçərək Göyçə mahalına gedir, oradan Dilican dərəsinə dönür. Bundan başqa, müxtəlif kənd yolları bu mahalı müxtəlif istiqamətlərdə kəsir. Lakin qış vaxtlarında bu yolların əksəriyyəti keçilməz olur.

***Qədim abidələr***

Mahal qədim abidələrin xarabalıqları ilə doludur, amma salamat qalanlar Naxçıvan qəzasının başqa yerlərinə görə daha çoxdur. Salamat qalan binalardan diqqət çəkənlər çöl daşından örtüyü də olan Səlimin karvansarayı, Ələyəz kəndi yaxınlığındakı 2 monastr, Martiros yaxınlığında bütöv qayada oyulmuş kilsə, Ərdəpin və Ələyəz kəndləri arasında bir neçə əsr bundan əvvəl yüksək təpə üzərində tikilmiş və kifayət qədər salamat olan qaladır.

***Faydalı təkliflər***

1.Dərələyəz mahalının qərb hissəsi İrandan köçürülən ermənilərlə, şərq hissəsi isə Qarabağdan gələn müsəlmanlarla məskunlaşdırılıb. Bu iki xalq heç cür yanaşı yaşaya bilmir, çünki tez-tez heyvan və at oğurluğu olur. Ona görə də mahalın orta hissəsi və bol sulu gözəl Gülüdüz düzənliyi boş qalıb. Hazırda ermənilər və müsəlmanların içərisində xüsusi seçilmiş başçılar var, lakin birbaşa rəhbərlik yoxdur. Çünki Dərələyəzin hazırkı Mirbölüyü, polkovnik Eh-

san xanın qardaşı Mehdi ağa yalnız Mirbölük adını daşıyır. Ona görə də çox yaxşı olardı ki, Dərələyəz mahalında rus məmurlardan ayrıca pristav olsun. Çünki Naxçıvan polis idarəsinin uzaqlığı və nəqliyyat çətinliyi (xüsusən qış vaxtı) burada asayişin qorunmasına ciddi nəzarət etməyə kifayət etmir. Əgər ehtimal edilən məmur yaşayış yeri kimi isti mineral suyun olduğu massivi seçsə, nəinki ətrafdakı xaraba kəndlər, eləcə də geniş Gülüdüz düzənliyi əhali ilə dolar. Həm də hər il mineral suya gələnlər olar. Hazırda isə bu su tamam istifadəsiz qalmışdır, çünki ətrafdakı 40 verstlik ərazidə demək olar ki, heç kim yaşamır.

2.Naxçıvan qəzasının cənub hissəsi meşə örtüyündən tamamilə məhrumdur və onun çatışmaması Naxçıvan şəhərində ciddi şəkildə hiss olunur. Halbuki, Dərələyəz mahalındakı bol meşələr istifadəsiz qalmışdır. Ona görə də, daşqınlar vaxtı Arpa çayın suyunun ən çoxaldığı zaman meşə materiallarının bu çayla axıdılmasını sınamaq çox faydalı olar.Meşənin bol olduğu Hors kəndində onu tədarük edib Qoytul kəndindən başlayaraq Arpa çayı ilə üzüaşağı axıdıb Araz çayı ilə Abbasabad qalasına aparmaq olar.

***Quberniya katibi Vladimir Zolotnitski. 1831-ci il.***

# Naxçıvan qəzası Dərələyəz mahalının Kameral təsviri. 1842-ci il.

## I Hissə

## Xəzinə torpaqlarında yaşayan dövlət kəndliləri

## Naxçıvan qəzasının Dərələyəz nahiyəsi

**№1(№13).YELPİN KƏNDİ. (Mötərizədəki rəqəm həmin yaşayış məntəqəsinin 1831-ci ildə V.Zolotnitski tərəfindən tərtib edilmiş kameral siyahıdakı nömrəsini göstərir-N.Ə.).**

Salmasdan köçürülən 23 erməni ailəsinin siyahısı.

Oturaq həyat tərzi sürürlər. 63 Naxçıvan xalvarı əkin var, 100 Naxçıvan xalvarı buğda, 80 Naxçıvan xalvarı arpa biçirlər.

Qəza mərkəzinə 88, nahiyə mərkəzinə 21 verstdir.

Ərazisi 20 verstdir,onun 18 valvarı suvarılan, 45 xalvarı dəmyə əkinəyararlı torpaqdır. Əhalisi əkinçilik və toxuculuqla məşğuldur, dolanışıqları yaxşıdır. Torpağı gilli qaratorpaqdır. Hors meşəsindən istifadə edirlər, Yelpin çayın və 2 bulağın suyundan istifadə edirlər, ildə 10 min bağ ot biçirlər.

Buğda, arpa, darı, kətan, noxud, mərci, tərəvəz əkirlər.

Kənddə 18 toxucu, 1 xarrat və 4 keçəçi, 23 at, 123 iribuynuzlu, 72 xırdabuynuzlu heyvan var.

## №2 (№19). QOZLUCA KƏNDİ

**Calanlı, miqir-qanlı tayfası**

1.Həsənxan Məmmədalı oğlu 70 yaşında; oğlanları Hüseynqulu 35 y; ( onun oğlu İmamverdi 3 y); Məhərrəm 22 y.

**Yaddan çıxan tatarlar**

2.Abdulla Kəlbi oğlu 40 y; oğlu Mirzə 10 y; qardaşı Əsəd 25 y;

3.Kəndxuda Dini Məhəmməd oğlu 39 y; oğlu Fərəc 5 y; **Bu ailə 1857-ci ildə Ağkilsə kəndinə köçmüş və yenidən geri qayıtmışdır.**

4. Osman Molla Həsən oğlu 50 y; oğlanları: İso 22 y; Abdu 15 y.

5. Qəmbər Nağı oğlu 25y; oğlu Niftalı 5 y;

**Bu ailə də 1857-ci ildə Ağkilsə kəndinə köçmüş və yenidən qayıtmışdır.**

6. Gülməmməd Məlikməmməd oğlu 33 y; oğlu Fərzalı 15 y;

7. Məmmədyar Mirzə oğlu 50 y; oğlu Mirzə 15 y;

8.Qurbanəli Selim oğlu 30 y; qardaşı Sali 20 y;

9. Darbaz Xudo oğlu 25 y; oğlu Nabo 3 y;

10. Adıgözəl Tano oğlu 30 y(kordur);

İslam dininin şiə məzhəbinə mənsub olmaqla oturaq həyat tərzi sürürlər. Kəndin 5 Naxçıvan xalvarı əkini var, ildə 6 Naxçıvan xalvarı buğda, 4 Naxçıvan xalvarı arpa biçirlər. Kənd xəzinəyə mənsubdur. Qəza mərkəzinə **(Naxçıvan şəhəri)** qədər olan məsafə 80, nahiyə mərkəzinə **(Keşişkənd kəndi**) 18 verstdir.

Əkinçiliklə məşğul olurlar, dərələrdə örüş yerləri çoxdur. Dolanışıq ortababdır. Torpaqları daşlı və gillidir, meşəsi yoxdur. Ərazisi 14 verstdir, onun 2 xalvarı əkinə yararlı

suvarılan torpaqdır, dəmyə əkin yeri çoxdur. Aşıq bulağının suyundan istifadə edirlər.

Buğda, arpa və darı əkirlər. Kənddə 1 işlək və bir yararsız dəyirman var.

Kənddə 10 at, 55 iribuynuzlu, 78 xırda buynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Dini Məlikməmməd oğlu; Əsəd Kəlbi oğlu; Qurbanəli Məhəmməd oğlu.

## №3 (№21). AĞXAÇ KƏNDİ.
### Tatarlar (kəngərli):

1.Kəndxuda Səfəralı Diləkhasil oğlu 42 y; qardaşı İmamverdi 32 y; onun oğlanları Məhəmməd 3 y; Orucəli 1 y;

2.Məmmədalı Kərbəlayi Maqsud oğlu 76 y; oğlanları Alı 42 y(onun oğlu Allahverən 15 y); Hüseyn 26 y; Sadır 24 y; Abuş 22 y; onun oğlu Kubuş 1 y.

3.Allahverdi Allahverdi oğlu 47 y; oğlu Hüseynqulu 13 y;

4.Orucməmməd Kərbəlayi Kərim oğlu 42 y; oğlanları Kərim 15 y; İbrahim 9 y; Saleh 32 y; onun oğlu Hüseynqulu 6 y;

**Dərələyəzin Oğbin kəndindən 8 il əvvəl gələnlər:**

5.Muradəli İsmayılxan oğlu 50 y; oğlu Qəmbəralı 30 y;

6.Ocaqqulu Ağakişi oğlu 40 y; oğlu Məmmədalı 25 y;

**Yaddan çıxan:**

7.İsmayıl Allahverdi oğlu 25 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla oturaq həyat tərzi sürürlər. 5 Naxçıvan xalvarı əkin yeri var, 4 Naxçıvan xalvarı buğda, 7 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 56, nahiyə mərkəzinə 28 verstdir.

Əkinçiliklə məşğul olurlar, güzəran ortababdır.

Torpağı daşlı qaratorpaqdır. Öz meşəsi yoxdur, Cul meşəsindən istifadə edirlər.

11 verst torpağı var, onun 2,5 xalvarı əkinə yararlıdır və hamısı dəmyədir.

Məvazixatun çayından və 1 bulağın suyundan istifadə edirlər.

Dağlarda kifayət qədər biçənəklər var.

Buğda, arpa və noxud əkirlər. Kənddə baxımsız qalmış 3 bəzirxana var.

Sakinlərə məxsus 4 at, 30 iribuynuzlu, 100 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Səfərali Diləkhasil oğlu (möhür); Məmmədalı Kərbəlayi Maqsud oğlu.

## №4(№22). QABAQLI KƏNDİ.
## Qaraçorluların kulakanlı tayfası.

1.Kəndxuda Alı Hüseyn oğlu 60 y; oğlu Dəryaqulu 10 y;

2.Tarverdi 25 y;

3.İmamqulu Həsən oğlu 28 y; qardaşı Abbbasqulu 10 y;

4.Mirzalı Hüseyn oğlu 45 y; oğlanları Fətəli 10 y; Culamqulam 7 y; Qafar 4 y;

5.Baba Bayram oğlu 40 y; **(siyahıyaalmadan sonra ölüb).**

6.Şahverdi Alı oğlu 35 y; oğlanları Xudaverdi 10 y; Allahverdi 8 y;

7.Məmmədalı Hüseyn oğlu 50 y; oğlanları Hüseyn 20 y; Nəbi 8 y; Fərzalı 5 y;

8.Oruc Hüseyn oğlu 60 y; oğlanları Kərim 20 y; Rəhim 10 y;

9.İbrahim Oruc oğlu 30 y;

**2 il qabaq Qarabağ nahiyəsindən gələn**

10.Məmmədqulu Məhəmməd oğlu 32 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat tərzi sürürlər.

4 Naxçıvan xalvarı əkin var, 7 Naxçıvan xalvarı buğda, 3 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 56, nahiyə mərkəzinə 15 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. Güzəranları yaxşıdır.

Dərələrdə yerləşən torpaqları daşlı və gillidir. Meşəsi yoxdur, 14 verst məsafədəyerləşən Cul meşəsindən istifadə edirlər. Dağlıq yerdir, 10 verst torpağı var, 4 xalvarı suvarılan, qalanı əkinəyararlı dəmyə torpaqlardır. Bulaq suyundan istifadə edirlər. Dağlarda ortabab biçənəkləri var. Buğda, arpa, darı və yonca əkirlər.

Kənddə 12 at, 77 iribuynuzlu, 130 xırdabuynuzlu mal-qara var.

**İmzalar:** Kulakanlı tayfasının icma başçısı Əlmərdan Məmmədalı oğlu (möhür); Əli Hüseyn oğlu; Oruc Hüseyn oğlu;

**№5 (№23). ZEYTƏ KƏNDЭ**

**Qaraзorlularэn юadmanlэ tayfasэ.**

1.Hüseyn İbrahim oğlu 30 y; oğlu Əsgər 4 y;

2.Səfərəlı Molla Məmmədyar oğlu 50 y;

3.Novruz İmamverdi oğlu 50 y; oğlanları Bayram 25 y; Cəfərqulu 17 y; Əliqulu 10 y; İsmayıl 7 y;

4.Məşədi Əliqulu İmamverdi oğlu 60 y; oğlanları Həzrətqulu 25 y; Zeynalabdin 10 y; Abbasqulu 7 y;

5.Ocaqqulu İmamverdi oğlu 40 y; oğlanları Tarıqulu 8 y; Xudamədət 6; Əlimədət 3 y;

**Yaddan çıxanlar:**

6.Məmmədhüseyn İbrahim oğlu 32 y.

**Xaricə qaçdığına görə Palata jurnalının 5 sentyabr 1845-ci il tarixli vəziyyətinə görə siyahıdan çıxarılmışdır.**

7.Abbas İmamverdi oğlu 50 y; oğlanları Nəcəfqulu 17 y; Dəryaqulu 14 y; Həsən 8 y; Hüseynqulu 5 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat tərzi sürürlər. 25 Naxçıvan xalvarı əkin var, 5 Naxçıvan xalvarı buğda, 6 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 55, nahiyə mərkəzinə 13 verstdir.

Əkinçiliklə məşğul olurlar, başqa torpaqları yoxdur. Dolanışıqları ortababdır. Dərələrdə yerləşən torpaqları daşlı və gillidir.

Öz meşəsi yoxdur, 35 verst məsafədə yerləşən Cul meşəsindən istifadə edirlər.

21 verst torpağı var, hamısı əkinəyararlıdır, onun 0,5 xalvarı suvarılan, qalanı dəmyə torpaqlardır. İsti bulaq, Kor bulaq, Daloy bulaq və Kəhriz bulağın suyundan istifadə edirlər.

Biçənək və örüşləri kifayət qədərdir.

Buğda, arpa və darı əkirlər.

Kənddə 1 baxımsız dəyirman və 1 baxımsız bəzirxana var.

Kənddə 3 at, 42 iribuynuzlu, 46 xırdabuynuzlu var.

**İmzalar:** İcma başçısı Baxşəli bəy Cavad oğlu; Novruz İmamverdi oğlu;

## №6(№24). ZİQRİK KƏNDİ. (BAŞQA ADI QURDQULAQDIR)

**Şadmanlı tayfası.**

1.Alməmməd Gülməmməd oğlu 35 y; oğlu Gülməmməd 15;

2.Allahverdi Haxverdi oğlu 35 y; oğlanları: Baxşəli 12 y; Haxverdi 8 y; Şahəli 5 y; qardaşı İbrahim 25 y;

3.Rəcəb Bünyad oğlu 30 y; qardaşları: Əşrəf 25 y; Məmmədşəfi 20 y; Adıgözəl 15 y;

4.Mehralı bəy Məhəmməd oğlu 25 y; oğlu Bəyməhəmməd 3 y;

5.Almәmməd Alı oğlu 35 y; oğlu Məmmədalı 5 y; qardaşı Ələkbər 25 y;

6.Hüseynalı Məmmədalı oğlu 25 y; oğlu Həsənalı 3 y;

7.Mövlamverdi Qasım oğlu 40 y; oğlanları:Hümbətalı 20 y; İsmayıl 16 y; Dünyamalı 7 y; Adıgözəl 2 y;

8.Hüseyn Qasım oğlu 20 y;

**5 il əvvəl Zeytə kəndindən gələnlər:**

1.Cəfər Alı oğlu 25 y; oğlu Xudayar 4 y;

2.Məhəmməd Allahverdi oğlu 50 y; oğlanları: Baba 20 y; Mehralı 15 y;

3.Ağayar Məhəmməd oğlu 33 y; qardaşı Ağakişi 15 y;

4.Xudaqulu Kazım oğlu 45 y; oğlanları: Məmmədalı 20 y; Xanməmməd 15 y;

**7 il əvvəl Əyər kəndindən gələnlər:**

5.Kəndxuda Mirzə Kazım oğlu 50 y; oğlanları:Məmmədxan 30; onun oğlu Cəfər 5 y; Mamirza 25 y; Kazım 20 y; Qəhrəman 15 y;

6.İmamverdi Kazım oğlu 40 y; oğlanları: Rüstəm 10 y; Bəyalı 5 y; Xanəli 1 y;

**7 il əvvəl Hors kəndindən gələn**

7.Həsən Allahverdi oğlu 55 y; oğlanları:Xudamədət 15 y; Hüseynalı 8 y;

**5 il əvvəl Herher kəndindən gələn**

8.Məmməd Şahhüseyn oğlu 35 y; oğlanları: Sadıq 10 y; Hüseyn 5; Abdul 3 y;

**3 il əvvəl Ağxaç kəndindən gələn**

9.Hüseyn Tahirverdi oğlu 50 y; oğlanları: Novruzəli 15 y; Mirzalı 8 y; Abbas 5 y;

Bu ailə 1859-cu ildən Ağxaç kəndinə aid edilib.

**Yaddan çıxanlar:**

1.Nəbi Məmmədalı oğlu 25 y;

2.Hümbət Şahhüseyn oğlu 25 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat tərzi sürürlər. 4 Naxçıvan xalvarı əkin yeri var. 5 Naxçıvan xalvarı buğda, 4 Naxçıvan xalvarı arpa biçirlər.

Naxçıvan şəhərinə 65, Keşişkənd kəndinə 20 verstdir.

Heç bir məşğuliyyətləri yoxdur. Əkin torpaqlarından başqa ayrı torpaqları yoxdur. Ortabab yaşayırlar. Torpaqları gillidir, böyük daşlar var. Öz meşəsi yoxdur, 40 verstlik məsafədə yerləşən Herher meşəsindən istifadə edirlər.

Biçənək və örüşləri bol otludur.

2 baxımsız dəyirman və 1 baxımsız bəzirxana var.

Bu kənd Qurdqulaq çayının sahilində yerləşir, burada 5 bulaq da var. Ətrafında 20 verst ərazisi var, onun 3 xalvarı suvarılan əkinəyararlı torpaqlardır. Qalanı dəmyədir. Buğda və arpa əkirlər.

Kənddə 8 at, 114 iribuynuzlu, 276 xırdabuynuzlu var.

**İmzalar:** Kəndxuda Mirzə Kazım oğlu; Alməmməd Alı oğlu; İbrahim Haxverdi oğlu;

## №7 (№26).YENGİCƏ KƏNDİ

Salmasdan və Makudan köçürülən 14 erməni ailəsi.

Oturaq həyat keçirirlər, 25 Naxçıvan xalvarı əkin yeri var, 120 Naxçıvan xalvarı buğda, 130 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 70, nahiyə mərkəzinə 15 verstdir.

Əhali əkinçiliklə məşğuldur, kasıb yaşayırlar. Torpağı gilli qara torpaqdır. Öz meşəsi yoxdur və Herher meşəsindən istifadə edirlər.

20 verst torpağı var, onun yarısı əkinəyararlı dəmyə torpaqlardır, 1 xalvarı suvarılandır, bulaq suyundan istifadə edirlər. İldə 1000 bağ ot bişirlər.

Buğda, arpa, noxud və kartof əkirlər.

Kənddə 6 toxucu var.

**(Kameral siyahının 30-41-cı səhifələri itib. Məlikşah və başqa bir kənd buraya aiddir. 42-ci səhifədən siyahı davam edir və 9 №-li kənddə 49 köçürülmə erməni ailəsinin yaşadığı məlum olur. Görünür, bu Məlikşah kəndidir. Mötərizə içərisindəki sıra nömrələri öz ardıcıllığını saxladığına görə (№26, 27, 28), 8 №-li kənd 27-yə, 9 №-li kənd də 28-ə uyğun gələcəkdir.V.Zolotnitskinin siyahısında həmin rəqəmlərlə sıralanmış kəndlərə baxaq. Burada 27 №-li kənd Əyər, №28 –li kənd isə Məlikşahdır).**

## №9 (№28). MƏLİKŞAH KƏNDİ

Burada İrandan köçürülmüş 49 erməni ailəsi yaşayır.

Qəza mərkəzinə 70, nahiyə mərkəzinə 7 verstdir.

4 üzüm bağı var, şərab düzəltmirlər.

Əhali əkinçilik və toxuculuqla məşğuldur. Kənddə 5 dəyirman, 6 arıxanada 130 arı ailəsi var. Dolanışıqları yax-

şıdır. Torpağı daşlı və gilli olsa da, əkinçiliyə yararlıdır. Öz meşəsi yoxdur, 20 verst məsafədə yerləşən Herher meşəsindən istifadə edirlər.

26 verst torpağı var, onun 50 xalvarı suvarılan, 6 xalvarı dəmyə əkinəyararlı torpaqlardır. Suvarma üçün bulaqlardan arxlar çəkilib.

3 xalvar biçənəyi var, ildə 3 min bağ ot biçirlər.

Buğda, arpa, kətan, çəltik, kartof, mərcimək, soğan, kələm və başqa tərəvəz bitkiləri əkirlər.

Kənddə 7 toxucu, 5 gümüş ustası, 2 boyaqçı, 2 xarrat və 3 keçəçi var.

**Həsənanlı tayfası.**

**Buraya 3 il qabaq Qarabağ nahiyəsinin Mirik kəndindən 3 müsəlman ailəsi gəlib:**

1.Nəsirməmməd Vəli oğlu 30 y; oğlu Babo 9 y; qardaşları: Ələkbər 15 y; Şahverdi 12 y;

2.Ağaməmməd Şahverdi oğlu 40 y; oğlanları: Caman 15 y; Məjlum 6 y;

3.İsgəndər Şahverdi oğlu 32 y; oğlanları: Abbas 10 y; Səfəralı 5 y;

Kənddə 37 at, 281 iribuynuzlu, 274 xırdabuynuzlu heyvan var).

## №10 (№29). KEŞİŞKƏNDİ NAHİYƏ MƏRKƏZİDİR

Salmasdan köçürülmüş 50 erməni ailəsi.

Oturaq həyat sürürlər. 50 naxçıvan xalvarı əkin yeri var, 310 Naxçıvan xalvarı buğda, 320 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 83 verstdir.

Əkinçiliklə məşğul olurlar, 2 dəyirman, 2 arıxanada 20 arı var, dolanışıq ortababdır.

Bəzi yerlərdə daşlı olsa da, torpağı əkinçiliyə yararlı qara torpaqdır. Öz meşəsi olmadığına görə Herher meşəsindən istifadə edirlər.

16 verst torpağı var, onun yarısı əkinə yararlıdır, 7 verst suvarılan, qalanı dəmyədir. Arpaçayın və Qoytulçayın, bundan başqa 3 bulağın suyundan istifadə edirlər.

Biçənəkləri az olsa da, örüş yeri çoxdur.

Buğda, arpa, darı, paxlalı bitkilər, noxud. Mərcimək, çətənə və tərəvəz əkirlər.

Kənddə 10 toxucu, 10 keçəçi, 1 çilingər, 2 dəmirçi, 1 xarrat var.

## №11(№30) ORTAKƏND

Salmasdan gələn 27 erməni ailəsinin siyahısı.

Oturaq həyat tərzi sürürlər. 40 Naxçıvan xalvarı əkin var, 175 Naxçıvan xalvarı buğda, 225 Naxçıvan xalvarı arpa əkirlər. 33 Naxçıvan batmanı tütün əldə edilib. Kənddə 2 üzüm bağı var, amma şərab düzəltmirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 88, nahiyə mərkəzinə 3 verstdir.

Əkinçiliklə məşğul olurlar. Kənddə 2 dəyirman, 1 arıxanada 19 arı ailəsi var.

Torpağı qaratopaq olmaqla əkinçiliyə yararlıdır, öz meşəsi olmadığına görə, Herher meşəsindən istifadə edirlər.

Torpağı 7 verstdir, onun 40 xalvarı əkinə yararlı suvarılan, 4 xalvarı dəmyədir. Bulaq suyundan və Başkənddən axan balaca çayın suyundan istifadə edirlər.

Biçənəkləri azdır, cəmi 650 bağ ot biçirlər.

Buğda, arpa, darı, kartov, kətan, çətənə, paxlalı bitkilər, noxud, mərcimək, soğan, kələm və tərəvəz əkirlər.

Kənddə 12 toxucu, 1 xarrat, 1 bənna var.

## №12(№31). BAŞKƏND
## 14 erməni ailəsinin siyahısı

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 68, nahiyə mərkəzinə 5 verstdir.

Əkinçiliklə məşğul olurlar. Kənddə 2 dəyirman, 3 arıxanada 70 arı ailəsi var. Dolanışıqları yaxşıdır. Tortağı daşlı-gilli olsa da, əkinçiliyə yararlıdır. Öz meşəsi olmadığına görə, Herher meşəsindən ist ifadə edirlər. 14 verst torpağı var, onun 30 xalvarı suvarılan, 5 xalvarı isə dəmyə əkinə yararlı torpaqdır. Dağdakı bulaqdan çəkilmiş sudan istifadə edirlər.

Buradakı biçənəklər azdır və cəmi 1080 bağ ot biçirlər, ancaq sakinlər bundan başqa yonca da əkir və 2000 bağ yonca biçirlər.

Kənddə 9 toxucu, 2 gümüş ustası, 1 pinəçi var.

## №13(№32). HORS KƏNDİ

**Heşin kəndindən 4 il qabaq gələn ailələr**

**Qaraçorluların sultanlı tayfası.**

1.Məhəmməd Hüseynalı oğlu 63 y; oğlu Məmmədyar 32 y;

2.Nəbi Zaman oğlu 34 y; oğlu Bayram 2 y; qardaşı 9 y;

3.Kərbəlayi Vəliməmməd Məmmədalı oğlu 83 y; nəvəsi Novruzəli 6 y;

4.İman Hüseyn oğlu 72 y; oğlu Hüseyn 32 y;

5.Məmmədhüseyn Məmməd oğlu 50 y;

Oğlanları: Bağır 4 y; Məmmədrza 8 y;

6.Hətəm Alıbxan oğlu 62 y; oğlu Məhərrəm 32 y;

7.Həsən Araxlı oğlu 37 y; qardaşı oğlanları: Süleyman 26 y; Abbasəli 22 y;

**2 il qabaq Qarabağ qəzasından gələnlər:**

9.İmamverdi Nəbi oğlu 51 y; oğlanları: Alı 15 y; Hüseyn 4 y;

10.Məmmədsadıq Hüseyn oğlu 27 y;

11.Tarverdi Mirzəqulu oğlu 29 y; oğlanları: Əhməd 5 y; Alı 3 y;

12.Kəndxuda Allahverdi Güləli oğlu 50 y; oğlanları: Hüseyn 8 y; Abbas 5 y;

13. Hüseyn İman oğlu 52 y; oğlu Qurbanəli 2 y;

14.Ağaməmməd Əhməd oğlu 32 y;

15.Xudaverdi Vəli oğlu 30 y; oğlu İsgəndər 2 y;

16.Kərbəlayi Fətəli Hüseynalı oğlu 50 y; oğlu Həsənalı 15 y;

17.Xudaqulu Usub oğlu 27 y; qardaşı Qurbanəli 12 y;

18.Alı Əlverdi oğlu 60 y; oğlu Xudayar 15 y; yetim Məhərrəm Şahverdi oğlu 12 y;

İslam dininin şiə məzhnəbinə mənsub olmaqla köçəri həyat tərzi sürürlər. 30 Naxçıvan xalvarı əkin var, ildə 200 Naxçıvan xalvarı buğda, 160 Naxçıvan xalvaı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 100, nahiyə mərkəzinə 23 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğuldurlar. 2 arıxanada 30 arı ailəsi var. Dolanışıqları ortababdır. Torpağı daşlıdır.

10 Naxçıvan xalvarı meşəsi var. Torpaqları 28 verstdir, onun təxminən yarısı-30 xalvara yaxını əkinəyararlı suvarılan torpaqdır.

Bol otlu biçənəkləri və örüşləri var.

Buğda, arpa, darı, kətan, çətənə, paxlalı bitkilər və tərəvəz əkirlər.

Kənddə 20 toxucu, 4 keçəçi, 1 xarrat, 1 dəyirman us-

tası, 1 çilingər, h əmçinin 14 at, 105 iribuynuzlu, 89 xırda buynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Allahverdi Gülalı oğlu; Kərbəlayi Bayraməli Hüseynalı oğlu; Məşədi Məmməd Hüseynalı oğlu;

## №14(№33) TƏRƏTÜN KƏNDİ

Xoydan köçürülmüş 15 erməni ailəsinin siyahısı.

Oturaq həyat tərzi sürürlər. 7 Naxçıvan xalvarı əkin yeri var, 25 Naxçıvan xalvarı buğda, 30 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 97, nahiyə mərkəzinə 27 verstdir.

Əhali əkinçilik və toxuculuqla məşğuldur. Dolanışıqları yaxşıdır.1 baxımsız dəyirman, 4 batman kol meşəsi var.

Bu kənd Hors kəndindən yuxarıda, Səlim çayına tökülən Tərətün çayının yaxınlığında y rləşir. Kənddə 14 toxucu, 2 boyaqçı, 1 dərzi var.

## №15 (№34). QIRAQLI KƏNDİ

Xoydan köçürülmüş 24 erməni ailəsinin siyahısı.

Oturaq həyat tərzi sürürlər. 15 Naxçıvan xalvarı əkin var, 120 Naxçıvan xalvarı buğda, 70 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 95, nahiyə mərkəzinə 24 verstdir.

Əhalisi əkinçilik və pambıq parça toxu maqla məşğuldur. 1 dəyirman və 4 arıxanada 29 arı ailəsi var. Dolanışıqları ortababdır.

Şimal zolağındakı qayalıqlarda 1 xalvar kol meşəsi var.

60 verstə yaxın ərazisi var, onun 15 xalvarı əkinə yararlı suvarılan torpaqdır. Dərələr biçənəklərlə zəngindir.

Buğda və arpa əkirlər.

Kənddə 18 toxucu və 2 dərzi var.

## №16(№37). RƏSUL QIŞLAĞI KƏNDİ

**Əliyanlı tayfası**

**Yaddan çıxan**

1.Əli Oruc oğlu 40 y; oğlu Əsgər 1 y; qardaşı Məmi 20 y;

İslam dininin şiə məzhəbinə mənsudurlar. 5 Naxçıvan xalvarı əkin yeri var, heç nə əkmirlər. Torpaqları daşlı olduğuna və sərt şimal iqliminə görə əkinçiliyə yararsızdır.

Xəzinəyə məxsusdur, qəza mərkəzinə 82, nahiyə mərkəzinə 18 verstdir.

Kənddə 1 at, 6 iribuynuzlu, 10 xırdabuynuzlu heyvan var.

**Imza:** Kəndxuda Məmmədalı Abdulla oğlu.

## №17(№38). ŞAHGƏLDİ QIŞLAĞI

**Milli tayfası:**

1.Hüseynalı Şahverdi oğlu 34 y; oğlu Həsənalı 6 y; qardaşı Səfər 27 y;

**4 il qabaq Heşin kəndindən gələn**

2.Əhməd Rəsul oğlu 40 y; oğlu Tarverdi 15 y;

İslam dininin şiə məzhəbinə mənsubdurlar.

2 Naxçıvan xalvarı əkin var, 6 Naxçıvan xalvarı buğda, 7 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 73, nahiyə mərkəzinə 12 verstdir. Əhali heyvandarlıq və xalçaçılıqla məşğuldur. Kənddə 1 dəyirman var, dolanışıq yaxşıdır. Torpağı daşlı-gillidir. Öz meşəsi yoxdur,Hors meşəsindən istifadə edirlər.

5 verst torpağı var, onun 3 xalvarı suvarılan, 2 xalvarı

dəmyə əkinəyararlı torpaqdır. Səlim çayın suyundan istifadə edirlər.

Dərələrdə yaxşı örüşlər var.

Buğda, arpa və darı əkirlər.

**Imzalar:** hacısamlı tayfasının icma başçısı Nəcəfalı Həsən oğlu (möhür); Hüseynalı Şahverdi oğlu;

## №18 (№39). SALLI KƏNDİ

**Bərgüşad tayfası:**

1.Xudaqulu Mahmud oğlu 48 y;

2.Bəyməhəmməd Gülməmməd oğlu 27 y;

3.Haxverdi Abdulla oğlu 62 y; oğlu Talıb 32 y;

4.Şükür Haxverdi oğlu 36 y; oğlu Məhəmməd 7; qardaşı Allahverdi 19 y;

5.Məmmədalı Məmmədalı oğlu 52 y.

6.Mahmud Alı oğlu 45 y; oğlu Qurbanəli 20 y;

7.Köçəli Hüseynalı oğlu 41 y; qardaşı Həzrətqulu 19 y;

8.Bayraməli  Səfalı oğlu 42 y; oğlu Nəcəf 17 y;

9.Molla İsmayıl Alı oğlu 52 y; oğlu Həsənalı 7 y;

**Şadmanlı tayfası:**

**5 il qabaq Qurdqulaq kəndindən gələn**

1.Hüseynqulu Hümbətalı oğlu 30 y; oğlu Məhəmməd 4 y;

**3 il əvvəl İrəvan qəzasının Çağan kəndindən gələn**

2.Alməmməd Mustafa oğlu 20 y;

**2 il qabaq Qarabağ qəzasının Darabas kəndindən gələn**

3.Məmmədhüseyn Rəsul oğlu 30 y;

**3 il əvvəl Ətyeməz kəndindən gələn**

4.Xıdır Hüseyn oğlu 25 y; oğlu Hüseyn 5 y;

**2 il qabaq Naxçıvan qəzasının Xalxal kəndindən gələn**

5.Kazım Hüseynalı oğlu 22 y;

**3 il əvvəl Keçili kəndindən gələn**

5.Kəndxuda Nəbi Kərbəlayi Fətəli oğlu 40 y; oğlu Abbasqulu 4 y;

**Yaddan çıxanlar:**

1.Mahmud Xudayar oğlu 26 y;

2.Mustafa Məhəmməd oğlu 25 y;

İslam dininin şiə məzhəbinə mənsubdurlar. 14 Naxçıvan xalvarı əkin var, 18 Naxçıvan xalvarı buğda, 23 Naxçıvan xalvarı arpa əkirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 85, nahiyə mərkəzinə 14 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. Dolanışıqları yaxşıdır.

Torpağı daşlı-gillidir. Öz meşəsi olmadığına görə, 5 verst məsafədə yerləşən Hors meşəsindən istifadə edirlər.

14 verst torpağı var, onun 20 xalvarı əkinə yararlıdır. Çay və bulaq suyundan istifadə edirlər.

Biçənəkləri az ilsa da, ətraf dağlar yaxşı örüş yeridir.

Buğda, arpa və darı əkirlər.

Kənddə 16 at, 120 iribuynuzlu, 257 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Xanasanlı tayfasını icma başçısı Əlihüseyn Məşədi Alməmməd oğlu (möhür); kəndxuda Nəbi Kərbəlayi Fətəli oğlu; Bayraməli Səfalı oğlu;

## №19(№41). ARDARAS(ƏRDALAS) KƏNDİ

İslam dininin şiə məzhəbinə mənsub olmaqla oturaq həyat sürürlər.

8 Naxçıvan xalvarı əkin yeri var, 10 Naxçıvan xalvarı buğda, 22 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 100, nahiyə mərkəzinə 21 verstdir.

Əkinçilik, xalçaçılıq və pambıq parça toxumaqla məşğul olurlar.

Dolanışıqları yaxşıdır. Torpağı gillidir, şimal zolağındakı dərələrdə yerləşən torpaqları yararlıdır. Öz meşəsi yoxdur, Hors meşəsindən istifadə edirlər.

7 verst torpağı var, onun 8 xalvarı əkinə yararlı dəmyə torpaqlardır, bulaq suyundan istifadə edirlər.

2 min bağa yaxın ot biçir, az miqdrda buğda və arpa əkirlər.

**Püsyanlı tayfası**

1.Məmməd Beydulla oğlu 72 y; oğlanları: Canməmməd 19 y; Şahməmməd 17 y;

2.Nabo Novruz oğlu 31 y; oğlanları: Hüseynalı 15 y; Cəfərqulu 3 y; qardaşı oğlu Əsədulla 12 y;

3.Ocaqqulu Beydulla oğlu 66; oğlanları: Bayraməli 26 y; Gülmalı 19 y;

4.Cəfər Məmməd oğlu 35 y;

5.Məmmədqulu Beydulla oğlu 60 y; oğlu Qurbanəli 19 y;

6 il əvvəl İrəvan qəzasının Kərəmsalı kəndindən gələn

1.Vəli Babo oğlu 60 y; oğlu Qulu 28 y; onun oğlu Alqulu 4 y;

**2 il əvvəl Muğanlıdan gələn**

2.Şahverdi Hüseynalı oğlu 45 y; oğlu Oruc 10 y;

Kənddə 10 at, 63 iribuynuzlu, 73 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Nəbi Məşədi Novruz oğlu; Ocaqqulu Beydulla oğlu;

## №20(№43). HƏSƏNKƏND

Salmasdan gələn 11 erməni ailəsinin siyahısı.

Oturaq həyat sürürlər. 20 Naxçıvan xalvarı əkin var, 130 Naxçıvan xalvarı buğda, 110 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 91, nahiyə mərkəzinə 10 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğuldurlar. Kasıb yaşayırlar, kənddə 1 dəyirman var.

Arpaçaydan yuxarıdakı dərələrdə yerləşən torpaqları daşlıdır.

Tikintiyə yaramayan 6 batman meşəsi var.

14 verst torpağı var, onun 20 xalvarı suvarılan, 2 xalvar dəmyə əkinəyararlı torpaqdır.

Yaxınlıqdakı dağlardan 5 min bağ ot biçirlər.

Buğda, arpa, darı, bağ və bostan bitkiləri əkilir.

Kənddə 3 toxucu və 2 keçəçi var.

**3 il qabaq Dərələyəzin Qovuşuq kəndindən gələnlər:**

**Qaraçorluların hacısamlı tayfası:**

1.Kəndxuda Nəcəfalı Həsən oğlu 30 y; oğlanları: Abbas 5 y; Məhəmməd 1 y; atası Həsən 90 y;

2.Qurbanəli Həsən oğlu 33 y; oğlu Hüseynqulu 2 y;

3.Novruz İsmayıl oğlu 63; oğlanları: Məhərrəm 36 y; onun oğlu Mehralı 14 y; Dandalı 2 y; Məmmədalı 28 y; onun oğlu Həsənqulu 2 y; Səfəralı 22 y; Gülmalı 22 y; Namazalı 19 y;

4.Abbasəli Novruz oğlu 27 y; oğlu Cəfərqulu 2 y;

5.Həsənalı Alı oğlu 15 (yetim);

**Yaddan çıxanlar:**

1.Məhəmməd İbrahim oğlu 50 y; oğlanları: Əhməd 20 y; Rüstəm 18 y; Hümbət 14 y; Səfəralı 7 y;

2.Hümbətalı Mehbalı oğlu 25 y; qardaşları: Məmmədalı 24 y; Dulumalı 16 y; Hüseynalı 12 y; Bayram 7 y;

3.Səfəralı Bünyad oğlu 6 y(ölüb); Novruzəli 2 y;

4.Tarıqulu Məmmədalı oğlu 30 y;

Kənddə 6 at, 87 iribuynuzlu, 132 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Hacısamlı tayfasının icma başçısı Nəcəfalı Həsən oğlu (möhür); Məmmədalı Novruz oğlu.

## №21 (№44). ƏRDƏPİN KƏNDİ

Xoydan köçürülən 16 erməni ailəsinin siyahısı.

10 Naxçıvan xalvarı əkini var, 50 Naxçıvan xalvarı buğda, 45 Naxçıvan xalvarı arpa biçirlər. Kənd xəzinəyə məxsusdur. Qəza mərkəzinə 72 , nahiyə mərkəzinə 11 verstdir.

Əkinçiliklə məşğul olurlar. 1 dəyirman var. Kasıb yaşayırlar..

Öz meşəsi yoxdur, Hors meşəsindən istifadə edirlər.

Torpaqları 21 verstdir, onun 10 xalvarı əkinəyararlı suvarılan torpaqdır. Gümüşbulaq çayının suyundan istifadə edirlər.

İldə 2 min bağ ot biçirlər. Buğda, arpa, darı, paxlalı bitkilər və tərəvəz əkirlər.

Kənddə 2 xarrat, 1 dəyirman ustası, 6 keçəçi, 3 musiqiçi, 27 toxucu, 2 boyaqçı, 5 at, 32 iribuynuzlu və 29 xırdabuynuzlu heyvan var.

## №22 (№45). ƏLİXAN PƏYƏSİ

1.Aydın Xuda oğlu 62 y; oğlu Həsənalı 25 y;

2.Allahverdi Əziz oğlu 38 y; oğlu Əlixan 6 y;

**Yaddan çıxan**

1.Səfəralı Aydın oğlu 30 y; oğlanları: Hüseynalı 15 y; Qurbanəli 3 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər. 3 Naxçıvan xalvarı əkin var. 7 verst torpağı var, örüş kimi ist ifadə edirlər, əkinçiliklə məşğul olmurlar

Dövlətə məxsusu olan kənddə 1 at, 6 iribuynuzlu, 10 xırdabuynuzlu heyvan var.

**İmza:** Aydın Xudo oğlu.

## №23 (№46). HORVADIX KƏNDİ

**Qaraçorluların hacısamlı tayfası**

1.Xıdır Hüseyn oğlu 50 y; oğlu Allahverən 20 y; onun oğlu Xudamədət 1 y; Haxverdi 3 y;

2.Alməmməd Məmmədxan oğlu 50 y; oğlanları: İsgəndər 20 y; onun oğlu Zeynalabdi 1 y; Ələsgər 15 y;

3.Cəfər Hüseyn oğlu 36 y; oğlu Allahyar 8 y;

**6 il əvvəl Qarabağ qəzasından gələn**

4.Hümbət Məmməd oğlu 35 y; oğlanları: Məmməd 5 y; Məmmədqulu 3 y; qardaşı Ağarza 20 y;

**Yaddan çıxanlar:**

1.Eyvaz İsmayıl oğlu 60 y; oğlanları: Məmməd 15 y; Mehdi 10 y; Məmmədbağır 6 y; Bəxtiyar 4 y;

2.Xudayar Xıdır oğlu 15 y;

3.Ələsgər Alməmməd oğlu 15 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər. 40 Naxçıvan xalvarı əkini var, 5 Naxçıvan xalvarı buğda, 30 Naxçıvan xalvarı arpa biçirlər.

Kənd xəzinəyə məxsusdur, qəza mərkəzinə 103, nahiyə mərkəzinə  28 verstdir.

Əkinçilik və heyvandarlıqla məşğul olurlar. 1 arıxana və 18 arı ailəsi var. Əhalinin dolanışığı yaxşıdır.

Torpağı daşlı-gillidir, amma təpələrin üstündəki düzənlik yerlər qaratorpaq olmaqla əkinə yararlıdır.

Meşəsi yoxdur, Ələyəz kəndinin meşəsindən istifadə edirlər.

18 verst torpağı var, onun 5 xalvarı suvarılan, qalanı dəmyə əkinəyararlı torpaqlardır.

İldə 2.500 bağ ot biçirlər. Buğda və arpa əkirlər. Kənddə 3 baxımsız dəyirman var.

Kənddə 4 at, 33 iribuynuzlu, 49 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Hacısamlı tayfasının icma başçısı Nəcəfalı Həsən oğlu (möhür); Xıdır Hüseyn oğlu.

## №24 (№47). ƏLƏYƏZ KƏNDİ

**Qaraçorluların hacısamlı tayfası.**

1.Şahverdi Məmmədcəfər oğlu 57 y; oğlanları: İmamverdi 27 y; Nəbi 18 y; İmamqulu 16 y; Bayraməli 14 y; Hümbətalı 12 y;

2.Sübhanverdi Şahverdi oğlu 32 y; oğlu Məmməd 6 y; qardaşı Abbasqulu 25 y;

**7 il əvvəl Moz kəndindən gələnlər:**

1.Allahverən Məşədi Hüseyn oğlu 50 y; oğlanları: Məmmədhəsən 19 y; Abdulla 10 y; Əsəd 8 y;

2.Allahqulu İman oğlu 40 y; oğlanları Məmmədqulu 7 y; Məmmədalı 5 y; qardaşı Cəfərqulu 22 y;

3.Xudaverdi Məmmədcəfər oğlu 50 y; oğlanları: Allahverdi 30 y; onun oğlu Xudaqulu 5 y; Bayram 16 y;

4.İsmayıl Hüseyn oğlu 30 y; oğlanları: Hüseyn 4 y; Həsən 1 y;

5.Cəfərqulu Novruz oğlu 40 y; oğlu Nəcəfqulu 8 y; qardaşı Məmmədcəfər 20 y(ağıldan kəm);

6.Tarverdi Məşədi Hüseyn oğlu 30 y; oğlu Hüseynqulu 4 y;

7.Xudu Səfər oğlu 29 y; qardaşı Şiro 16 y; atası Səfər 62 y;

8.Molla Mirzəhüseyn molla Məmmədalı oğlu 45 y; oğlanları: Əhməd 10 y; Bayramqulu 8 y; yetim İsmayıl Şano oğlu 5 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər.

30 Naxçıvan xalvarı əkin var, 100 Naxçıvan xalvarı buğda, 170 Naxçıvan xalvarı arpa, 5 Naxçıvan xalvarı çəltik biçir, 3 Naxçıvan xalvarı pambıq yığırlar.

Xəzinəyə məxsusu olan bu kənddən qəza mərkəzinə 96, nahiyə mərkəzinə 21 verstdir.

Əkinçilik, heyvandarlıq və xalçaçılıqla məşğul olurlar. 6 dəyirmandan 2-i işlək vəziyyətdədir. 5 arıxanada 160 arı ailəsi var. Dolanışıq yaxşıdır.

10 baxımsız qalmış bağ, dərələrdə çoxlu qoz ağacları, tikintiyə yararlı 15 verst meşəsi var. 35 verst torpağı var, onun 30 xalvarı əkinəyararlı suvaılan torpaqdır.

Sakinlər az miqdarda ot biçsələr də, bol otlu biçənəkləri və örüş yerləri çoxdur.

Buğda, arpa,darı, kətan, çətənə, paxlalı bitkilər, mərcimək, pambıq, tütün, çuğundur, kələm əkirlər.

Kənddə 3 baxımsız bəzirxana, 3 nəfər gümüş ustası, 5 toxucu, kiçik ticarətlə məşğul olan 1 çərçi var.

Kəndin 3 verst qərbində, uca dağın başında tikilmiş və divarları və qapısı yaxşı vəziyyətdə olan qədim qala var. Ələyəz kəndinin şimalında azacıq zədələnmiş 2 monastr var.

Kənddə 13 at, 87 iribuynuzlu, 114 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Hacısamlı tayfasının icma başçısı Nəcəfalı

Həsən oğlu (möhür); Kərbəlayi Tarverdi Məşədi Hüseyn oğlu (möhür); Kərbəlayi Cəfərqulu Novruz oğlu;

## №25 (№48). GÜNEYVƏNK KƏNDİ

**Hacısamlı tayfası.**

1.Əsədulla Məmməd oğlu 40 y; oğlanları: Almədət 15 y; Süleyman 2 y;

**Yaddan çıxanlar:**

1.Ələsgər Məmməd oğlu 30 y; oğlanları: Məmməd 10 y; Əhməd 8 y; Səmənd 6 y;

2.Oruc Məmməd oğlu 30 ; oğlanları: Hacıməmməd 6 y; Xanmurad 1 y;

3.Məmməd İmanxəlil oğlu 50 y; oğlu Xəlil 22 y; Muradəli 15 y;

4.Abdulla Məmməd oğlu 32 y; oğlanları: İsmayıl 10 y; Mustafa 6 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər.

6 Naxçıvan xalvarı əkin var, 7 Naxçıvan xalvarı buğda, 8 Naxçıvan xalvarı arpa əkirlər.

Kənd xəzinəyə məxsusdur, qəza mərkəzinə 100, nahiyə mərkəzinə 25 verstdir.

Əkinçiliklə məşğul olurlar, 5 xalvar əkinə yararlı suvarılan torpağı var, bu kənddən şərqə doğru uzanıb gedən Gülüdüz adlanan geniş çöl var. Burada 500 xalvardan artıq əkinəyararlı suvarılan torpaq olsa da, əhali onun kiçik bir qismindən istifadə edir. əsasən buğda əkirlər.

Gülüdüzdə geniş biçənəklər və örüşlər var.

Buğda və arpa əkirlər, 1 yararsız bəzirxana var.

Kənddə 1 keçəçi və 1 toxucu var.

Kənddə 4 at, 18 iribuynuzlu, 50 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Hacısamlı tayfasının icma başçısı Nəcəfalı Həsən oğlu(möhür); Əsədulla Məmməd oğlu;

## №26 (№49).QOVUŞUQ KƏNDİ

**1 il qabaq Qarabağ qəzasının Altıkovşed kəndindən gələn hacısamlılar**

1.Şabo Zülfüqar oğlu 70 y; Zülfüqar 26 y;

2.Kərim Ağakişi oğlu 24 y;

3.Nəzər Kişi oğlu 30 y; oğlanları: Fətulla 8 y; Abdulla 5 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər.

2 Naxçıvan xalvarı əkin var, 14 axçıvan xalvarı buğda, 16 Naxçıvan xalvarı arpa biçirlər.

Əkinçiliklə məşğul olurlar.

Qovuşuq kəndi Ələyəz çayının üstündə yerləşməklə, torpaqları həmin kəndlə ümumidir. Buğda və arpa əkirlər, biçənəkləri də əvvəlki kənddə olduğu kimidir.

Kənddə 2 at, 11 iribuynuzlu, 17 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Hacısamlı tayfasının icma başçısı Nəcəfalı Həsən oğlu(möhür); Zülfüqar Şabo oğlu;

## №27 (№50). QARAVƏNG KƏNDİ

**7 il qabaq Herher kəndindən gələnlər.**

**Qaraçorluların təhməzli tayfası.**

1.Şirəli Mirzəcan oğlu 62 y; oğlanları: Həsənxan 27 y; Hüseyn 20 y; Həsənalı 18 y;

2.Həzrətqulu Allahverdi oğlu 32 y; qardaşları: Allahqulu 27 y; Məmiş 10 y;

3.Məşədi Nəcəfalı Mehralı oğlu 62 y; oğlanları: Səfəralı 42 y; Mehralı 27 y;

4.Kəlbəli Məşədi Nəcəf oğlu 32 y;

5.Fəzli Əli Mehralı oğlu 52 y; oğlanları: Nəzəralı 32 y; Teymur 27 y; Əmir 22 y;

**3 il qabaq Qarabağ qəzasından gələnlər**:

**Hanızaqlı tayfası.**

1.Səfəralı Mirzəcan oğlu 40 y; oğlanları: Nəzəralı 16 y; Gəncimalı 12 y; Oruc 3 y;

2.Xanməmməd Haxverdi oğlu 45 y; oğlu Cəfərqulu 20 y;

**Yaddan çıxanlar:**

1.Qulu Qasım oğlu 60 y; oğlanları: Həsənxan 20 y; Hüseynxan 17 y;

2.Molla Abbasəli Məşədi Nəcəfalı oğlu 25 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər.

10 Naxçıvan xalvarı əkin var, 35 Naxçıvan xalvarı buğda, 70 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsusdur, qəza mərkəzinə 70, nahiyə mərkəzinə 9 verstdir.

Əkinçilik və xalçaçılıq və toxuculuqla məşğul olurlar.

2 arıxanada 25 arı aiəsi var. Əhalinin dolanışığı yaxşıdır.

Torpağı daşlı-gilli, bəzi yerlərdə qarqtorpaqdır.

Öz meşəsi yoxdur, Herher meşəsindən istifadə edirlər.

14 verst torpağı var, onun 2 xalvarı suvarılan, 4 xalvar dəmyə torpağı var. Dərələrdən ot biçirlər.

Buğda, arpa, darı və tərəvəz əkirlər.

Burada az zədəli Qaravənk adlı qədim monastr və uçuq kilsə var.

Kənddə 12 at, 87 iribuynuzlu, 146 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Xanasanlı tayfasının icma başçısı Hüseyn Məşədi Alməmməd oğlu(möhür); Molla Abbasəli Məşədi Nəcəfalı oğlu; Həzrətqulu Allahverdi oğlu;

## №28 (№51). CAĞATAY KƏNDİ

**Qaraçorluların kulakanlı tayfası**

1.Kəndxuda Məşədi İsaxan Əlmərdan oğlu 70 y; oğlanları: Edilxan 30 y; onun oğlu Rüstəm 5 y; qardaşı Babaxan 22 y;

2.Şərif Əlmərdan oğlu 52 y; Məhəmməd 32 y; onun oğlu Mehdiqulu 6y; qardaşları: Abbas 17 y; Ağalar 7 y; Əhməd 6 y;

3.Əmirxan Səfər oğlu 32 y; qardaşı İmamqulu 19 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər.

2 Naxçıvan xalvarı əkin var, 20 Naxçıvan xalvarı buğda, 4 Naxçıvan xalvarı arpa biçirlər.

Kənd xəzinəyə məxsusdur, qəza mərkəzinə 68, nahiyə mərkəzinə 14 verstdir.

Heyvandarlıq və xalçaçılıqla məşğul olurlar, 1 dəyirman var.

Kənd Arpaçayın aşağısında, qayanın üstündə yerləşir, torpağı daşlı və gillidir, öz meşəsi yoxdur, 20 verst məsafədə yerləşən Herher meşəsindən istifadə edirlər.

7 verst torpağı var, onun 4 xalvarı suvarılan, 2 xalvarı dəmyə əkinəyararlı torpaqdır. Təpəlik yerlərdəki əkinləri suvarmaq üçün su çatmır.

İldə 1.000 bağ ot biçir, buğda və tərəvəz əkirlər.

Kənddə 5 at, 37 iribuynuzlu, 140 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kulakanlı tayfasının icma başçısı Əlmərdan Məmmədalı oğlu(möhür); Kəndxuda Məşədi İsaxan Əlmərdan oğlu;

## №29(№52).ERTIŞ KƏNDİ

**Milli tayfası.**

1.Kəndxuda Hüseyn bəy Osman ağa oğlu 90 y; oğlu Abbasqulu 16 y;

2.Cəfərbəy Osman oğlu 70 y; oğlu Məhəmməd Osman oğlu. 35 y;

3.Hüseyn Almənmməd oğlu 40 y; oğlanları: İsgəndər 14 y; Qəhrəman 1 y;

4.Alı Ocaqqulu oğlu 60 y; oğlanları: Məmmədrza 26 y; Vəli 18 y; Musso 16 y;

5.Qəmbər Allahqulu oğlu 70 y; oğlanları: Abbasəli 18 y; Bayraməli 25 y;

6.Ələsgər Qələndər oğlu 25 y; ögey qardaşı İsgəndər Qələndər oğlu 18 y; Hüseynqulu 17 y;

7.Nəcəf Nəbi oğlu 30 y; qardaşı Qasım 16 y;

8.Bayrəməli Həsən oğlu 35 y; qardaşları Qurbanəli 25 y; Məmmədalı 22 y; oğlanları: Həsən 7 y; Hüseyn 3 y;

9.Kəndxuda Ağa Hüseynbəy oğlu 40 y; oğlanları: Mehdi 12 y; Paşa 4 y;

**Tatarlar**

10.Məmmədsaleh Vəli oğlu 70 y; oğlu Abbasəli 30 y; onun oğlu Məmmədbağır 5 y;

11.Məhəmməd Yusif oğlu 40 y; oğlu Alı 20 y;

**Yaddan çıxanlar**

1.Əmiraslan Cəfərbəy oğlu 40 y; oğlanları: Məmmədkərim 6 y; Məmmədbağır 3 y;

2.Nəcəfalı Fətəli oğlu 25 y; qardaşı Kəlbəli 15 y;

3.Seyid Qəmbər Seyid Hüseyn oğlu 16 y;

4.Şahhüseyn Qələndər oğlu 30 y; oğlu Qələndər 3 y;

5.Məmmədalı Kərbəlayi Fətəli oğlu 50 y; oğlanları: Rüstəm 15 y; Məhəmməd 1 y;

6.Əlverdi Şahverdi oğlu 60 y;

7.Bayraməli Həsən oğlu 25 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər.

8 Naxçıvan xalvarı əkin var, 60 Naxçıvan xalvarı buğda, 45 Naxçıvan xalvarı arpa, 8 Naxçıvan xalvarı çəltik biçirlər.

Kənd xəzinəyə məxsusdur, qəza mərkəzinə 84, nahiyə mərkəzinə 5 verstdir.

Əkinçiliklə məşğul olurlar.

Arpaçayın üstündə yerləşən kənddə 1 dəyirman var. Torpağı daşlı qaratorpaqdır. əkinə yararlıdır. Əhalinin dolanışığı ortababdır.

Herher meşəsindən istifadə edirlər.

20 verst torpağı var, onun 8 xalvarı suvarılan, 100 xalvarı dəmyə əkinəyararlı torpaqdır, Arpaçayın suyundan və bulaqlardan istifadə edirlər.

Dərlərdən ot biçirlər, xüsusi biçənəklər yoxdur.

Buğda, arpa, çəltik və tərəvəz bitkiləri əkirlər.

Kəndin yaxınlığındakı qayaların üstündə baxımsız qalmış **Şıxəli xan qalası** adlı bir qala var.

Kənddə 9 at, 68 iribuynuzlu, 84 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Ağa Hüseyn bəy oğlu (möhür); Məmməd Usub oğlu; Hüseynalı Məmməd oğlu;

## №30 (№53). AXTA KƏNDİ

**Qaraçorluların həsənanlı tayfası.**

1.Kəndxuda yüzbaşı Allahverdi Hətəm oğlu 45 y; oğlanları: Hətəm 22 y; Əsəd 10 y; qardaşları: Alı 30 y; Bayram 22 y;

2.Vəli Həsən oğlu 65 y; oğlanları: Albəy 28 y; Mustafa 13 y;

3.Məmmədhəsən Qasım oğlu 45 y;

4.Hətəm İmamverdi oğlu 65 y; oğlu İmamverdi 30 y; onun oğlu Pənalı 5 y;

5.Hüseyn Nəbi oğlu 60 y; oğlanları İbrahim 10 y; Abbas 8 y;

6.Nəbi Hüseyn oğlu 32 y; oğlanları: Alı 8 y; Şahhüseyn 2 y;

7.Məmmədqulu Tarverdi oğlu 20 y; qardaşı Həsən 15 y;

8.Həsən Şahverdi oğlu 52 y; oğlu Abbas 20 y;

9.Əlirza Çarax oğlu 65 y; oğlanları: Alpəna 25 y; Alı 15 y;

**Yaddan çıxanlar:**

1.İlyas Hüseyn oğlu 32 y; oğlu Məmməd 4 y;

2.Məmmədqulu Tarverdi oğlu 27 y;

**1 il qabaq Qarabağ qəzasından gələnlər:**

1.Hüseyn Şixo oğlu 65 y;

2.Şahverdi Şahverdi oğlu 50 y; oğlanları: Haxverdi 13 y; Nəcəfalı 7 y;

3.Lətif Məhəmməd oğlu 45 y; oğlu Bayraməli 8 y;

4.Səfəralı Lətif oğlu 24 y;

5.Şahgəldi Bayram oğlu 50 y; oğlanları: Behbudalı 25 y; Abbasəli 22 y;

6.Lətif Cəfəralı oğlu 60 y; oğlu Alı 20 y;

İslam dininin şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər.

27 Naxçıvan xalvarı əkin yeri var, 120 Naxçıvan xalvarı buğda, 136 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 70, nahiyə mərkəzinə 20 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar.

3 dəyirmandan 1-i işləyir, 1 arıxanada 10 arı ailəsi var, sakinlərin dolanışığı yaxşıdır.

Axtaçayın üstündə yerləşən torpaqları gillidir. 6 batman kol meşəsi var, tikinti üçün 7 verst məsafədə yerləşən Cul meşəsindən istifadə edirlər.

21 verst torpağı var, onun 2 xalvarı suvarılan, 25 xalvarı dəmyə əkinəyararlı torpaqdır. Çayın suyundan istifadə edirlər.

İldə 10 min bağ ot biçirlər.

Buğda və arpa əkirlər. 1 yararsız bəzirxana var.

Kənddə 10 at, 105 iribuynuzlu, 177 xırdabuynuzlu heyvan var.

**İmzalar:** İcma başçısı Bəylər Bayram oğlu(möhür); Kəndxuda Allahverdi Hətəm oğlu; Hüseyn Nəbi oğlu;

## №31(№54).TEZXARAB KƏNDİ

**Kulakanlılar**

İslam dininin şiə məzhəbinə mənsubdurla, köçəri həyat sürürlər.

4 xalvar əkin var, 30  Naxçıvan xalvarı buğda, 20 Naxçıvan xalvarı arpa biçilir. Qəza mərkəsinə 60, nahiyə mərkəzinə qədər 14 verst məsafə var.

Əhali taxılçılıqla məşğul olur, 1 işlək dəyirman var. Dolanışıq ortababdlr. Çay kənarındakı torpağın vəziyyəti əlverişlidir. Öz meşəsi yoxdur, 20 verst məsafədəki Her-her kəndinin meşəsindən istifadə olunur. Kəndin ümumi torpağı 14 verstdir, ancaq onun 4 xalvarı suvarılan, 8 xalvarı dəmyə əkinə yayarlıdır. Arpa çayın suyundan istifadə edirlər. Biçənəkləri 2 xalvardır və ildə 4 min bağ ot biçilir. Buğda, arpa və darı əkilir.

1.Rüstəm İmamverdi oğlu 60 y; oğlanları:Bəxtiyar 25

y; İmamverdi 17 y; Məmməd 10 y; Xudaverdi 7 y; Sübhanverdi 5 y;

2.Babaxan Əlverdi oğlu 45 y; oğlanları: Həsənqulu 10 y; Nəcəfqulu 7 y;

3.İsaxan Allahverdi oğlu 32 y; oğlu Abdulrəhim 1 y;

4.Məhərrəm Allahverdi oğlu 30 y;

**Kömürlü kəndindən gələnlər:**

1.Babaxan Allahverdi oğlu 50 y; oğlanları:Xudaqulu 5 y; Rzaqulu 10 y; Hüseynqulu 3 y;

2.Məmməd Xoca oğlu 25 y;

3.Məmmədqulu Məmməd oğlu 30 y; oğlu Cəfərqulu 4 y;

**Cağataydan gələn**

4.Şahverdi Məşədi İsaxan oğlu 40 y; qardaşı Babaxan 25 y;

Kənddə 7 at, 67 iribuynuzlu, 31 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kulakanlı tayfasının icma başçısı Əlmərdan Məmmədalı oğlu(möhür); İsaxan Allahverdi oğlu; Rüstəm İmamverdi oğlu;

## №32(№55). AZADƏK KƏND

Salmasdan köçürülmüş 37 erməni ailəsinin siyahısı.

50 Naxçıvan xalvarı əkin var, 175 Naxçıvan xalvarı buğda, 350 Naxçıvan xalvarı arpa biçirlər.

Kənd xəzinəyə məxsusdur, qəza mərkəzinə 85, nahiyə mərkəzinə 22 verstdir.

Əkinçilik və pambıq parça toxumaqla məşğul olurlar, dolanışıq yaxşıdır, 2 dəyirman var, 7 arıxanada 40 arı ailəsi, 2 bəzirxana var.

Öz meşəsi yoxdur, Cul və İstisu meşələrindən istifadə edirlər.

21 verst torpağı var, onun 25 xalvarı əkinəyararlı suva-

rılan torpaqdır. Dəmyə çoxdur. Bulaq suyundan istifadə edirlər, əkin sahələrini suvarmaq üçün su çatışmır.

İldə 10 min bağ ot biçirlər, buğda, arpa, kətan, tərəvəz əkirlər.

2 işlək bəzirxana var, gündə 2 batman yağ çıxarırlar, 1 baxımsız qalmış bəzirxana da var.

Kənddə 4 gümüş ustası, 10 toxucu, 1 pinəçi, 1 xarrat, 1 dəmirçi var.

## №33(№56). POR KƏNDİ

25 Naxçıvan xalvarı əkin var, 200 Naxçıvan xalvarı buğda, 130 Naxçıvan xalvarı arpa biçirlər.

Kənd xəzinəyə məxsusdur, qəza mərkəzinə 80, nahiyə mərkəzinə 24 verstdir.

Əkinçiliklə məşğul olurlar, 4 arıxana və 48 arı ailəsi var. Dolanışıqları yaxşıdır.

Meşəsi yoxdur, Cul və Herher meşələrindən istifadə edirlər.

11 verst torpağı var, onun 8 xalvarı suvarılan, 13 xalvarı dəmyə əkinəyararlı torpaqdır, bulaq suyundan istifadə edirlər.İldə 1500 bağ ot biçirlər.

Buğda və arpa əkirlər.

Kənddə 7 gümüş ustası, 1 dəmirçi, 1 dülgər və 1 bənna var.

Müxtəlif yerlərdən köçürülmüş 24 erməni ailəsinin siyahısı.

**2 il əvvəl Türkiyədən gələnlər.**

**Həsənanlı tayfası.**

1.Xudo Mirzo oğlu 35 y; oğlu Amo 13 y.

2. Hüseyn Qato oğlu 22 y.

3. Meqo İsmayıl oğlu 56 y; oğlu İsmayıl 10 y.

## №34(№57). PAŞALI KƏNDİ

Salmasdan köçürülmüş 14, başqa yerlərdən gəlmiş 9 erməni ailəsinin siyahısı.

26 Naxçıvan xalvarı əkin var, 120 Naxçıvan xalvarı buğda, 190 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 42, nahiyə mərkəzinə 28 verstdir.

Əkinçiliklə məşğul olurlar. 4 arıxanada 50 arı ailəsi, 2 dəyirman, 1 bəzirxana var. Dolanışıq yaxşıdır.

Torpağı gilli, bəzi yerlərdə daşlıdır. Öz meşəsi yoxdur, 18 verst məsafədə yerləşən Tarp kəndinin meşəsindən istifadə edirlər.

25 verst torpağı var, onun 5 xalvarı suvarılan, 20 xalvarı dəmyə əkinəyararlı torpaqdır. Çay və bulaq suyundan istifadə edirlər.

2 xalvar biçənəkləri var, ildə 4 min bağ ot biçirlər.

Buğda, arpa, kətan, paxlalı bitkilər, soğan, çətənə və tərəvəz əkirlər.

Kənddə 8 toxucu, 1 dəmirçi, 1 xarrat var.

## №35(№58). QARALAR KƏNDİ

**Qaraçorluların bozlu tayfası.**

**8 il qabaq Dərələyəin Por kəndindən gəliblər.**

1.Abbasəli Pənah oğlu 70 y; oğlanları: Aləmşah 28 y; Şükür 26 y.

**2 il qabaq Qarabağın Ağdərə kəndindən gələnlər:**

2.Eyvaz Mirzə oğlu 20 y; onun oğlu Xudaverdi 1 y.

3. Həsən Şahbaz oğlu 35 y; oğlu Ocaqqulu 16 y.

4.Məmmədqulu Əlipəna oğlu 55 y; oğlanları: Bünyadəli 20 y; Məmmədalı 15 y.

5. Cəfər Əlipəna oğlu 62 y; onun oğlu Əsədulla 15 y.

6. Qaraxan Abdulla oğlu 65 y; oğlanları: Hüseynxan 15 y; Dorduxan 10 y.

7. Mirzə Əlipəna oğlu 50 y; oğlu Hüseynalı 27 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər.

7 Naxçıvan xalvarı əkin var. İldə 24 Naxçıvan xalvarı buğda, 48 Naxçıvan xalvarı arpa biçirlər.

Kənd dövlətə məxsusdur. Qəza mərkəzinə qədər 56, nahiyə mərkəzinə 20 verst məsafədə yerləşir.

Taxıl əkib-biçirlər. Dolanışıq ortababdır. Torpağı daşlı və gillidir. 13 verst məsafədəki Herher meşəsindən istifadə edirlər. Ətraf torpaqları 14 verstdir, onun 5 xalvarı əkinə yararlı dəmyə torpaqdır. Bulaq suyundan istifadə edilir.

Dərələrdə biçənəklər var.

Sakinlərə məxsus 5 at, 57 iribuynuzlu, 79 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Bozlu tayfasının icma rəhbəri Cahanşah Cahanşah oğlu (möhür); Abbasəli Pənah oğlu.

## №36(№59).GÖYƏRÇİN KƏNDİ
### Qaraçorluların həsənanlı tayfası.

1.Kəndxuda Allahverən İsmayıl oğlu 40 y; oğlu Təhməz 15 y.

2. Abdulla İsmayıl oğlu 35 y; oğlanları: Məmmədqulu 10 y; Xudaqulu 7 y.

3. Həsən İsmayıl oğlu 30 y; qardaşı Şahbaz İsmayıl oğlu 50 y; onun oğlanları: Abbas 12 y; Rəhim 4 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər.

50 Naxçıvan xalvarı əkin var. İldə 50 Naxçıvan xalvarı buğda, 80 Naxçıvan xalvarı arpa biçilir.

Əkinçilik və xalça toxumaqla məşğul olurlar. Arpaçaydan yuxarıda, dərədə yerləşir. Vəziyyəti ottababdır. Torpağı daş-kəsəklidir, amma taxılçılıq üçün əlverişlidir. Herher meşəsindən istifadə edirlər.

Ərazisi 4 verstə yaxındır, Arpaçayın suyu ilə kifayətlənirlər.

İldə 1.000 bağ ot biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 56, nahiyə mərkəzinə15 verstdir.

Bu kəndin sakinləri başqa kəndlərin ərazisində də taxıl əkirlər.

Sakinlərin 2 atı, 35 iribuynuzlu, 47 xırdabuynuzlu heyvanı var.

**İmzalar:** İcma rəhbəri Bəylər Bayram oğlu(möhür); Allahverən İsmayıl oğlu.

**№37(№60). SÖYLAN KƏNDİ**

**Qaraçorluların kulakanlı tayfası.**

1.Hüseyn Cəfər oğlu 42 y; onun oğlu Alı 18 y.

2. Şahhüseyn Cəfər oğlu 42 y; onun oğlanları: Xudaverdi 13 y; Musa 8 y; İsa 3 y.

3. Süleyman Nəbi oğlu 50 y; oğlanları: Vəli 23 y; Bayraməli 15 y; Alı 10 y.

4. Lazım Hüseyn oğlu 50 y; oğlanları: Qəhrəman 10 y; Salman 8 y; Abdulla 5 y; qardaşı Məmməd 28 y.

5. Əlverdi Məmmədxan oğlu 60 y; oğlu İsmayıl 20 y.

6. Məmmədxan Allahverdi oğlu 30 y; oğlanları: Qafar 7 y; Cəfər 3 y.

7. Həsən Nəbi oğlu 45 y; oğlanları: Heydərqulu 25 y; Əmirqulu 8 y.

**Yaddan çıxanlar:**

8. Əlipəna Qəmbər oğlu 60 y; oğlanları: Novruz 7 y; Xıdır 9 y; Qələndər 30 y.

9. Mustafa Haxverdi oğlu 60 y; oğlanları: Haxverdi 25 y; Kərim 15 y.

Kəndin əhalisi müsəlmanların şiə məzhəbinə mənsub olmaqla köçəri həyat sürürlər. 100 Naxçıvan xalvarı əkin var. İldə 200 Naxçıvan xalvarı buğda, 300 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsusu olan bu kənddən qəza mərkəzinə 60, nahiyə mərkəzinə 14 verstdir.

Əkinçiliklə məşğul olurlar, dolanışıq ortababdır. Arpaçayın üstündəki torpaqları əkinəyararlıdır. Öz meşəsi yoxdur, 20 verst məsafədə yerləşən Herher meşəsindən istifadə edirlər.

21 verst torpağı var, onun 3 xalvarı suvarılandır. Arpaçayın suyundan istifadə edirlər.

İldə 5 min bağ ot biçirlər. Buğda, arpa, darı əkirlər. Bu kəndin sakinləri Gomur kəndinin torpaqlarında da əkin edirlər.

Kənddə 1 yararsız dəyirman, Söylan və Haxılı kəndləri arasında dövlətə məxsus 2 yararsız karvansara var.

**Qeyd: burada Arpaçayın üzərində körpü olub, amma çoxdan uşub dağılıb.**

**İmzalar:** Kulakanlı tayfasının icma rəhbəri Əlmərdan Məmmədalı oğlu(möhür); Süleyman Nəbi oğlu; Hüseyn Cəfər oğlu.

## №38(№62). ƏRGƏZ KƏNDİ

**Qaraçorluların təhməzli tayfası**

1.Hüseyn bəy Allahverdi oğlu 72 y; oğlu Məmmədsadıq 29 y; onun oğlu Məmmədbağır 3 y.

2.Almәmmәd Alı oğlu 52 y; oğlanları: Kәndxuda Alhüseyn 32 y; onun oğlu Rüstәm 4 y; Molla Qәmbәralı 22 y; Əlibaba 15 y.

3. Hәsәnalı Mәmmәdalı oğlu 27 y; oğlu Hüseynalı 1 y.

4.Əlәsgәr Mәhәmmәd oğlu 42 y; oğlanları: Mәhәmmәd 20 y; Zeynal 17 y. Hәsәn 15 y.

5. Muradxan Əhmәd oğlu 42 y; oğlanları: Almurad 17 y; Əhmәd 14 y.

6. İsmayıl Haxverdi oğlu 47 y; oğlanları: Murad 27 y; Cәfәr 20 y; Nuru 17 y.

7. Əlmәrdan İmamverdi oğlu 52 y; oğlu Alı 2 y; qardaşı Mәmmәdqulu 32 y.

8. İmamәli İbrahim oğlu 52 y; oğlanları: Dünyamalı 27 y; İbrahim 11 y; Ağamәmmәd 9 y.

9. Hüseynalı Mәmmәdalı oğlu 42 y; oğlanları: Hәsәnalı 27 y; Şahәli 22 y; Baxşәli 17 y.

10. Nәzәr İbrahim oğlu 52 y; oğlu Dadaş 17 y.

11. Mәşәdi Qurbanәli Maqsud oğlu 52 y; oğlanları: Mәmmәd 22 y; Paşa 18 y; Əsәd 16 y.

12. Mirzәmәmmәd İmamverdi oğlu 50 y; oğlanları: Hәsәn 17 y; Hüseyn 15 y.

13. Yusif Fәrhad oğlu 42 y; oğlu Fәrhad 6 y.

14. Cәfәrxan Vәli oğlu 32 y; oğlanları: Vәli 6 y; Alı 4 y.

15. Əhmәd Vәli oğlu 52 y; oğlu Cabbar 22 y.

**Şadılı tayfası:**

1.Ağarza Mirzә oğlu 52 y; oğlanları: Gülmәmmәd 27 y; Mәhәrrәm 24 y; Alo 20 y.

**Yaddan çıxanlar:**

1.Gülmәmmәd İmamverdi oğlu 42 y; oğlanları: İmamverdi 15 y; Rәsul 7 y.

2. Tanrıqulu Mirzәmәmmәd oğlu 25 y;

3. İbrahim Nəzər oğlu 30 y.

4. Həzi İmamverdi oğlu 31 y.

5. Bədəl Zaman oğlu.

3 il qabaq Qarabağ qəzasının Bərgüşad mahalından gələn püsyanlı tayfası:

1.İbrahim Tarverdi oğlu 53 y; oğlu Alməmməd 20 y.

**İrəvan qəzasının Püsyan kəndindən gələn**

2.Abıl Alo oğlu 30 y (siyahıyaalmadan sonra ölüb); oğlu Şahhüseyn 5 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər.

20 Naxçıvan xalvarı əkin var. İldə 80 Naxçıvan xalvarı buğda, 120 Naxçıvan xalvarı arpa biçilir.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 74, nahiyə mərkəzinə 12 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. 1 arıxana və 25 arı ailəasi var. Sakinlərin dolanışığı yaxşıdır.

Torpağı daşlı-gillidir, amma əkinə yararlıdır. Öz meşəsi yoxdur, tikinti üçün Herher meşəsindən istifadə edirlər. Dərələrdə geniş biçənəklər və örüşlər var.

Buğda və arpa əkirlər.

2 yararsız dəyirman, V əsrə aid baxımsız qalmış 1 monastr var.

Kənddə 25 at, 154 iribuynuzlu, 180 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Xanazanlı tayfasının icma rəhbəri Əlihüseyn Məşədi Alməmməd oğlu; Məşədi Qurbanəli Məstalı oğlu; İmaməli İbrahim oğlu.

## №39(№63). BÜLBÜLÖLƏN KƏNDİ
### Qaraçorluların cavadlı tayfası

1.Kəndxuda Baxşəli Cavad oğlu 41 y; oğlanları: Babaxan 14 y; Ələkbər 3 y; atası Cavad Babaxan oğlu 82 y.

2.Kəlbihüseyn Məhəmməd oğlu 70 y; oğlanları: Bəyalı 30 y; Bayraməli 19 y.

3.Qulu Rüstəm oğlu 42 y; oğlanları: Məmmədbağır 17 y; Cəfər 12 y; Bayram 20 y; Hüseyn 19 y.

4. Şahbaz Məhəmməd oğlu 52 y; oğlanları: Həsən 26 y; İsmayıl 20 y; İmamqulu 16 y; Zeynalabdin 14 y.

5. Alı Tarverdi oğlu 46 y; oğlu Tarverdi 26 y.

6. Sadıq Baba oğlu 26 y; oğlu Əsəd 3 y.

7. Məhəmməd Haxverdi oğlu 62 y; oğlanları: Cəfərqulu 26 y; İmamqulu 20 y.

**Yaddan çıxan**

1.Sübhanverdi Əli oğlu 20 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər.

70 Naxçıvan xalvarı əkin var. İldə 60 Naxçıvan xalvarı buğda, 24 Naxçıvan xalvarı arpa biçilir.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 79, nahiyə mərkəzinə 14 verstdir.

Az miqdarda əkinçilik və heyvandarlıqla məşğul olurlar, sakinləri çox kasıb yaşayır.

Torpağı daşlı və gillidir, dərələrdən hətta atla keçmək də çətindir. Öz meşəsi olmadığına görə, tikinti üçün Herher meşəsindən istifadə edirlər.

Kənddə 5 at, 39 iribuynuzlu, 57 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Baxşəli Cavad oğlu; Kəlbihüseyn Məhəmməd oğlu.

## №40(№64). AŞAĞI CANI KƏNDİ
## Qaraçorluların təhməzli tayfası

1.Fəzləli bəy Fəzləli Sultan oğlu 32 y; qardaşı Həsənalı 22 y.

2. Nəcəfqulu Qurban oğlu 27 y; oğlu Əlmurad 6 y; qardaşları: İmamqulu 12 y; Qulu 10 y.

3.Cahangir bəy Təhməz oğlu 46 y; oğlanları: Allahverdi 6 y; Məhəmməd 4 y; Adıgözəl 2 y; qardaşı Hüseynqulu 36 y; oğlu Hüseyn 1 y.

4. Kəndxuda Cəfərqulu bəy Təhməz oğlu 42 y; oğlanları: Mustafa 6 y; Mehdi 4 y; qardaşları: Albəy 12 y; Paşa 8 y.

**1 il qabaq Qarabağın Sultankənd kəndindən gələnlər:**

1.İman Vəli oğlu 57 y; oğlu Rüstəm 6 y.

2. Məmməd Haxverdi oğlu 28 y; oğlu Paşa 1 y; qohumu Həzi Bayram oğlu 30 y.

3. İsmayıl Əlverdi oğlu 40 y; oğlu İbrahim 1 y; qardaşı İsmixan 30 y; oğlu Abbas 2 y.

4. Süleyman Allahverdi oğlu 40 y; oğlanları: Şahgəldi 8 y; Həsənqulu 4 y.

5. Mirzə Xudaverdi oğlu 29 y; oğlu Baxşəli 1 y; qardaşı İrza 15 y; atası Xudaverdi 60 y.

6. Əlipəna Məhəmməd oğlu 43 y; oğlu İsmayıl 3 y.

7.Allahyar Əlverdi oğlu 40 y; Məhəmməd 2 y; yetim qalmış İsmayıl Məhəmməd oğlu 1 y.

8. Hüseynalı Kurço oğlu 60 y; oğlanları: Həsənalı 38 y; onun oğlu Mustafa 6 y; Eylas  4 y; Novruzəli 10 y; Adıgözəl 25 y;

**3 il əvvəl Qarabağ qəzasının Bayandur kəndindən gələn**

1.Məmmədalı Arzuman oğlu 35 y; oğlanları: Talış 3 y; Haxverdi 2 y.

**1 il əvvəl Əliqışlağı kəndindən gələn**

1.Məşədi Namaz Qasım oğlu 62 y; oğlanları: Səfəralı 37 y; onun oğlanları: Qasım 14 y; Danibəy 12 y; İsmayıl 4 y.

2. Allahverdi Namaz oğlu 42 y; oğlanları: Nəbi 6 y; Vəli 4 y; qardaşları: Kazım 25 y; Cəfər 24 y.

**Yaddan çıxan**

3.Məmmədvəli Fəzləli bəy oğlu 28 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər. 6 Naxçıvan xalvarı əkin var. İldə 30 Naxçıvan xalvarı buğda, 40 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 112, nahiyə mərkəzinə 32 verstdir.

Xalçaçılıq, toxuculuq və az miqdarda əkinçiliklə məşğul olurlar. Dolanışıq ortababdır. Dərələrdə yerləşən torpaqları daşlıdır. Qayaların arasında 6 xalvara yaxın tikintiyə yararlı meşəsi var. Dəmyə torpaqları çox olsa da, daşlı-kəsəkli olduğuna görə yalnız 6 xalvarı əkilir. Canı çayın suyundan istifadə edirlər.

Meşədə xeyli biçənəkləri və örüş yerləri var, ildə 2.000 bağ ot biçirlər.

Buğda və arpa əkirlər.

Burada xeyli meyvə ağacları var, amma uzun müddət baxımsız qaldığına görə, cırlaşıblar.

Kənddə 2 yararsız dəyirman, 10 at, 79 iribuynuzlu, 112 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Cəfərqulu bəy Təhməz oğlu; İsmayıl Əlverdi oğlu; Süleyman Tanrıvermiş oğlu.

## №41(№65).HERHER KƏNDİ

### Qaraçorluların fərruxqanlı tayfası

1.Rəhim Şahbəndə oğlu 62 y; oğlanları: Ağa 10 y; Mirzə 3 y.

2. Şahbəndə Kərbəlayi Rəhim oğlu 37 y; oğlu Həsən 5 y.

3.Abbas Kərbəlayi Rəhim oğlu 34 y; oğlanları: Məhəmməd 5 y; Əhməd 3 y.

4. Xudaverdi Qəmbər oğlu 52 y.

5. Səfəralı Xudaverdi oğlu 32 y.

6. Heydəralı Xudaverdi oğlu 29 y; oğlu Nəcəf 1 y.

7. Bünyadəli Qəmbər oğlu 32 y; oğlu Hüseyn 3 y.

8. Bayraməli Qəmbər oğlu 24 y; oğlu Həsən 2 y; qardaşı Həsənalı 19 y.

9. Mərdan Əli oğlu 72 y; oğlanları: Eliyas 22 y; Bayram 19 y; Hüseynalı 12 y.

10. Xanılməli Məhəmməd oğlu 32 y; oğlanları: Səfəralı 18 y; Abbas 14 y.

11. Mustafa Qazaxəli oğlu 62 y (**siyahıyaalmadan sonra ölüb).**

12. Nəbi Keti oğlu 42 y; oğlanları: Oruc 26 y; Mehdi 17 y; Hüseynqulu 5 y.

13. Allahverdi Məşədi Kərim oğlu 42 y; oğlanları: Məmmədhəsən 6 y; Ocaqqulu 3 y.

14. Xudaverdi Məşədi Kərim oğlu 27 y; oğlu Bəxtiyar 5 y.

15. Vəli Məmməd oğlu 42 y; oğlanları: Hümbət 22 y; Eylas 10 y.

16. İmamverdi Məhəmməd oğlu 42 y; oğlanları: Hüseynalı 19 y; Şirin 10 y.

17.Babaverdi Tarverdi oğlu 5 y (anasının himayəsindədir).

18. Alı Vəli oğlu 62 y; oğlu Əhməd 15 y.

19. Salmanəli Vəli oğlu 32 y; oğlanları: Məhəmməd 4 y; Pənahəli 1 y.

20. Süleyman Vəli oğlu 32 y; oğlu Məhəmməd 4 y.

21. Pirmurad Vəli oğlu 27 y.

22.Həsən Cəfər oğlu 33 y; oğlanları: Cəfər 17 y; Əhməd 1 y.

23. Adıgözəl Keytan oğlu 52 y; oğlanları: Həsənalı 19 y; Şahhüseyn 5 y.

**Əliyanlı tayfası:**

1.Seyid Qəhrıman Ağasi oğlu 42 y; oğlu Süleyman 6 y; qardaşı Hüseyn 27 y.

2. Talıb Molla Hüseyn oğlu 28 y; qardaşları: Qəni 26 y; Mustafa 12 y; Talıb 11 y.

**Püsyanlı tayfası:**

1.Əliyar Hüseyn oğlu 27 y; oğlu Hüseyn 6 y.

**Kəngərlilərin yurçu tayfası:**

1.Qulu Eyvaz oğlu 37 y; oğlanları: Mustafa 15 y; Bayraməli 5 y.

2. Tağı Eyvaz oğlu 32 y; oğlu Kərim 16 y.

3. Orucəli Eyvaz oğlu 32 y; oğlu İbrahim 2 y.

4. Kərbəlayi Bayram Əliqulu oğlu 72 y.

**Qaraçorlu tayfası**.

**3 il əvvəl Qarabağın Xəlfəli kəndindən gələnlər:**

1.Seyid Məmməd Ağasi oğlu 50 y; oğlanları: Alməmməd 16 y; Həsənalı 9 y; Nəbi 5 y.

2. Seyid Musa Xasso oğlu 25 y;

3. Əlverdi Eyvaz oğlu 40 y; oğlu Məmmədqasım 5 y.

**Fərruxqanlı tayfası.**

**1 il əvvəl Qarabağın Kəlbəcər kəndindən gələnlər:**

1.Bayraməli Məşədi Məhəmməd oğlu 30 y; oğlu Həsən 8 y.

2. Kəndxuda İsmayıl Məşədi Paşo oğlu 38 y; oğlu Abdulla 2 y.

3. Dünyamalı Məşədi Məhəmməd oğlu 33 y; oğlanları: Ağaməmməd 10 y; Hüseyn 5 y.

4.Alo Kərbəlayi Oruc oğlu 30 y; oğlu Keyti 10 y; qardaşı Bayram 21 y.

**Kəngərli tayfası.**

**1 il əvvəl Naxçıvan nahiyəsinin Cəhri kəndindən gələnlər:**

1.Əlirza Abbasəli oğlu 38 y(siyahıyaalmadan sonra ölüb).

2. Mövlaqulu Əlhüseyn oğlu 53 y; oğlanları: Nəcəf 25 y; Fərzalı 21 y.

3. Talıb Mövlaqulu oğlu 30 y; oğlu Əlhüseyn 10 y.

4. Qərib Kərbəlayi Bayram oğlu 37 y; oğlu Əliqulu 10 y.

**Hacısamlı tayfası**

1 il əvvəl Qarabağ qəzasının Şavlı kəndindən gələnlər:

1.Hüseynqulu Alo oğlu 28 y; oğlu Abbas 7 y.

2. Xıdır Hüseyn oğlu 50 y; oğlu Məhəmməd 10 y.

**Şadmanlı tayfası.**

**3 il əvvəl Dərələyəzin Qurdqulaq kəndindən gələn**

1.Abbasəli Fətəli oğlu 29 y; oğlu Həsənalı 5 y.

**Zeylanlı tayfası:**

**1 il əvvəl İrəvan qəzasından gələn**

1.Həsən Hüseyn oğlu 30 y.

**Şadalı tayfası:**

**6 il əvvəl İrəvan qəzasının Vedi kəndindən gələn**

1.Nəcəf Safo oğlu 30 y; oğlanları: Cəfər 2 y; Abbas 1 y; qardaşları: Həsən 12 y; Hüseyn 6 y.

**Xələcli tayfası:**

**1 il əvvəl Qarabağın Mağauz kəndindən gələn**

1.Şahhüseyn Bayraməli oğlu 50 y; oğlanları: Əhməd 6 y; Hüseynqulu 4 y; qardaşı oğlu İmamverdi 10 y.

**Meyqedir tayfası.**

**1 il əvvəl Qarabağın Cicimli kəndindən gələnlər:**

1.Seyid Pirqulu Seyid Məmməd oğlu 35 y; oğlanları: Seyid Qurbanəli 9 y; Seyid Hüseyn 6 y.

2. Əhməd Bəhdai oğlu 23 y.

**Yaddan çıxanlar:**

1.Hüseyn Məhərrəm oğlu 28 y; oğlu Allahverdi 3 y.

**Yurdçu tayfası**

1.Məhərrəm Kərbəlayi oğlu 30 y; qardaşı Xudaverdi 10 y.

**Fərruxqanlı tayfası**

1.Seyid Babaxan Bayram oğlu 65 y; oğlanları: Seyid Əmirxan 12 y; Məhəmməd 6 y; Mirabdulla 2 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər. 35 Naxçıvan xalvarı əkin var. İldə 230 Naxçıvan xalvarı buğda, 260 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 91, nahiyə mərkəzinə 28 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğuldurlar, kənddə 3 dəyirman, 20 arıxanada 200 arı ailəsi var, dolanışıqları yaxşıdır. Torpağı Dərələyəz nahiyəsində ən yaxşı əkinəyararlı gilli qaratorpaqdır.

Tikintiyə yararlı 70 xalvara yaxın meşəsi var. Naxçıvan və İrəvan qəzasının sakinləri bu meşədən tikinti materialı kimi istifadə edirlər, əgər vaxtında tədbir görülməsə, onun kökünü tamamilə kəsəcəklər.

60 verst torpağı var, onun 35 xalvarı suvarılan, 135 xalvardan artıq dəmyə əkinəyararlı torpaqdır. Herher çayının və 4 bulağın suyundan istifadə edirlər.

Meşə arasında çoxlu biçənəklər və örüş yerləri var, sa-

kinlər ildə 7 min bağ ot biçir.

Burada baxımsız qalmış çoxlu üzüm bağları və meyvə ağacları var, bu onu göstərir ki, nə vaxtsa bağçılıq burada çiçəklənmiş vəziyyətdə olub.

Kənddə 2 baxımsız bəzirxana, 42 at, 373 iribuynuzlu, 1.739 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Kərim Məjlum oğlu(möhür); İsmayıl Məşədi Raşo oğlu; Kərbəlayi Xudaverdi Qəmbər oğlu; Xanıməli Məşədi Məmməd oğlu.

## №42(№66). ARINC KƏNDİ

**Qaraçorluların təhməzli tayfası.**

1.Sultan Məmmədhənifə Nəbi bəy oğlu 29 y.

2. Rəhim bəy Məhəmməd Sultan oğlu 72 y; oğlanları: Nəsir 32 y;(onun oğlu Qasım 6 y); Fərəculla 27 y; Şahəli 22 y.

3. Köçəri İmam oğlu 42 y; oğlu Şahverdi 1 y.

4. Axund Cəfər Molla Məmmədyar oğlu 52 y; oğlanları: Əbsülhüseyn 27 y; Həsən 15 y; Abış 10 y.

**1 il əvvəl Qarabağ qəzasından gələnlər:**

1.Həsən Kazım oğlu 8 y (anasının himayəsindədir).

**Cəbrayıllı tayfası.**

**1 il əvvəl gəliblər:**

1.İsmayıl Bayram oğlu 40 y; oğlu Əhməd 10 y; qardaşı Həsən 20 y.

**Qarabağ qəzasının Qaraqoyunlu kəndindən 1 il əvvəl gələnlər.**

**Bozlu tayfası**

1.Şahbaz Əlləz oğlu 35 y; oğlu Abbas 3 y.

2. Nəbi Kamo oğlu 46 y; oğlu İsmayıl 4 y.

3. Qəmbər Vəli oğlu 48 y; oğlanları: Əlmərdan 21 y; Məmməd 7 y.

4. Mirzə İbrahim oğlu 37 y; oğlu Əli 1 y; qardaşı Əbülqasım 15 y.

**Yaddan çıxanlar:**

1.Nəbi bəy Fətəlixan oğlu 72 y; oğlu Şirin Sultan 35 y (onun oğlanları: İmamqulu 7 y; Məmmədqulu 4 y); qardaşı Həsənqulu bəy 30 y (onun oğlu Xanar 4 y).

2. Təhməz Vəli oğlu 42 y; oğlu Ağa bəy 7 y.

Müsəlman dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər.

8 Naxçıvan xalvarı əkin var. İldə 40 Naxçıvan xalvarı buğda, 46 Naxçıvan xalvarı arpa biçilir.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 84, nahiyə mərkəzinə 25 verstdir.

Əkinçilik, heyvandarlıq, xalçaçılıq və pambıq parça toxumaqla məşğul olurlar. Dolanışıq ortababdır.

Torpağı daş-kəsəkli olduğuna görə, əkinçiliyə az yararlıdır. Meşəsi yoxdur, Herher meşəsindən istifadə edirlər.

28 verst torpağı var, onun 8 xalvarı suvarılan əkinə-yararlı torpaqdır. Çay və bulaq suyundan istifadə edirlər.

İldə 3 min bağ ot biçirlər, örüş yerləri isə çoxdur.

Buğda və arpa əkilir. Torpağı az olduğuna görə, bu kəndin sakinləri Herher kəndində də taxıl əkirlər.

1 baxımsız və gündə 2,5 xalvar dən üyüdən 1 işlək dəyirman var.

**İmzalar:** Bozlu tayfasının icma rəhbəri Cahanşah Cahanşah oğlu; Təhməz Vəli oğlu; Şahbaz Əlləz oğlu.

## №43(№70). TARP KƏNDİ
## (Əvvəli yoxdur)

...

4. İmamverdi Haxverdi oğlu 45 y; oğlanları: Şahverdi 15 y; Babaverdi 10 y; Alı 6 y.

5. Tahirverdi Camal oğlu 40 y; oğlanları: Camal 12 y; Abdulla 8 y.

6. Təhmuraz Caman oğlu 40 y; oğlanları: Allahverən 7 y; İbrahim 4 y.

7. Məmmədalı İsgəndər oğlu 32 y; oğlanları: İsgəndər 5 y; Hüseynalı 2 y.

8. Cəfər Qələndər oğlu 35 y; oğlanları: Qələndər 6 y; Abbasəli 2 y.

9. Xudaverdi Haxverdi oğlu 45 y; oğlanları: Allahverdi 15 y; Rüstəm 5 y.

10. Tağı Haxverdi oğlu 33 y; qardaşı Nağı 30 y; onun oğlu Haxverdi 1 y.

11. Murtuza Kazım oğlu 20 y; qardaşı Mustafa 8 y.

12 Əlipəna Hüseyn oğlu 30 y; oğlu Alı 1 y.

13. Şükrulla Nurulla oğlu 80 y; oğlanları: Hüseynqulu 20 y; Rəhim 10 y; Zülfüqar 8 y.

**Cul kəndindən gələnlər:**

1.Məmmədalı Köçəri oğlu 60 y; oğlanları: Hüseynalı 30 y; Fətəli 25 y; Məmmədalı 10 y.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 70, nahiyə mərkəzinə 28 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğuldurlar, 2 yararsız dəyirman var.

Torpağı daşlı və gillidir, 5 batman tikintiyə yaramayan meşəsi var.

21 verst torpağı var, onun 10 xalvarı suvarılan əkinəyararlı torpaqdır, dəmyə yeri çoxdur. Çay suyundan istifadə edirlər. 1 xalvardan artıq biçənəkləri var, 6 min bağa yaxın ot biçirlər.

Buğda və arpa əkirlər.

**İmzalar:** Bozlu tayfasının icma rəhbəri Cahanşah Cahanşah oğlu; Kəndxuda Allahverdi Haxverdi oğlu; Xudaverdi Haxverdi oğlu.

## №44(№71). TERP KƏNDİ
## (Sənəddə bu kəndə aid səhifələr itib)

**№45(№?).(Sənədin adını müəyyən edə bilmədiyimiz bu kəndə aid hissəsi itib).**

## №46(№72). ÇAYKƏND KƏNDİ

**Qaraçorluların həsənanlı tayfası.**

**Əvvəli itib.**

**...**

4. Şərif Cəfər oğlu 44 y; oğlanları: Musa 14 y; Mirzə 5 y.

5. Gülməmməd İmamqulu oğlu 30 y; oğlu Allahverdi 5 y; qardaşları Heydərqulu 25 y; Haxverdi 10 y.

**Yaddan çıxan**

1.Məjlum Bayram oğlu 38 y.

Az miqdarda taxıl əkilir, xalça toxuyurlar. 1 dəyirman var. Vəziyyət ortababdır. Torpağı daşlı və gillidir. Tikintiyə yararlı 6 batman müşəsi var.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 80, nahiyə mərkəzinə 25 verstdir.

Xalçaçılıq və az miqdarda əkinşiliklə məşğul olurlar. 1

dəyirman var, dolanışıq ortababdır.

Xırda tikintiyə yarayan 6 batman meşəsi var. Arpaçayın yaxınlığında yerləşən torpaqları daşlı və gillidir.

Torpaqları 7 verstə yaxındır, onun 2 xalvarı əkinəyararlı suvarılan torpaqdır.

İldə 3 min bağ ot biçilir. Buğda və arpa əkilir. Əkinə yararlı torpaqları az olduğyuna görə. Bu kəndin sakinləri başqa qonşu kəndlərin torpaqlarında da taxıl əkirlər.

Kənddə 6 at, 75 iribuynuzlu, 77 xırdabuynuzlu heyvan var

**İmzalar:** İcma rəhbəri Bəylər Bayram oğlu(möhür); Kərbəlayi Şərif Cəfər oğlu.

## №47(№73). CUL KƏNDİ

**Qaraçorluların kulakanlı tayfası.**

1.Kəndxuda Əlmərdan Məmmədalı oğlu 50 y; oğlanları: Oruc 8 y; Qəhrəman 4 y.

2.Həşim Kərbəlayi Xudaverdi oğlu 35 y; oğlanları: Xudaverdi 13 y; Hüseynqulu 6 y.

3. Məhərrəm Albəy oğlu 55 y; oğlanları: Alı 18 y; Allahverdi 14 y.

4. Allahverdi Məmmədalı oğlu 35 y; oğlu Abbasəli 10 y.

5. Kerçi Alı oğlu 60 y; oğlanları: Hüseyn 20 y; Həsən 17 y; Alı 8 y.

6. Mustafa Mustafa oğlu 50 y; oğlu Mehdi 10 y.

7. Nəcəf Xudaverdi oğlu 65 y; oğlanları: Hüseynalı 25 y; Abbasəli 20 y; Xudaverdi 15 y.

8. Xudaverdi Məmmədalı oğlu 35 y (siyahıyaalmadan sonra ölüb).

**Şərurdan yeni köçüb gələnlər:**

1.Molla Məmmədalı Məmmədalı oğlu 40 y; oğlanları: Rəhim 10 y; Kərim 6 y.

**Yaddan çıxanlar:**

1.İsmayıl Xələf oğlu 40 y; oğlu Abdulla 6 y.

2. Məşədi Məmməd Musa oğlu 50 y; oğlanları: Məhəmməd 20 y; Nəbi 15 y.

İslam dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat tərzi sürürlər. 10 xalvar əkin yeri var. İldə 90 Naxçıvan xalvarı buğda, 60 Naxçıvan xalvarı arpa biçirlər. Əhali taxılçılıq və xalçaçılıqla məşğuldur. Kənddə 2 arıxanada 20 arı ailəsi, 2 dəyirman, 31 at,115 ibuynuzlu və 126 xırdabuynuzlu mal-qara var. Dolanışıq qənaətbəxşdir. 8 verst tikintiyə yararsız meşəsi var. 28 verst torpağı var, onun 10 xalvarı suvarılan, 20 xaalvarı dəmyə əkinəyararlı torpaqdır. 1 xalvar biçənək var, ildə 6 min bağ ot biçirlər.

Buğda və arpa əkirlər. Cul çayı üzərində möhkəm daş körpü var.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 56, nahiyə mərkəzinə 35 verstdir.

**İmzalar:** Kulakanlı tayfasının icma rəhbəri Əlmərdan Məmmədalı oğlu(möhür); Məşədi Məmməd Musa oğlu; Nəcəf Kərbəlayi Xudaverdi oğlu.

## №48(№74). GOMUR KƏNDİ

**Qaraçorluların kulakanlı tayfası.**

1.İsgəndər Qəmbər oğlu 55 y; oğlanları: Ocaqqulu 10 y; Pirmurad 15 y; Sultanmurad 13 y.

2. Xudadat İsgəndər oğlu 30 y.

3. Qələndər Əlipəna oğlu 32 y; oğlu Əlipəna 5 y.

4. Haco Osman oğlu 55 y; oğlanları: Təhmurad 28 y; İsmayıl 20 y.

5. Novruz Əlipəna oğlu 28 y; oğlu Ağaverdi 2 y.

**1 il əvvəl Qarabağın Püsyan kəndindən gələnlər:**

1.Hacı Alı Gülməmməd oğlu 45 y; oğlanları: Şükrulla 4 y; Əsədulla 1 y.

2. İrzaqulu Balı oğlu 55 y; oğlanları: İbrahim 7 y; Allahverən 3 y.

**8 il əvvəl İrandan gələnlər:**

1.Seyid Əli Seyid Həsən oğlu 50 y; oğlanları: Seyid Abdulla 15 y; Seyid Rza 7 y; Seyid Həsən 4 y.

**Yaddan çıxanlar:**

1.Məmməd İsgəndər oğlu 30 y; oğlu Şükür 4 y.

2. Eylas Haco oğlu 20 y.

Kəndin əhalisi müsəlman dininin şiə məzhəbinə mənsubdur, köçəri həyat sürürlər. 2 xalvar əkin var. İldə 10 Naxçıvan xalvarı buğda, 14 Naxçıvan xalvarı arpa biçirlər. Heyvandarlıq və az miqdarda əkinçiliklə məşğul olurlar, dolanışıq yaxşıdır. Torpağı daşlı olsa da, dərələrdə yararlı örüş var.

Tikinti üçün 14 verst aralıda olan Cul meşəsindən istifadə edirlər.

14 verst torpağı var, onun 2 xalvarı suvarılan, 20 xalvarı dəmyə əkinə yararlı torpaqdır. Çay və 2 bulağın suyundan istifadə edirlər. İldə 1.000 bağ ot biçirlər. Buğda və arpa əkirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 56, nahiyə mərkəzinə 30 verstdir.

Kənddə 2 yararsız dəyirman, 2 yararsız bəzirxana, azacıq zədələnmiş bir kilsə, 7 at, 164 iribuynuzlu, 89 xırdabuynuzlu heyvan var.

**İmza:** Kulakanlı tayfasının icma başçısı Əlmərdan Məmmədalı oğlu (möhür).

## №49(№75). GABUD KƏNDİ

**Qaraçorluların kulakanlı tayfası.**

1.Kəndxuda Şahbəndə Ruşan oğlu 42 y; oğlanları: Alı 12 y; Vəli 8 y; qardaşı Xudabəndə 27 y.

2. Həzrətqulu Ruşan oğlu 53 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər. 50 Naxçıvan xalvarı əkin yeri var. İldə 100 Naxçıvan xalvarı buğda, 50 Naxçıvan xalvarı arpa biçirlər. 1 işlək və 1 yararsız dəyirman, 1 yararsız bəzirxana var. Əkinçiliklə məşğuldurlar. Dolanışıq ortababdır. Torpaqları qaratorpaqdır, dərələrdə iri daşlar olduğuna görə, atla gəzmək rahat deyil. 15 verst məsafədə yerləşən Cul meşəsindən istifadə edirlər. Ərazisi 10 verstə yaxındır, amma 0,5 verst suvarılan , 5 xalvar dəmyə əkinəyararlı torpağı var. İçmək üçün bulaqlardan istifadə edilir, sağlam sudur. Biçənəkləri 1 xalvar ərazini tutur. İldə 3 min bağ ot biçirlər. Buğda və arpa əkilir.

Kənd xəzinəyə məxsusdur. Qəza mərkəzi olan **Naxçıvan şəhərinə** qədər olan məsafə 50 verst, nahiyə mərkəzinə **(Keşişkənd)** qədər 32 verstdir.

Sakinlərin 2 atı, 35 iribuynuzlu, 51 xırdabuynuzlu mal-qarası var.

**İmzalar:** Kulakanlı tayfasının icma rəhbəri Əlmərdan Məmmədalı oğlu (möhür); Şahbəndə Ruşan oğlu.

## №50(№76).HAXILI KƏNDİ

**Qaraçorluların kulakanlı tayfası.**

1.Şahhüseyn Əlmərdan oğlu 52 y; oğlu Hümbət 16 y.

2. Fətəli Şahhüseyn oğlu 32 y; oğlanları: Qasım 2 y; Hümbət 6 y.

Müsəlman dininin şiə məzhəbinə mənsubdurlar, köçəri

həyat sürürlər. 2 Naxçıvan xalvarı əkin var. İldə 17 Naxçıvan xalvarı buğda, 8 naxçıvan xalvarı arpa bişirlər.

Xalçaçılıq və az miqdarda əkinçiliklə məşğul olurlar, dolanışıq ortababdır. Torpağı gilli və olduqca daşlıdır. Öz meşəsi yoxdur, 24 verst məsafədə yerləşən Cul meşəsindən istifadə edirlər.

7 verst torpağı var, onun 2 xalvarı suvarılan, 4 xalvarı dəmyə əkinəyararlı torpaqdır.

Buğda və arpa əkirlər, ildə 200 bağ ot biçirlər.

Kəndin yaxınlığında qaba daşdan tikilmiş və tavanı azacıq zədələnmiş qədim karvansara var. Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 64 verst, nahiyə mərkəzinə 12 verstdir.

**İmzalar:** Kulakanlı tayfasının icma rəhbəri Əlmərdan Məmmədalı oğlu(möhür); Şahhüseyn Əlmərdan oğlu.

## №51(№77).QAYALI KƏNDİ

**Qaraçorluların külükçə tayfası.**

1.Hüseynalı Alı oğlu 60 y; oğlu Səfəralı 10 y.

2. Mehralı Hüseynalı oğlu 35 y; oğlu Kərbəlayi 2 y.

3. Məmmədbağır Kərbəlayi İsmixan oğlu 40 y; oğlu Həsənqulu 4 y.

4. Abdalxan Kərbəlayi İsmixan oğlu 35 y.

5.Məmmədxan Məhəmməd oğlu 60 y; oğlanları: Allahverdi 30 y; Hümbətalı 23 y.

6. Mehdi Kərbəlayi İsmixan oğlu 48 y; oğlu Abbas 26 y.

**Yaddan çıxan**

1.Cəfər İsmixan oğlu 35 y(siyahıyaalmadan sonra ölüb).

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər.

2 Naxçıvan xalvarı əkin var. İldə 15 Naxçıvan xalvarı buğda, 5 Naxçıvan xalvarı arpa biçirlər.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar, kənddə 1 dəyirman, 3 arıxanada 20 arı ailəsi var, dolanışıqları ortababdır.

Arpaçayın üstündə yerləşən dərələrdəki torpaqları daş-rəsəklidir, öz meşəsi yoxdur, 5 verst uzaqda yerləşən Çaykənd meşəsindən istifadə edirlər.

7 verst torpağı var, onun 1 xalvarı suvarılan əkinəyararlı torpaqdır, Arpaçayın suyundan istifadə edirlər.

Buğda və arpa əkirlər. Əkinəyararlı torpağı az olduğuna görə, bu kəndin əhalisi başqa kəndlərin ərazisində də əkin edirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 86, nahiyə mərkəzinə 18 verstdir.

Kənddə 3 at, 58 iribuynuzlu, 89 xırdabuynuzlu heyvan var.

**İmzalar:** İcma rəhbəri Bəylər Bayram oğlu; Mehdi Kərbəlayi İsmixan oğlu.

## №52(№78). MARTİROS KƏNDİ

Salmasdan köçürülən 33, Naxçıvan qəzasından gələn 1 erməni ailəsinin siyahısı.

25 Naxşıvan xalvarı əkin var, 200 Naxçıvan xalvarı buğda, 150 Naxçıvan xalvarı arpa biçirlər.

Qəza mərkəzinə 56, nahiyə mərkəzinə 28 verstdir.

Əkinçiliklə məşğul olurlar, kənddə 3 dəyirman, 3 arıxanada 23 arı ailəsi var, dolanışıqları yaxşıdır.

Torpaqları dağlıq yerdə olsa da, əkinçiliyə olduqca yararlıdır. Öz meşəsi olmadığına görə Herher meşəsindən istifadə edirlər.

28 verst torpağı var, onun 20 xalvarı suvarılan, 50 xalvarı dəmyə əkinəyararlı torpaqdır. Suvarma üçün çay və 16

bulağın suyundan istifadə edirlər. 8 xalvar biçənəkləri var, ildə 12 min bağ ot biçirlər.

Buğda, arpa, kətan, çətənə və tərəvəz bitkiləri əkirlər.

5 baxımsız, 3 işlək dəyirman, 2 baxımsız bəzirxana var.

Kənddə 12 toxucu, 1 xarrat, 5 gümüş ustası, 2 dəyirman ustası, 1 dəmirçi, 1 musiqiçi, 1 konoval, 34 at, 284 iribuynuzlu, 321 xırdabuynuzlu heyvan var.

Bu kəndin yaxınlığında bütöv qayanın içində oyulub düzəldilmiş və yaxşı vəziyyətdə olan bir kilsə xüsusilə maraq doğurur.

## YENİ MƏSKUNLAŞDIRILAN KƏNDLƏR

## №1.RIND KƏNDİ

**1 il əvvəl Aynazur kəndindən gələn 7 erməni ailəsi.**

(Palata jurnalının 10 mart 1845-ci il məlumatına görə bu ailələrdən 3-ü Dərələyəz nahiyəsinin Əyər kəndinə köçürülmüşdür).

**Tatarlar:**

**1 il əvvəl İrəvan qəzasının Qarenis kəndindən gələnlər:**

1.Yaqub ağa Savalan oğlu 60 y. oğlanları: İsmayıl 40 y (onun oğlu Sadıx 10 y); Şahməmməd 35 y; Savalan 15 y.

15 Naxçıvan xalvarı əkin var, ildə 6 Naxçıvan xalvarı buğda, 10 Naxçıvan xalvarı arpa biçirlər.

Əhali taxılçılıqla məşğuldur, dolanışıq ortababdır. Hors meşəsindən istifadə edirlər. Qəza mərkəzi olan Naxçıvan şəhərinə qədər olan məsafə 98 verst, nahiyə mərkəzi olan Keşişkəndə qədər 14 verstdir.

Sakinlərin 11 atı, 66 iribuynuzlu, 65 xırdabuynuzlu mal-qarası var.

## №2. ÇIRAQLI KƏNDİ

**1 il əvvəl Qarabağ qəzasından gələn qaraçorluların kulakanlı tatfası.**

1.Şahverdi Xudaverdi oğlu 60 y; oğlu Tarverdi 20 y.

2. Hacı Həsən oğlu 37 y; oğlu Xanani 3 y.

Müsəlmanların iə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər. 30 Naxçıvan xalvarı əkin var. İldə 50 Naxçıvan xalvarı buğda, 100 Naxçıvan xalvarı arpa biçirlər, torpaqları qaratorpaqdır.

Öz meşəsi yoxdur. 3 verst aralıda yerləşən Cul meşəsindən istifadə edirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 70, nahiyə mərkəzinə 35 verstdir.

Kənddə 3 at, 28 iribuynuzlu, 59 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kulakanlı tayfasının icma rəhbəri Əlmərdan Məmmədalı oğlu(möhür); Şahverdi Xudaverdi oğlu.

## №3. DƏMİRÇİLƏR KƏNDİ

**2 il əvvəl Qarabağ qəzasından gələn kulakanlılar.**

1.Səfi Şahhüseyn oğlu 35 y; oğlanları: Şahbəndə 6 y; Xudabəndə 5 y; 6 aylıq əkizlər: Məmməd və Alı.

2. Hüseyn İman oğlu 50 y; oğlanları: Əlverdi 25 y; İsmayıl 15 y.

3. Nəcəf Hüseyn oğlu 30 y; oğlanları: Kazım 15 y; Qasım 10 y.

Müsəlman dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər. 14 xalvar əkin var. İldə 30 Naxçıvan xalvarı buğda, 60 Naxçıvan xalvarı arpa biçirlər.

Əkinçiliklə məşğul olurlar, dolanıq ortababdır. Torpağı qaratorpaqdır.

Tikintiyə yararlı olmayan 2 batman meşəsi var, tikinti üçün 5 verst aralıda yerləşən Cul meşəsindən istifadə edirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 72, nahiyə mərkəzinə 33 verstdir.

Kənd sakinlərinin 3 atı və 22 baş iribuynuzlu mal-qarası var.

**İmzalar:** Kulakanlı tayfasının icma rəhbəri Əlmərdan Məmmədalı oğlu(möhür); Səfi Şahhüseyn oğlu.

**№4.QURBANKƏSƏN KƏNDİ**

**7 il əvvəl Dərələyəz nahiyəsinun Zeytə kəndindən gələn qaraçorluluların şadmanlı tayfası**

1.Əziz Köçəri oğlu 50 y; oğlanları: Bəylər 7 y; Rüstəm 5 y; Həsən 3 y.

**Qarabağ qəzasından gələnlər**

2.Yadigar Alı oğlu 30 y; oğlu Alı 2 y; qardaşı Məmmədyar 20 y.

3. İmamverdi Əziz oğlu 60 y; oğlanları: Həsənqulu 20 y; Babo 15 y.

4. Nəcəfalı Allahverdi oğlu 35 y.

5. Usub Mirzalı oğlu 60 y; oğlanları: Mirzalı 15 y; Fəzləli 10 y.

**1 il əvvəl Qarabağın Babalı kəndindən gələnlər:**

6. Səfixan İsmayıl oğlu 30 y; qardaşları: Məmmədyar 25 y; Qaraxan 8 y.

**Yaddan çıxanlar:**

1.Hüseynqulu Allahqulu oğlu 30 y; qardaşı Cəfərqulu 25 y; onun oğlu Heydərqulu 1 y.

2. Əliyar Kazım oğlu 32 y; oğlu Həsənqulu 1 y; qardaşı Bayram 27 y.

3. Səfər Alı oğlu 50 y; oğlanları: Gülmalı 23 y(onun oğlu İqbitalı 2 y); Həsən 20 y; Nəbi 15 y; Aymalı 10 y; Alı 5 y.

4. Cəfər Əli oğlu 27 y.

Müsəlmanların şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər.

2 Naxçıvan xalvarı əkin var. İldə 14 Naxçıvan xalvarı buğda, 10 Naxçıvan xalvarı arpa biçilir.

Əkinçiliklə məşğuldurlar, örüş yerləri yoxdur, kasıb yaşayırlar. Torpağı gillidir, iri daşlar var. Meşəsi yoxdur, Her-her meşəsindən istifadə edirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 56, nahiyə mərkəzinə 15 verstdir.

Kənddə 4 at, 42 iribuynuzlu, 69 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Mirzə Kazım oğlu; Əziz Köçəri oğlu.

## №5. KOTANLI KƏNDİ

**1841-ci ildə Əyər kəndindən gələn qaraçorluların təhməzli tayfası.**

1.Baba Vəli oğlu 35 y.

2.Məmmədyar Allahverən oğlu 40 y; qardaşı Hümbətyar 20 y.

3.Allahyar Allahverən oğlu 50 y; oğlanları: Məmmədalı 30 y; Əhmədalı 20 y.

**Yaddan çıxanlar. Ərgəz kəndindən gəliblər.**

1.Məhəmməd Vəli oğlu 25 y(siyahıyaalmadan sonra ölüb).

2. Həsən Allahverdi oğlu 45 y; oğlu Ələkbər 12 y.

3.Allahverdi Mirzəxan oğlu 50 y; oğlanları: Haxverdi 18 y; Tarverdi 14 y.

4. Vəli Muradxan oğlu 25 y; qardaşı Həsənxan 13 y.

5. Mehralı Məşədi Səfər oğlu 40 y; oğlu İsmayıl 10 y.

6. Məmmədalı Məşədi Səfər oğlu 30 y; oğlanları: Mahmud 4 y; Mirzə Alı oğlu 20 y; oğlu Əsəd 4 y.

7. Bayram Allahverdi oğlu 45 y; oğlu Eyvaz 14 y.

8. Abbas Süleyman oğlu 25 y; qardaşları: Babo 15 y; Kərim 9 y.

9. Allahyar Şahhüseyn oğlu 35 y; qardaşı Məmməd 40 y; onun oğlu Əhməd 8 y.

10. Alı Hüseyn oğlu 20 y; qardaşı Mamo 15 y.

İslam dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat tərzi sürürlər. 11 Naxçıvan xalvarı əkin var. İldə 100 Naxçıvan xalvarı buğda, 32 Naxçıvan xalvarı arpa biçirlər. Torpağı daşlı və gilli olsa da, taxıl əkməyə yararlıdır.

Əkinçilik, xalçaçılıq və toxuculuqlq məşğul olurlar.

Dolanışıqları ortababdır. Öz meşəsi olmadığına görə Herher meşəsindən istifadə edirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 74, nahiyə mərkəzinə 23 verstdir.

Kənddə 2 keçəçi, 3 toxucu, 1 musiqiçi, 15 at, 49 iribuynuzlu, 77 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Xanazanlı tayfasının icma rəhbəri Əlihüseyn Məşədi Alməmməd oğlu(möhür); Mehralı Məşədi Səfər oğlu; Baba Vəli oğlu.

## №6. MOZQ KƏNDİ
## (əvvəlki siyahıda yaddan çıxıb)

**Xanazaqlı tayfası.**

1.Ağayar Məhəmməd oğlu 32 y; qardaşı Almurad 20 y.

2. Şahverdi Dansaq oğlu 55 y; oğlanları: Ələsgər 30 y; Abış 10 y; Cəfər 15 y.

3. Kəndxuda Məşədi Tarverdi Tahir oğlu 60 y.

4. Allahverdi Məşədi Haxverdi oğlu 20 y; oğlu Tarverdi 4 y.

5. İbrahim Şıxməmməd oğlu 37 y; oğlu Zeynalabdin 7 y (axsaqdır).

6. Şahhüseyn Novruz oğlu 60 y.

7. Süleyman Allahverdi oğlu 25 y; oğlu Oruc 7 y.

8. Bayram Saman oğlu 30 y; oğlanları: İsmayıl 5 y; Mehdi 2 y.

**5 il əvvəl Sallı kəndindən gələn**

9. Təhmuraz Məhəmməd oğlu 52 y (siyahıyaalmadan sonra ölüb); oğlu Alı 7 y.

**Uryadnik Təhmuraz Müqəddəs Georgi Ordeni kavaleridir.**

Kəndin əhalisi islam dininin şiə məzhəbinə mənsubdur, köçəri həyat tərzi sürürlər. 5 Naxçıvan xalvarı əkin var. İldə 30 Naxçıvan xalvarı buğda, 30 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 66, nahiyə mərkəzinə 10 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. Torpağı tamam daşlıqdır, yoxsul yaşayırlar. Öz meşəsi yoxdur, tikinti üçün 28 verst aralıda yerləşən Herher meşəsindən istifadə edirlər.

Vaxtilə burada Arpaçayın üstündə daş körpü olub, amma sonralar zəlzələ nəticəsində uçub dağılıb.

Kənddə 7 at, 29 iribuynuzlu, 51 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Xanazaqlı tayfasının icma rəhbəri Allahverdi Haxverdi oğlu(möhür); Kəndxuda Məşədi Haxverdi Tahir oğlu.

## №7. DAŞALTI KƏNDİ

**4 il əvvəl Qarabağ qəzasından gəlmiş qaraçorluların kulakanlı tayfası.**

1.Məmməd Bayram oğlu 50 y; oğlanları: Bayram 26 y; Bəşər 25 y; Əhməd 18 y; Edilxan 7 y.

2. Bünyadəli Məmmədrza oğlu 60 y; oğlu Eyvaz 10 y.

3. Eylas Bünyadəli oğlu 30 y; oğlu Məmmədrza 2 y.

4. Şahbaz Məmmədrza oğlu 70 y; oğlanları: Məmmədalı 15 y; Behbudalı 8 y.

5. Nəcəf Şahbaz oğlu 30 y; oğlu Mehdi 1 y.

6. Xudabəndə Ruşan oğlu 30 y;

7. Səfəralı Məmmədrza oğlu 50 y; oğlanları: Qafar 15 y; Cəfər 5 y.

8. Həsənalı Abbas oğlu 28 y.

İslam dininin şiə məzhəbinə mənsubdurlar, köçəri həyat sürürlər. Kəndin 2 xalvar əkini var. İldə 20 Naxçıvan xalvarı buğda, 4 Naxçıvan xalvarı arpa biçilir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar.Arpaçayın üstündə, dərədə yerləşən bu kəndin torpağı gilli və daşlıdır. Dolanışıq ortababdır. Herher meşəsindən istifadə edirlər.

Kənddə 3 at, 61 iribuynuzlu, 67 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kulakanlı tayfasının icma rəhbəri Əlmərdan Məmmədalı oğlu (möhür); Bünyadəli Məmmədrza oğlu; Səfəralı Məmmədrza oğlu.

## №8.KEYNALI KƏNDİ

**3 il əvvəl Naxçıvan nahiyəsinin Bəyliva kəndindən gəliblər.**

**Əliyanlı tayfası.**

1.Kəndxuda Qəhrəman Mirzə oğlu 35 y; oğlu Eyvaz 10 y.

2. Hüseyn İsmayıl oğlu 50 y; oğlu Çibo 15 y;

3. Əlverdi Novruz oğlu 6 y (anasının himayəsindədir).

4. Əlirza İman oğlu 40 y; oğlanları: İmamverdi 6 y; Allahverdi 3 y.

İslam dininin şiə məzhəbinə mənsubdurlar, oturaq həyat tərzi sürürlər.

5 Naxçıvan xalvarı əkin var. İldə 2 Naxçıvan xalvarı buğda, 4 Naxçıvan xalvarı arpa biçirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 85, nahiyə mərkəzinə 23 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. Dolanışıqları ortababdır. Torpağı daşlı və gillidir, meşəsi yoxdur, Hors meşəsindən istifadə edirlər.

Kənddə 3 at, 23 iribuynuzlu, 15 xırdabuynuzlu heyvan var.

**İmzalar:** Kəndxuda Qəhrəman Mirzə oğlu; Hüseyn İsmayıl oğlu.

## №9. ALMALI KƏNDİ
## (Yenicə məskunlaşdırılıb).

**Püsyanlı tayfası. 2 il əvvəl Qarabağın Püsyan kəndindən gəliblər.**

1.Kəndxuda Nəbi Nadir oğlu 50 y; oğlu Nadir 30 y; onun oğlu Məmmədvəli 1 y.

2. Xıdır Nadir oğlu 40 y; oğlu İmamqulu 3 y.

3.Şahməmməd Şıxməmməd oğlu 40 y; oğlu Xanməmməd 15 y.

4. Seyid Həsən Seyid Təmraz oğlu 40 y; oğlanları: İsmayıl 7 y; Təmraz 5 y.

**4 il əvvəl Naxçıvan nahiyəsinin Bəyliva kəndindən gələnlər:**

5. Hüseynalı Şərif oğlu 36 y; oğlanları: Ələsgər 10 y; Ələkbər 5 y; Abbasəli 2 y.

6. Abdulhüseyn Şərif oğlu 28 y.

7. Pirməmməd Şıxməmməd oğlu 46 y; oğlanları: Dülməmməd 20 y; Hacı 10 y.

İslam dininin şiə məzhəbinə mənsubdurlar, oturaq hə-

